RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 25 (10045) 10 fevral 2026-cı il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



## Emoməli Rəhmon İlham Əliyevi təbrik edib



### Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli İlham Heydər oğlu!

Sizi nüfuzlu "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görülməyiniz münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Bu təşəbbüs konstruktiv siyasətin və dözümlülüyün təşviqi yolu ilə davamlı sülhə və sabitliyə nail olmaq üçün ardıcıl səylərinizin, güclü iradənizin tanınmasının daha bir təsdiqidir.

Biz Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında Sülh Sazişinin imzalanmasını iki dövlət arasında dostluq münasibətlərinin və qarşılıqlı faydalı əməkdaşlığın gücləndirilməsi, həmçinin Qafqaz regionunda və onun hüdudlarından kənarda sülhün və təhlükəsizliyin möhkəmləndirilməsi prosesində mühüm amil hesab edirik.

Tacikistan sülhsevər ölkə olaraq bu önəmli, konstruktiv və tarixi nailiyyəti bir daha alqışlayır və bütün mübahisələrin, münaqişələrin yalnız siyasi-diplomatik üsullarla həllinə sadiqliyini vurğulayır.

Hörmətli İlham Heydər oğlu, fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı və uğurlar, dost Azərbaycan xalqına isə yeni nailiyyətlər, davamlı sülh və bundan sonra da tərəqqi arzulayıram.

*Ən xoş arzularla,*

***Emoməli RƏHMON,***
***Tacikistan Respublikasının Prezidenti***



# ABŞ-Azərbaycan strateji tərəfdaşlığı dərinləşir

## Vensin Bakıya səfəri münasibətlərdə yeni mərhələnin başlanğıcı olacaq

Azərbaycan-ABŞ arasındakı münasibətlərin keyfiyyətcə yeni müstəviyə keçdiyi və bu prosesdə şəxsi liderlik faktorunun həlledici rolu göz önündədir. Liderlər arasındakı dialoqun xronologiyasına baxsaq, görərik ki, Davosdan Misirə qədər uzanan bütün təmaslar Azərbaycanı qlobal sülhün və enerji təhlükəsizliyinin mərkəzi qovşağına çevirib. Dövlət başçılarının görüşlərində, məktublaşma və telefon zənglərində əksini tapan səmimiyyət ABŞ-nin Azərbaycanı sadiq və güclü tərəfdaş kimi gördüyünün bariz nümunəsidir. Ağ Ev üçün Azərbaycan, sadəcə, enerji tərəfdaşı deyil, Avrasiyanın geosiyasi arxitekturasında mərkəzi oyunçu statusundadır. Bu kontekstdə, 8 avqust 2025-ci ildə Vaşinqtonda baş tutan tarixi görüş münasibətlərdəki durğunluğa son qoyaraq, "Strateji Tərəfdaşlıq Xartiyası"na gedən yolu açan əsas dönüş nöqtəsi oldu.

Azərbaycan-ABŞ münasibətlərinin hazırkı mərhələsi xüsusilə Donald Trampın hakimiyyətə qayıdışından sonra şəxsi diplomatiya və iqtisadi sülh modelinə əsaslanan strateji dərinlik qazanıb. Trampın xarici siyasəti uzunmüddətli bürokratik danışıqlardan daha çox, birbaşa liderlər arasındakı anlaşmalara söykənir. Məhz iki lider arasındakı yüksək təmaslar münasibətlərin dinamikasını müəyyən edən əsas amildir. Donald Trampın İlham Əliyevə göndərdiyi şəklin üzərində şəxsən yazdığı "İlham, sən böyük lidersən" ifadəsi bu münasibətlərin simvoluna çevrilib. Tramp Ağ Evdə keçirilən görüşlərdə İlham Əliyevi "inanılmaz lider" və "çox ağıllı" rəhbər kimi xarakterizə edib. Bu ifadələr iki ölkə arasındakı münasibətlərin həm də liderlər səviyyəsində yüksək etimada əsaslandığını göstərir.

Liderlər arasındakı dinamik əlaqələr ikitərəfli görüşlərlə məhdudlaşmır, həm də mühüm beynəlxalq platformalarda davamlı təmaslarla möhkəmlənir. 2026-cı ilin yanvarında Davos İqtisadi Forumu çərçivəsində keçirilən dialoq və Misirdəki səmimi təmaslar göstərdi ki, Vaşinqton və Bakı qlobal təhlükəsizlik və iqtisadi rifah məsələlərində eyni dildə danışırlar. Bu görüşlərdə Azərbaycanın Sülh Şurasına dəvət edilməsi, ölkəmizin regionda sülhün və sabitliyin əsas qarantı kimi qəbul olunması örnəyidir.

6

## Azərbaycan heç zaman görünmədiyi qədər daha mühüm tərəfdaşa çevrilir



**Prezident İlham Əliyev ABŞ Ticarət Palatasının nümayəndə heyətini qəbul edib**

2

## T.Y.Budaqovun Bakı şəhəri Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Tahir Yaqub oğlu Budaqov Bakı şəhəri Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 fevral 2026-cı il*

## Azərbaycan vətəndaş cəmiyyətinin nümayəndələri ABŞ-nin vitse-prezidenti Cey Di Vensə açıq məktub ünvanlayıblar

5

## Əmək pensiyalarının indeksləşdirilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasında pensiyaçıların sosial müdafiəsini gücləndirmək məqsədilə "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun 6.2-ci, 29.1-ci və 29.1-1-ci maddələrinə uyğun olaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə tapşırılsın ki, 2026-cı il yanvarın 1-nə 2025-ci il üzrə Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin müəyyən etdiyi:

1.1. orta aylıq nominal əməkhaqqının illik artım tempinə uyğun olaraq, 2026-cı il yanvarın 1-dək təyin edilmiş əmək pensiyalarının sığorta hissəsinin, qulluq stajına görə əmək pensiyasına əlavələr təyin edilmiş əmək pensiyaçılarına münasibətdə - həmin əlavələrlə birlikdə müəyyən edilmiş məbləğinin və 2023-cü il yanvarın 1-dən əmək pensiyalarının tərkibinə daxil edilən maddi yardımların;

1.2. istehlak qiymətləri indeksinin illik səviyyəsinə uyğun olaraq, sığortaolunanların fərdi şəxsi hesabının sığorta hissəsində 2026-cı il yanvarın 1-dək qeydə alınmış pensiya kapitalı məbləğlərinin indeksləşdirilməsini həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Bu Sərəncam 2026-cı il yanvarın 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 fevral 2026-cı il*

## İlham Əliyev üçün sülhün alternativi yoxdur

### "Zayed İnsan Qardaşlığı Mükafatı" Azərbaycan Prezidentinin güc və diplomatiya siyasətinə verilən beynəlxalq qiymətdir

2026-cı ilin 4 fevralı Azərbaycanın müasir diplomatiya tarixinin əlamətdar günlərindən biri kimi uzun müddət yaddaşlarda qalacaq. Həmin gün Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabi şəhərində keçirilən təntənəli mərasim beynəlxalq aləmdə sülhün təşviqinə yönəlmiş mühüm bir hadisə olmuşdur.



7

## Hüququn Zəfəri, tarixi ədalətin bərpası

Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini tam bərpa etməklə təkcə hərbi-siyasi qələbə əldə etmədi, eyni zamanda xalqımıza qarşı insanlığa və beynəlxalq humanitar hüquqa zidd cinayətlər törətməkdə ittiham olunan şəxsləri ədalət mühakiməsi qarşısına çıxarmaqla hüquqi ədalətin bərpasına nail oldu. Müasir tarixdə nadir nümunələrdən biri kimi Azərbaycan heç bir xarici hərbi müdaxilə və ya himayə olmadan öz gücünə torpaqlarını azad etdi, paralel olaraq müharibə cinayətləri törətmiş şəxslərin məsuliyyətə cəlb olunmasını təmin etdi. Təbii ki, bu proses özü heç də asan başa gəlmədi: mühakimə olunanların cinayət ortaqları və xarici havadarları müxtəlif siyasi, informasiya və diplomatik təzyiq mexanizmlərindən istifadə edərək ölkəmizə təsir göstərməyə çalışdılar. Lakin bütün bu cəhdlər ölkəmizin hüququn aliliyinə söykənən mövqeyini sarsıda bilmədi.

Azərbaycan bu mərhələdə gücün hüquqa tabe olduğu, ədalətin isə təzyiqlərlə dəyişdirilmədiyi bir dövlət modelini nümayiş etdirərək göstərdi ki, suverenlik yalnız torpağa sahib olmaq deyil, eyni zamanda tarixi ədaləti təmin etmək iradəsidir.

8

## Şuşa zəngin şəhərsalma mədəniyyətinin nadir incisidir

Şuşa - Qarabağın tacı, Qafqazın sənət məbədi, Şərqin konservatoriyası, Azərbaycanın ictimai-siyasi, mədəni həyatında mühüm xidmətləri olan görkəmli xadimlərin vətəni, doğma şəhər, əziz bir torpaq, hərbi-strateji əhəmiyyətli qala və müqəddəs abidədir. Bu baxımdan, Şuşanın əsl tarixi simasının, ənənələrinin və qədim mədəni abidələrinin bərpası mühüm əhəmiyyət kəsb edir.




2021-ci il avqustun 29-30-da Azərbaycan Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın iştirakı ilə Şuşada bir sıra tədbirlər keçirildi və Şuşa şəhərinin baş planı təqdim olundu.

1982-ci il yanvarın 14-də Ümummilli Lider Heydər Əliyevin iştirakı ilə böyük təntənə ilə açılmış dahi Azərbaycan şairi və ictimai xadimi Molla Pənah Vaqifin məqbərəsi, Şuşa şəhəri 1992-ci il mayın 8-də işğal edildikdən sonra ermənilər tərəfindən dağıdılmışdı. 2021-ci il avqustun 29-da Şuşada muzey-məqbərə kompleksinin təmir-bərpa və yenidənqurma işlərindən sonra açılışı oldu, həmçinin erməni vandalizminə məruz qalmış şairin evinin yerindəki büstü də yenidən ucaldıldı.

10

# Azərbaycan heç zaman görünmədiyi qədər daha mühüm tərəfdaşa çevrilir

## Prezident İlham Əliyev ABŞ Ticarət Palatasının nümayəndə heyətini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 9-da ABŞ Ticarət Palatasının beynəlxalq üzvlərlə əlaqələr, Yaxın Şərq və Türkiyə üzrə baş vitse-prezidenti Kuş Çoksinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**



AZƏRTAC xəbər verir ki, nümayəndə heyətinə Palatanın Yaxın Şərq, Mərkəzi Asiya və Türkiyə üzrə vitse-prezidenti Cennifer Miel, həmçinin "Apple", "Ardea Energy Technologies Inc.", "Ericsson AB", "ExxonMobil", "Herbalife", "Illumina", "Meta", "Visa", "Wabtec", "Baker Hughes", bp, "Boeing Global", "Honeywell", "J.P.Morgan", "Lummus Technology", "Marriott", "Mastercard", "Shell International", "Azerbaijan Coca-Cola Bottlers" MMC və "Motorola Solutions" şirkətlərinin rəhbər şəxsləri daxildir.

Qonaqları salamlayan **Prezident İlham Əliyev** dedi: "Sabahınız xeyir, xoş gəlmisiniz. Sizi görmək çox xoşdur. Şadam ki, böyük nümayəndə heyəti ilə səfərə gəlmisiniz. Bir neçə ay bundan öncəki görüşümüzü xatırlayıram və məmnunam ki, siz dəvətimizi qəbul edərək ölkələrimiz arasında münasibətlərin çox fəal inkişaf etdiyi vacib bir vaxtda Azərbaycana səfərə gəlmisiniz.

Bildiyiniz kimi, biz hazırda ikitərəfli əlaqələrin çox ümidverici və fəal olan yeni mərhələsinə qədəm qoyuruq və əlbəttə, ABŞ Vitse-prezidentinin səfəri ərəfəsində sizin nümayəndə heyətinizin gəlişi də olduqca əhəmiyyətlidir. Çünki bizim təmaslarımızın bir hissəsi biznes, sərmayə, ticarət münasibətləri və strateji gündəliyimizin tərkib hissəsi olan bir sıra digər məsələlər üzərində cəmləşib.

Bilirəm ki, müxtəlif dövlət rəsmiləri ilə sizin çoxsaylı görüşləriniz nəzərdə tutulub. Əminəm ki, onlar sizin bütün suallarınızı cavablandıracaqlar. Düşünürəm ki, bu səfərin nəticəsində biz müxtəlif istiqamətlərdə daha fəal təmasların şahidi olacağıq. Onu da bilirəm ki, siz ABŞ iqtisadiyyatının müxtəlif seqmentlərini təmsil edirsiniz və bu, çox faydalı olacaq, çünki bu günə qədər iqtisadi əlaqələrimiz bizim görmək istədiyimiz səviyyədə deyil.

Bir daha xoş gəlmisiniz, sizə ölkəmizdə xoş vaxt keçirməyi arzulayıram. Bilirəm ki, mütləq əksəriyyətiniz üçün bu, ilk səfərdir və bu, Azərbaycan haqqında daha çox məlumat əldə etmək üçün yaxşı fürsətdir. Xoş gəlmisiniz".

**Kuş Çoksi:** Zati-aliləri, təşəkkür edirəm. Burada olmaq çox xoşdur. Biz BMT Baş Assambleyası çərçivəsində Sizinlə görüşdük və Siz bizi Azərbaycana dəvət etdiniz, böyük nümayəndə heyətinin gəlişini arzuladınız. ABŞ-dəki səfiriniz Xəzər İbrahim, İqtisadiyyat Nazirliyi, "AZPROMO" və ABŞ-nin burada fəaliyyət göstərən səfirliyindəki həmkarlarımızın dəstəyi ilə 31 şirkətin nümayəndəsi Azərbaycana gəlib. Bu səhər burada onlardan bəziləri iştirak edir, lakin nümayəndə heyətinin özü daha genişdir - 31 şirkətdən 60 nəfər nümayəndə. Yəni bu masada da böyük heyət var. Biz həqiqətən də burada olmağımızdan məmnunuq. Adətən biznes əlaqələri siyasi əlaqələrdən daha sürətli inkişaf edir. Ancaq burada bir az qeyri-adi olan odur ki, siyasi münasibətlər iqtisadi əlaqələri üstələyir. Buna baxmayaraq, şirkətlər sürətlə hərəkət edir və biz tezliklə lazımi səviyyəyə çıxacağıq. Bu, Sizin rəhbərliyiniz və hökumətinizin fəaliyyətinin nəticəsidir ki, burada iştirak edən nümayəndələr müxtəlif sahələri təmsil edirlər.

**Prezident İlham Əliyev:** Bəli, bunu görürəm.

**Kuş Çoksi:** Burada yalnız enerji deyil, texnologiya, qida məhsulları və nəqliyyat sahələri təmsil edilir. Bu fürsətə görə Zati-alinizə, sadəcə, təşəkkürümüzü bildirmək istəyirik.

* * *

Qonaqlar ilk növbədə qəbula görə dövlətimizin başçısına minnətdarlıqlarını bildirdilər. Ölkəmizə səfər etməkdən məmnunluqlarını ifadə edən bir çox nüfuzlu şirkətin təmsilçiləri Azərbaycanla əməkdaşlığı genişləndirmək niyyətində olduqlarını dedilər. Onlar təmsil etdikləri şirkətlərin fəaliyyəti, həmçinin ölkəmizlə həyata keçirdikləri əməkdaşlıq barədə məlumat verdilər.

* * *

**Kuş Çoksi:** Zati-aliləri, çox sağ olun. Biz Sizi biznes icmasını təmsil edən daha da böyük nümayəndə heyəti ilə görüşmək üçün Vaşinqtona dəvət etmək istəyirik. Azərbaycana çox böyük maraq var. Hesab edirəm ki, hər şey iki il bundan əvvəl COP-dan başladı və COP çox uğurlu bir tədbir oldu və Sizin xatırlatdığınız kimi, bu COP-da dünyanın ehtiyacı olan neftin və ənənəvi enerjinin və yeni enerji mənbələrinin önəmi qeyd olundu. Bu gün burada bütün sektorlardan - əsas sektorlardan, yaranmaqda olan sektorlarda fəaliyyət göstərən şirkətlərin nümayəndələri yığışıb. O vaxtdan bəri biz Azərbaycana çox böyük marağın olduğunun şahidiyik. Sizin nazirlər həmişə gələ bilərlər. Qarşılıqlı əlaqə üçün nə qədər çox imkan olsa, Azərbaycanda Amerika şirkətləri üçün mövcud olan fürsətlərin onlar tərəfindən qavranılması bir o qədər də çox olacaq. Gələn dəfə Siz Nyu Yorkda olanda, - Sizin necə məşğul olduğunuzu bilirəm, lakin biz əvvəlcədən planlaşdıracağıq, - səfəriniz çərçivəsində bizim üçün "dəyirmi masa"nın təşkilində yardımçı olmağı xahiş edəcəyik. Bəlkə Nyu Yorka bir gün əvvəl gələ bilərsiniz, - hətta bu, bazar günü də ola bilər, - Sizin fikirlərinizi, şirkətlərlə bağlı fikirlərinizi öyrənmək istəyirik.

**Prezident İlham Əliyev:** Təşəkkür edirəm. Bu dəvətə görə çox sağ olun. Bir daha bizimlə birlikdə olduğunuz üçün təşəkkür edirəm. Mən bizi ziyarət edən şirkətlərin siyahısına nəzər saldım və sizin qeydlərinizi nəzərə alaraq deyə bilərəm ki, bu şirkətlərin bir çoxu ilə bizim uzun illər ərzində səmərəli əməkdaşlığımız mövcuddur. Şirkətlərin bəziləri yenidir və bu da tamamilə təbiidir. Çünki birincisi, müstəqilliyinin erkən illərindən Azərbaycan beynəlxalq tərəfdaşlığa çox açıq idi və bir çox beynəlxalq şirkətlərlə, o cümlədən ABŞ şirkətləri ilə yaxşı təmaslar qurmuşdur. Ona görə də bu şirkətlərin adlarının mənə çox tanış gəlməsi olduqca təbiidir.

Digər tərəfdən, keçən ilin avqust ayında Vaşinqtonda mənim Prezident Trampla görüşümdən qaynaqlanan ABŞ-Azərbaycan münasibətlərinin fəal inkişaf etdiyi bu mərhələdə əməkdaşlıq etdiyimiz sahələrin diapazonunu genişləndirəcəyimiz də təbiidir. Keçən ilin avqust ayında biz Prezident Trampla Azərbaycan və ABŞ arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması üzrə sənədi imzaladıq və burada xüsusi bəndlər var. O vaxtdan bəri mən ticarət, iqtisadiyyat, investisiyalar, enerji, süni intellekt, müdafiə sənayesində əməkdaşlıq və digər sahələri müzakirə etmək üçün Vaşinqtona hökuməti təmsil edən dörd nümayəndə heyətini göndərdim. Hökumət rəsmiləri arasında çoxsaylı təmaslar olmuşdur və mənim Prezident Trampla sonuncu görüşüm keçən ay Davosda oldu, baxmayaraq ki, onun qrafiki çox sıx idi və o, çox qısa müddətlik orada idi. Onun Azərbaycan Prezidenti ilə görüşməsi bir daha bizə və bütün regiona bu münasibətlərin bizim üçün necə də önəmli və onların necə də mehriban olduğunu nümayiş etdirir.

Beləliklə, enerji, ticarət, investisiyalardan ibarət olan ənənəvi əməkdaşlıq sahələri ilə yanaşı, biz indi rəqəmsal transformasiya, süni intellektə aid çox vacib sahələr üzərində çalışırıq və ümid edirik ki, Amerika şirkətləri bizim əsas tərəfdaşlarımız olacaq. Artıq yaxşı təmaslarımız var və yeri gəlmişkən, siz bizim hökuməti təmsil edən nümayəndə heyətlərinin birinin səfəri zamanı bu barədə qeydlərinizi bildirdiniz. Rabitə, süni intellekt, data mərkəzlərinin yaradılması sahəsində fəaliyyət göstərən şirkətlərlə geniş bir görüş oldu. İndi bu, bizim üçün prioritet məsələlərdən biridir. Hesab edirəm ki, bizim çoxlu üstünlüklərimiz var.

Birincisi, coğrafi yerləşmə. İkincisi, çox asan olmayan dövrdə yaradılmış neft və qaz boru kəmərləri, dəmir yolları, elektrik kabel xətləri kimi mövcud kommunikasiya infrastrukturu. Sonra ən önəmli məsələlərdən biri bizim istifadə etmədiyimiz, istehlak etmədiyimiz və hələ ki ixrac etmədiyimiz çoxlu elektrik enerjimiz var. Hələ ki söhbət mövcud olan təqribən 2 qiqavat elektrik enerjisinin istehsalından gedir. Azərbaycanın yerləşdiyi daha geniş regionda biz hər hansı növ enerji mənbələrinin idxalından asılılığı olmayan yeganə ölkəyik. Biz özümüzü neft, qaz, neft məhsulları, neft-kimya məhsulları, elektrik enerjisi ilə təmin edirik və indicə qeyd etdiklərimin hamısını ixrac edirik. Beləliklə, bir çox ölkələr üçün çox faydalı olacaq artan ixracla yanaşı, bizim hədəfimiz məhz budur. Bu gün, yeri gəlmişkən, biz təbii qazı boru kəmərləri ilə 16 ölkəyə ixrac edirik və qazın boru kəməri ilə təchizatı nöqteyi-nəzərindən dünyada birinci yerdəyik. Lakin bununla yanaşı, biz süni intellekt və rəqəmsal transformasiya sahəsində tərəfdaşlarımızın olması üçün Amerika və digər ölkələrdən olan aparıcı şirkətləri cəlb etmək məqsədilə buradakı enerji potensialımızdan istifadə etmək istəyirik. Qazıntı yanacağına gəldikdə, - hansı ki, müəyyən siyasi gündəmə görə uzun illər ərzində ayrı-seçkiliyə məruz qalmışdır, - biz şadıq ki, hər bir digər sahədə olduğu kimi, Prezident Trampın siyasəti realist ssenariyə söykənir, populizmdən çox uzaqdır və real vəziyyətə əsaslanır. Dünya qazıntı yanacağı olmadan yaşaya bilməz və qazıntı yanacağı ehtiyatları zəngin olan ölkələr buna görə günahlandırılmamalıdır. Siz COP-u qeyd etdiniz, COP-a evsahibliyi edən ölkənin rəhbəri olaraq mənim mesajlarımdan biri o idi ki, biz neft-qaza malik olduğumuza görə günahlandırılmamalıyıq.

Mən həmçinin dedim ki, bir çox ölkələr COP keçirib və həmin ölkələr Azərbaycandan 10 dəfə çox neft və qaz istehsal edir, lakin onlar media hücumlarına məruz qalmayıblar. Mənim mesajım ondan ibarət idi ki, ölkələr karbohidrogen ixracından gələn gəlirləri necə istifadə etdiklərinə görə dəyərləndirilməlidirlər. Hər kəs görə bilər ki, Azərbaycanda sərvətin bölüşdürülməsi çox ədalətli şəkildə həyata keçirilir. İkincisi, onların iqlim məsələsinə töhfəsi nədən ibarətdir? Bizim isə azı 100 il müddətinə təkcə daxili istehlak üçün deyil, həm də ixrac üçün təbii qaz ehtiyatları ilə təmin olunduğumuz halda bərpaolunan enerjiyə investisiya yatırılması və investisiya cəlb olunması, həqiqətən də, məsuliyyətimizi nümayiş etdirir.

Söylədiyim kimi, 2 qiqavat enerji artıq mövcuddur və imzalanmış müqavilələrə əsasən - anlaşma memorandumlarına deyil, müqavilələrə əsasən, 2032-ci ilə qədər biz əlavə 7-8 qiqavat Günəş və külək enerjisinə sahib olacağıq. Qeyd etdiyim kimi, bütün bunlar artan iqtisadiyyat, inkişaf edən sənaye, xüsusilə bizim qlobal süni intellekt qovşaqlarından və məlumat mərkəzlərindən biri olmaq hədəfimiz şəraitində daxili istehlak üçün əlçatan olacaq. Üstəlik, bu, etibarlı elektrik və qaz təchizatı mənbələri çatışmazlığından və ya olmamasından əziyyət çəkən daha çox ölkələrə kömək edəcək. Üzərində işlədiyimiz layihələrdən biri də Azərbaycandan Avropaya Qara dəniz vasitəsilə kabel xəttinin, həmçinin Prezident Trampın irəli sürdüyü və onun adını daşıyan, Azərbaycanla Ermənistan arasında sülhə nail olunduqdan sonra reallaşması mümkün olan TRIPP layihəsi - Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu vasitəsilə ötürücü xətlərin, mövcud olanlardan əlavə, yeni ötürücü xətlərin çəkilməsidir.

Biz bağlantıları da diqqət mərkəzində saxladığımız mühüm sahələrdən biri hesab edirik. Nəqliyyat və logistika infrastrukturumuzu lazımi səviyyəyə çatdırmaq üçün indiyədək çox işlər görülüb. Hazırda bizim dəniz limanımızın yükaşırma qabiliyyəti 15 milyon tondur və onun genişləndirilməsi yükaşırma qabiliyyətini 25 milyon tona gətirib çatdıracaq. Dəmir yollarımız müasirləşdirilir. Ermənistan ərazisindən keçəcək və sonra Orta dəhlizin daha bir davamına çevriləcək yeni dəmir yolu tikilir. Doqquz beynəlxalq hava limanı, regionda ən böyüklərdən biri, bəlkə də ən böyük olan yükdaşıma hava yolu şirkəti - bütün bunlar artıq bir üstünlükdür.

Xüsusilə Azərbaycanla Mərkəzi Asiya, Azərbaycanla Avropa arasında bağlantılara artan marağı da nəzərə alsaq, kəmərlərin inşasında təcrübəmizi diqqətə alsaq, biz bəlkə də ölkələri bir araya gətirən ölkələrdən biriyik və ya yeganə ölkəyik. Kəmər inşa etmək çətindir, məsrəflidir və bizim coğrafiyamızda dağlardan keçib, sonra lazım gələndə dənizin dibi ilə çəkmək, həqiqətən də, böyük çətinlikdir. Üstəlik, xüsusilə bir neçə ölkədən keçən, Xəzər dənizindən başlayıb İtaliyada bitən, uzunluğu 3500 kilometr olan kəmər inşa edilirsə, hər kəslə əlaqələriniz, yaxşı əlaqələriniz olmalıdır. Bu geniş regionda belə təcrübəyə ancaq biz malikik. İş onda deyil ki, mən Azərbaycan haqqında yaxşı sözlər deyirəm, bu reallıqdır.

Bir çox ölkələri birləşdirən layihələrdə diplomatiya, bacarıq, təcrübə və artıq nəticələr olmalıdır. Bizim vəziyyətimizdə biz bunların hamısına malikik. Mən əminəm ki, sizin missiyanızın nəticəsi tezliklə praktiki layihələrdə həyata keçəcək. Sözsüz ki, görüşəcəyiniz hökumət üzvləri bizim planlarımızın nədən ibarət olduğu, nələrin işlənmə mərhələsində olduğu barədə sizə daha ətraflı məlumat verəcəklər. Düşünürəm ki, bu cür missiyalar mütəmadi olaraq baş tutmalıdır. Yenidən Amerikaya səfər edəndə sizinlə görüşməyə hazıram. Həmçinin yenilənmiş məlumatları almaq və daha hansı işləri görə biləcəyimizə nəzər salmaq üçün sizdən buraya azı ildə bir dəfə gəlməyinizi xahiş edirəm.

* * *

bp şirkətinin Amerika üzrə kommunikasiya və xarici əlaqələr üzrə baş vitse-prezidenti Meri Strit ölkəmizlə bp arasında uzun illərdir davam edən uğurlu tərəfdaşlığı qeyd etdi. O, Azərbaycanda müşahidə etdikləri müsbət investisiya mühitinə toxundu, yerli kadrların hazırlanması məsələsini diqqətə çatdırdı. "Söhbət təkcə müsbət investisiya mühitindən deyil, həm də işçi qüvvəsindən gedir. Buna görə təşəkkür edirəm", - deyən qonaq ölkəmizlə güclü tərəfdaşlığı davam etdirmək niyyətində olduqlarını bildirdi.

* * *

**Prezident İlham Əliyev** də öz növbəsində Azərbaycanla bp arasında əməkdaşlığı vurğulayaraq dedi: "Təşəkkür edirəm. Sizin də qeyd etdiyiniz kimi, biz də 30 ildən artıq davam edən tərəfdaşlığı yüksək qiymətləndiririk. Bu, ölkənin transformasiyasında mühüm rol oynadı. Çünki bp və Azərbaycan 1994-cü ildə birgə fəaliyyətə başlayanda Azərbaycan ciddi problemləri olan ölkə idi. Həmin dövrdə bizim Ermənistanın təcavüzü nəticəsində etnik təmizləməyə məruz qalaraq didərgin salınmış bir milyon evsiz insanımız var idi. Büdcəmizdə vəsait sıfır idi. Elektrik enerjisi kəsintilərimiz var idi, elektrik enerjisi çatışmırdı, hətta neft hasilatı sürətlə azalırdı və uğur qazanmaq perspektivi çox aşağı idi. Beynəlxalq neft şirkətlərindən, əsasən bp və başqalarından investisiyalar cəlb olunması bizim həyatda qalmağımız və dövlət qurmağımız üçün yeganə yol idi. Beləliklə, bp və digər şirkətlərin bizə etimadı mühüm rol oynadı, biz bunu heç vaxt unutmayacağıq. Həmin vaxtdan bəri 30 ildən çox müddətdə heç bir narazılıq və ya heç bir hüquqi məsələ olmayıb. Beləliklə, bu, ev sahibi ölkə ilə aparıcı enerji şirkəti arasında əməkdaşlığın yaxşı nümunəsidir.

İndi əməkdaşlıq bərpaolunan enerjiyə transformasiya olunur. 2020-ci ilədək işğal altında olan Cəbrayıl şəhərində bp 240 meqavatlıq Günəş enerji stansiyasının yaradılmasında iştirak edir. Səngəçalda ən böyük neft-qaz terminalının karbonsuzlaşdırılması da bp tərəfindən "yaşıl gündəliy"ə böyük töhfədir. Çoxlu başqa planlar da var, mövcud və yeni layihələr var, buraya qaz hasilatının artırılması da daxildir. Ümidvarıq ki, bu il dərinsulu "Azəri-Çıraq-Günəşli" layihəsində bunun şahidi olacağıq. Həmçinin neft hasilatının sabitləşdirilməsi bizim üçün əhəmiyyət kəsb edir. Biz çox səmərəli şəkildə işlədiyimiz və işləməyə davam etdiyimiz bütün enerji şirkətləri ilə yaxşı əlaqələr qurmuşuq. Düşünürəm ki, məhz buna görə neft hasilatının obyektiv səbəblərdən aşağı düşməsinə baxmayaraq, Azərbaycana investisiya yatırmağa maraq hələ də çox yüksəkdir.

Mən "Exxon"un nümayəndələrini görürəm. O da Azərbaycanda investisiya layihələrinə qoşulan ilk şirkətlərdən biridir, hazırda yeni layihələr üzərində işləyir. Ümidvaram ki, yaxşı nəticələr əldə olunacaq. Ötən ilin avqustunda Vaşinqtona səfərim zamanı çox ümidverici və çox cəlbedici layihə ilə bağlı Anlaşma Memorandumunu imzaladıq. Əgər uğurlu olarsa, ümidvarıq ki, bu, bizə neft sənayemizi inkişaf etdirmək üçün əlavə imkanlar yaradacaq, eyni zamanda həmişə olduğu kimi, neft satışından əldə etdiyimiz vəsaiti qeyri-neft iqtisadiyyatına investisiya yatırmaq üçün bizə əlavə imkan verəcək.

Yeri gəlmişkən, iqtisadiyyatı şaxələndirmək bizim qarşımıza qoyduğumuz hədəflərdən biridir. Biz yaxşı nəticələr görürük. Mən indicə bu ilin yanvarının statistikasına baxdım, bizim qeyri-neft və qaz sənayemiz, demək olar ki, 8 faiz artıb. Bu, həmin şaxələndirmə sayəsində mümkün olub. Beləliklə, ənənəvi enerji mənbələri ilə bağlı müqavilələr və əməkdaşlıq bizə vəsait toplamaq və yenidən investisiya yatırmaq imkanı verir".

* * *

"Visa" şirkətinin baş vitse-prezidenti, MDB və Cənubi və Şərqi Avropa regionu üzrə meneceri **Kristina Doros** artıq 30 ildir ki, yerli banklarla səmərəli əməkdaşlıq həyata keçirdiklərini bildirdi. O vurğuladı ki, təmsil etdiyi şirkət Azərbaycanda qabaqcıl, təhlükəsiz və inklüziv ödəniş sisteminin inkişafı ilə bağlı layihələr həyata keçirir. Kristina Doros "Azərbaycan 2030" Strategiyası çərçivəsində milli prioritetlər üzərində işlə bağlı Azərbaycan hökuməti ilə əməkdaşlıq və tərəfdaşlığa görə minnətdarlığını ifadə etdi.

* * *

"Visa" şirkətinə əməkdaşlığa görə təşəkkür edən və əlaqələrin perspektivinə toxunan **Prezident İlham Əliyev** dedi: "Mən "Visa" ilə çox məhsuldar əməkdaşlıq barədə hökumət qurumlarımızdan məlumat almışam və biz bundan məmnunuq. Əlbəttə ki, siz burada müxtəlif tərəfdaşlarla - İqtisadiyyat Nazirliyi, Mərkəzi Bank, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və bir çox digər təşkilatlarla işləyirsiniz. Gündəliyimiz, planlarımız və burada görülən işlər barədə məlumatınız var. Biz birmənalı olaraq, müasirləşməni davam etdirmək, insanların gündəlik həyatını daha rahat etmək üçün gələn illərdə "Visa" ilə sıx işləyəcəyik. Çox sağ olun".

Yekunda çıxış edən **Prezident İlham Əliyev** Azərbaycanda yaradılmış əlverişli investisiya mühitindən bəhs etdi, ölkəmizin Avropanın enerji təhlükəsizliyində oynadığı roldan danışaraq dedi: "Bizimlə olduğunuza görə bir daha təşəkkür edirəm. Mən şirkətlərin siyahısına baxdım və dediyim kimi, bizimlə uzun illər çalışan şirkətləri gördüm. Onlar həmçinin bunu öz çıxışlarında qeyd etdilər. Məsələn, "Apple", "Baker Hughes", "Boeing", bp, "Coca-Cola", "Ericsson", "Exxon", "J.P. Morgan", "Honeywell", "Marriott", "Mastercard", "Visa" və mənim üçün bəzi digər yeni adlar da var. Beləliklə, düşünürəm ki, mövcud əməkdaşlığı artırmaq üçün yaxşı tərkib var. Ölkəmizə ilk dəfə səfər edən şirkətlər üçün isə Azərbaycanda işgüzar fəaliyyət aparmaq üçün bu görüş yaxşı istinaddır. Ümumiyyətlə, ölkəmizdə çox müsbət biznes mühiti mövcuddur. Biz nəhəng sərmayələri cəlb etmişik. Əgər ölkənin ölçüsünə və əhalinin sayına baxsanız, son iki onillik ərzində 350 milyardlıq sərmayə, həqiqətən, çox böyük rəqəmdir. Hamımızın bildiyi kimi, sərmayələr istənilən ölkənin inkişafında əsas aparıcı qüvvədir. Biz və qanunvericiliyimiz hər zaman xarici sərmayələrə açıq olub. O cümlədən 30 il əvvəl imzalanmış pay bölgüsü sazişlərinə gəldikdə, heç bir söz belə dəyişməyib.

Bilirəm ki, belə hal dünyanın hər yerində olmur. Bəzən siz danışıqlar aparmaq, müəyyən güzəştlərə getmək və sonra isə şərtlərə yenidən baxmaq istəyirsiniz. Burada heç zaman elə hal olmayıb, çünki biz tam əminik ki, xüsusi olaraq, dediyim kimi, 1990-cı illərin əvvəlində yoxsul vəziyyətdə olmuş ölkəyə etimad qurulmalı idi. Siz etimadı illər boyu qurmalısınız və yalnız bir səhv addım həmin etimadı poza bilər. Bir sözlə, biz həmin səhv addımı atmamışıq. Əksinə, bu gün bizimlə işləyən şirkətlərin sayı artır. Beynəlxalq əlaqələrimizin coğrafiyası da genişlənir. Bir çox ölkələrlə imzalanmış strateji tərəfdaşlıq sənədləri, sazişlər və bəyannamələr var. Ölkələrdən bəziləri bir-biri ilə yaxşı münasibətdə deyil. Lakin mən hər zaman demişəm ki, Azərbaycan heç vaxt toqquşma yeri olmayacaq, əməkdaşlıq məkanı olacaq.

Hər kəs üçün kifayət qədər imkan olacaq və əlbəttə, ölkənin inkişaf gündəliyi göstərir ki, biz düz yoldayıq. Bu gün dediyim kimi, Birləşmiş Ştatlarla münasibətlər yeni, tamamilə əla dövrə qədəm qoyur. Biz çox həvəsliyik və şirkətlərimiz arasında birbaşa əlaqələri qurmaq üçün həmin böyük fürsətdən istifadə etmək istəyirik.

Azərbaycan bir çox ölkənin enerji təhlükəsizliyində mühüm rol oynayır. Onlardan 10-u Avropa İttifaqının üzvü, 11-i isə eyni zamanda NATO-nun üzvüdür. Həmin ölkələr üçün hazırda Azərbaycan heç zaman görünmədiyi qədər daha mühüm tərəfdaşa çevrilir. Biz bütün öhdəliklərimizi yerinə yetiririk və siyasi gündəliyi heç zaman biznes ilə qarışdırmırıq və bu, bizim üçün qlobal enerji bazarında beynəlxalq fəaliyyətimizi genişləndirmək üçün yaxşı fürsətdir. Artıq müzakirə etdiyimiz daşımalar layihələri region üçün böyük imkanlar yaradır. Çünki biz 30 il ərzində Ermənistanın təcavüzünə və işğalına məruz qalma faktına baxmayaraq, Azərbaycan məhz ərazilərinin azad olunması, güc və siyasət vasitəsilə ərazi bütövlüyümüzü və suverenliyimizi tam bərpa etdikdən sonra birinci addım atdı və 2025-ci il avqustun 8-də Prezident Trampın köməyi ilə sülh quruldu.

Hazırda biz Ermənistana bütün tranzit yüklərə məhdudiyyətləri aradan qaldırmışıq. Çünki Ermənistanın etibarlı daşımalar, əlaqə marşrutları yoxdur və beləliklə, Azərbaycan tranziti onlar üçün çox əhəmiyyətlidir. Biz əməkdaşlığın ilk elementlərini qurmaq üçün Ermənistana neft məhsullarını təchiz etməyə başladıq.

İqtisadi vəziyyətimizə gəldikdə, o sabitdir. Xarici borc həcmi çox aşağıdır, ÜDM-in 6,1 faizini təşkil edir. Bu, ola bilsin, dünyada ən aşağı göstəricilərdən biridir. Biz həmçinin maliyyə ehtiyatlarını yığırıq və hər il onları artırırıq ki, iqtisadiyyat sabit qalsın. S&P kimi aparıcı reytinq təşkilatları kredit reytinqimizi sərmayə və müsbət səviyyəsinə qaldırıb. Bu isə islahatların təzahürüdür. Biz demoqrafik baxımdan müsbət dinamikanı müşahidə edirik. Əhali artır, ola bilsin 10 il əvvəl olduğu kimi deyil. Lakin biz eyni mənzərəni regionun digər ölkələrində də görürük. Bununla belə, demoqrafik vəziyyət müsbətdir. Yoxsulluq səviyyəsi təxminən 5 faizdir. Düşünürəm ki, bu da yaxşı nəticədir. Görünür ki, iqtisadi inkişaf və sosial müdafiə Azərbaycanda yan-yana gedir və bütün bunlar siyasi sabitliyi, proqnozlaşdırmanı, iqtisadi sabitliyi və imkanları əsaslandırır. Bir sözlə, bu gün biz əsas diqqəti qlobal tendensiyalarla ayaqlaşmaq, xüsusən də rəqəmsal transformasiyada olmaq, süni zəka, məlumat mərkəzləri sahələrində irəliyə doğru addım atmağa yönəldirik.

Bir çox işlər artıq görülüb. Bəlkə də bu görünmür və ya hələ ki görünməli deyil, lakin çox hazırlıq işləri görülüb və ən böyük gözlədiyimiz nəticə Amerika şirkətləri ilə strateji tərəfdaş kimi işləməkdir, çünki onlar bu sahədə liderdir. Yeri gəlmişkən, Prezident Trampla imzaladığımız sənəddə və imzalanmasını planlaşdırdığımız Strateji Tərəfdaşlıq Xartiyasında süni intellekt və ona aid bütün məsələlər barədə xüsusi müddəa var. Əlbəttə, biz görülmüş və planlaşdırdığımız işlər barədə çox danışa bilərik. Lakin düşünürəm ki, siz və xüsusən də ilk dəfə səfər edənlər hər şeyi öz gözünüzlə görsəniz daha yaxşı olar.

Əlbəttə, hökumət rəsmiləri ilə, işgüzar dairələrlə görüşmək, ölkəni hiss etmək imkanınız olacaq. Nəhayət, mehmanxana işi ilə bağlı son söz söyləyim. Çox şadıq ki, "Marriott" Azərbaycanda nəinki paytaxtda, o cümlədən regionlarda öz fəaliyyətini genişləndirəcək. Ümid edirəm ki, regionlarda fəaliyyətiniz artacaq. Birləşmiş Ştatların digər mehmanxana şəbəkəsi və digər tərəflər də ölkədə var. Potensial hələ də böyükdür, çünki Azərbaycana səfər edən xarici vətəndaşların sayı ildən-ilə artır. Yalnız bir dövr var idi. COVID və ondan sonrakı dövrdə tənəzzül yaşandı. İndi isə həmin sahə bərpa olunub. Mehmanxanalarda tutum, həmçinin müvafiq səviyyədədir. Azərbaycanın dövri əsaslarla evsahibliyi etdiyi böyük beynəlxalq tədbirlər, həmçinin əlavə turistlər cəlb edir. Bir sözlə, tövsiyəm odur ki, Bakıda və rayonlarda imkanları araşdırmaq lazımdır. Siz xizək mərkəzini qeyd etdiniz. Oranı inkişaf etdirmək üçün böyük planlar var. Bu gün o, idman üçün artıq geniş və çox rahat məkana çevrilib. Yeri gəlmişkən, biz martda orada ilk beynəlxalq tədbiri təşkil edəcəyik. Beləliklə, mehmanxana biznesinin Azərbaycanda böyük potensialı var. Ümid edirəm, Amerikanın mehmanxana sənayesinin bir çox digər şəbəkələri, filialları Azərbaycana gələcək və görəcək ki, bu, biznes və sərmayə üçün yaxşı məkandır".

# Azərbaycanda tolerant mühit hökm sürür

## Prezident İlham Əliyev ABŞ-nin Əsas Amerika Yəhudi Təşkilatlarının Prezidentləri Konfransının nümayəndə heyətini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 9-da ABŞ-nin Əsas Amerika Yəhudi Təşkilatlarının Prezidentləri Konfransının sədri Betsi Berns Kornun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**



AZƏRTAC xəbər verir ki, söhbət zamanı Prezident İlham Əliyevlə ABŞ-nin Əsas Amerika Yəhudi Təşkilatlarının Prezidentləri Konfransının nümayəndələrinin əvvəlki görüşləri məmnunluqla xatırlandı.

Qəbula görə dövlətimizin başçısına minnətdarlığını bildirən Betsi Berns Korn Azərbaycanın strateji əhəmiyyətini, həmçinin ABŞ və İsraillə yaxşı əlaqələrini nəzərə alaraq əməkdaşlığın genişləndirilməsi baxımından məsələlərin müzakirəsi üçün böyük nümayəndə heyəti ilə ölkəmizə səfərə gəlməkdən məmnunluğunu ifadə etdi.

Betsi Berns Korn ötən ilin avqustunda Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılması ilə bağlı Vaşinqtonda əldə edilmiş nailiyyətlər münasibətilə təbriklərini çatdırdı. O, bu məsələdə Azərbaycan Prezidentinin nümayiş etdirdiyi liderliyi və ABŞ Prezidentinin göstərdiyi səyləri xüsusi vurğuladı.

Dövlətimizin başçısı təbriklərə görə təşəkkürünü bildirərək, nailiyyətlərin əldə olunmasında ABŞ Prezidenti Donald Trampın roluna toxundu. Azərbaycan və Ermənistan tərəfinin artıq sülh şəraitində yaşamağa öyrəşdiklərini deyən Prezident İlham Əliyev bölgədə sülh və sabitliyin təmin edilməsinin regionun inkişafına mühüm töhfə verəcəyini vurğulayaraq, TRIPP və digər bağlantı layihələrinin regional əməkdaşlığın genişləndirilməsi baxımından önəmini qeyd etdi.

Donald Trampın hakimiyyətə gəlməsindən sonra Azərbaycan-ABŞ əlaqələrinin uğurla inkişaf etdiyini bildirən dövlətimizin başçısı son 6 ayda ABŞ Prezidenti ilə bir neçə dəfə görüşməsini ikitərəfli münasibətlərimizin tarixində ilk nümunə olduğunu dedi.

Görüşdə Azərbaycanda tarixən tolerant mühitin hökm sürdüyü qeyd edildi, digər xalqların nümayəndələrinə olduğu kimi yəhudilərə də göstərilən dövlət qayğısına toxunuldu.

Söhbət zamanı Azərbaycan-ABŞ əlaqələrinin inkişafından məmnunluq bildirildi, Əsas Amerika Yəhudi Təşkilatlarının Prezidentləri Konfransı ilə ölkəmiz arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi qeyd edildi, onların Azərbaycan-ABŞ və Azərbaycan-İsrail ikitərəfli münasibətlərinin genişlənməsində rolu vurğulandı.

# "Notariat haqqında" və "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1**. "Notariat haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 10 (Cild I); 2024, № 2, maddə 138; 2025, № 2, maddə 100, № 7, maddə 610, № 8, maddələr 743, 744) 32-ci maddəsinin on dördüncü - on altıncı hissələri müvafiq olaraq on beşinci - on yeddinci hissələr hesab edilsin və aşağıdakı məzmunda on dördüncü hissə əlavə edilsin:

"Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq kommersiya hüquqi şəxsləri üzrə nizamnamə kapitalındakı payın özgəninkiləşdirilməsi ilə bağlı müqavilələr, nizamnamə kapitalındakı payın vərəsəlik qaydasında digər şəxsə keçməsi, nizamnamə kapitalındakı payın yüklü edilməsi, təsisçisi və qanuni təmsilçisi eyni şəxs olan kommersiya hüquqi şəxsin təsisçisi öldükdə notariat orqanı tərəfindən mirasın qorunması üçün tədbirlər çərçivəsində əmlak idarəçisinin təyin olunması ilə əlaqədar məlumatlar Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə real vaxt rejimində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) ötürülür.".

**Maddə 2.** "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 1, maddə 8 (Cild I); 2024, № 7, maddə 743, № 12 (I kitab), maddə 1281; 2025, № 1, maddə 16, № 4 (I kitab), maddə 318, № 5, maddə 432, № 7, maddə 609, № 8, maddə 741) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 9-cu maddə üzrə:

2.1.1. 9.2-2-ci maddədə ikinci halda "maddəsində qeyd edilən məlumat" sözləri "və 9.2-5-ci maddələrində qeyd edilən məlumatlar" sözləri ilə, "orqanından" sözü "orqanının müəyyən etdiyi orqandan (qurumdan) Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə" sözləri ilə əvəz edilsin;

2.1.2. aşağıdakı məzmunda 9.2-5-ci və 9.5-ci maddələr əlavə edilsin:

"9.2-5. Kommersiya hüquqi şəxsləri üzrə aşağıdakı məlumatlar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən birbaşa Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə onlayn rejimdə əldə edilərək qeydiyyata alınır:

9.2-5.1. nizamnamə kapitalındakı payın özgəninkiləşdirilməsi ilə bağlı müqavilələrlə əlaqədar məlumatlar;

9.2-5.2. nizamnamə kapitalındakı payın vərəsəlik qaydasında digər şəxsə keçməsi ilə əlaqədar məlumatlar;

9.2-5.3. nizamnamə kapitalındakı payın yüklü edilməsi ilə əlaqədar məlumatlar;

9.2-5.4. təsisçisi və qanuni təmsilçisi eyni şəxs olan kommersiya hüquqi şəxsin təsisçisi öldükdə notariat orqanı tərəfindən mirasın qorunması üçün tədbirlər çərçivəsində əmlak idarəçisinin təyin olunması ilə əlaqədar məlumatlar.";

"9.5. Kommersiya hüquqi şəxsləri, xarici kommersiya hüquqi şəxslərin nümayəndəlik və ya filialları təqvim ili bitdikdən sonra növbəti ayın 31-dək təsis sənədlərində və qeydə alınmış faktlarda dəyişikliyin olub-olmaması barədə forması müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunan hesabatı kağız və ya elektron formada müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təqdim etməlidirlər.";

2.2. 11.4-1-ci maddənin birinci cümləsinə "alınması" sözündən sonra "(məhdud məsuliyyətli cəmiyyətin adının dəyişdirilməsi faktının elektron qaydada qeydiyyata alınması istisna olmaqla)" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 dekabr 2025-ci il*

# "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi ilə Latviya Respublikasının Səhiyyə Nazirliyi arasında səhiyyə və tibb elmi sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2025-ci il dekabrın 4-də Riqa şəhərində imzalanmış "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi ilə Latviya Respublikasının Səhiyyə Nazirliyi arasında səhiyyə və tibb elmi sahəsində əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Latviya Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 fevral 2026-cı il*

# T.Y.Budaqovun Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin sədri vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Tahir Yaqub oğlu Budaqov Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin sədri vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 fevral 2026-cı il*

# C.H.Musayevin Naxçıvan Muxtar Respublikası Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 141-ci maddəsini rəhbər tutaraq **qərara alıram:**

Cabbar Hafiz oğlu Musayev Naxçıvan Muxtar Respublikası Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 fevral 2026-cı il*

# Azərbaycanın ABŞ və İsraillə münasibətlərinin mövcud vəziyyəti müzakirə olunub



**Fevralın 9-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Amerikanın Əsas Yəhudi Təşkilatlarının Prezidentləri Konfransının ölkəmizdə səfərdə olan nümayəndə heyətini qəbul edib.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, görüş zamanı Azərbaycan-ABŞ, eləcə də Azərbaycan-İsrail münasibətlərinin cari vəziyyəti və inkişaf perspektivləri, ABŞ-də fəaliyyət göstərən yəhudi təşkilatları ilə əməkdaşlıq məsələləri, eləcə də regional vəziyyət müzakirə olunub.

Görüşdə xüsusilə 8 avqust Vaşinqton Zirvə Görüşü nəticəsində bölgəmizdə son inkişaf, Azərbaycan-Ermənistan normallaşma prosesi, regional bağlantılar və TRIPP marşrutunun reallaşması səyləri, postmünaqişə dövründə həyata keçirilən tədbirlər barədə geniş məlumat verilib.

Azərbaycanda mövcud olan dinlərarası harmoniya, tolerantlıq və multikulturalizm ənənələri, əhalisinin əksəriyyəti müsəlman olan Azərbaycanda islam dini ilə yanaşı, xristian, yəhudi və digər dinlərə mənsub insanların qarşılıqlı anlaşma, mehriban qonşuluq şəraitində yaşadıqları məmnunluqla vurğulanıb. Ölkəmizdə uzun əsrlər boyu sülh və əmin-amanlıq içərisində yaşayan yəhudi icmasının mövcudluğunun Azərbaycan və İsrail arasındakı güclü tərəfdaşlıq əlaqələrinin inkişafına əlavə güc verdiyi bildirilib.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Əməkdaşlıq daha da genişləndiriləcək



**İstanbulun Çağlayan Ədliyyə Sarayında Azərbaycanın baş prokuroru Kamran Əliyev və Türkiyənin İstanbul şəhərinin baş prokuroru Akın Gürlek arasında görüş olub.**

AZƏRTAC xəbər verir ki, görüş Akın Gürlekin dəvəti ilə Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyətinin İstanbula səfəri çərçivəsində keçirilib.

Toplantıda baş prokuror Kamran Əliyev qarşı tərəfə dəvətə və yüksək qonaqpərvərliyə görə təşəkkürünü bildirərək, Türkiyə-Azərbaycan birliyinə və qardaşlığına diqqət çəkib.

O, ölkələrimiz arasında formalaşan həmrəylik ruhunun Ümummilli Lider Heydər Əliyevin "Bir millət, iki dövlət" və Türkiyə xalqının Ulu Öndəri Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir" kəlamları ilə ifadə olunduğunu qeyd edib.

"Dövlət başçıları İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın siyasi iradəsi və səyləri nəticəsində ölkələrimiz arasında qarşılıqlı əlaqələr bütün sahələr üzrə daha da dərinləşərək strateji xarakter alıb. Bu da qurumlarımız arasında hərtərəfli əməkdaşlıq üçün sabit zəmin yaradıb", - deyə Kamran Əliyev vurğulayıb.

Öz növbəsində qurumlararası tərəfdaşlıq münasibətlərinin inkişafından məmnunluğunu ifadə edən Akın Gürlek daha əvvəl ölkəmizə etdiyi işgüzar səfərin xüsusi yaddaqalan olduğunu deyib.

Görüşdə iki ölkənin prokurorluq orqanları arasında cinayətkarlığın müxtəlif formalarına qarşı mübarizə, o cümlədən cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım sahələrində praktiki əməkdaşlıq məsələləri, həmçinin hüquqi və institusional əməkdaşlığın genişləndirilməsi perspektivləri, eləcə də qarşılıqlı təlim səfərlərinin təşkili və təcrübə mübadiləsi ətrafında fikir mübadiləsi aparılıb.

Sonra nümayəndə heyəti İstanbul Çağlayan Ədliyyə Sarayının fəaliyyəti ilə yaxından tanış olub.

# "Notariat haqqında" və "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 30 dekabr tarixli 336-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Notariat haqqında" və "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 30 dekabr tarixli 336-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Notariat haqqında" Azərbaycan Respublikası Qanununun 32-ci maddəsinin on dördüncü hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 32-ci maddəsinin on dördüncü hissəsində "orqan (qurum)" dedikdə Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur;

1.3. "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun 9.2-2-ci (ikinci halda) maddəsində, 9.2-5-ci maddəsinin birinci abzasında və 9.5-ci (hər iki halda) maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.4. həmin Qanunun 9.2-2-ci maddəsində "orqan (qurum)" dedikdə həmin Qanunun 9.2-1.2-ci maddəsində qeyd olunan məlumatlara münasibətdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti, həmin Qanunun 9.2-5-ci maddəsində qeyd olunan məlumatlara münasibətdə isə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi nəzərdə tutulur;

1.5. həmin Qanunun 9.5-ci (birinci halda) maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur;

1.6. həmin Qanunun 9.2-5-ci maddəsinin birinci abzasında və 9.5-ci (ikinci halda) maddəsində "orqan (qurum)" dedikdə Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi "Notariat haqqında" və "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 30 dekabr tarixli 336-VIIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsinlər.

3. "Notariat haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 18 yanvar tarixli 261 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 40 (Cild I); 2024, № 2, maddə 141; 2025, № 2, maddə 125) 3-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 3.1-ci bəndə "Qanununun" sözündən sonra "32-ci maddəsinin on dördüncü hissəsində," sözləri əlavə edilsin;

3.2. 3.16-cı bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 3.17-ci bənd əlavə edilsin:

"3.17. həmin Qanunun 32-ci maddəsinin on dördüncü hissəsində "orqan (qurum)" dedikdə Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur.".

4. "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 12 aprel tarixli 48 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 4, maddə 228 (Cild I); 2024, № 7, maddə 789, № 12 (I kitab), maddə 1292; 2025, № 5, maddə 454, № 7, maddə 650, № 11, maddə 1018) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

4.1. 2.1-ci bəndə "8-1.2-ci" sözlərindən sonra ", 9.2-2-ci (ikinci halda) maddələrində, 9.2-5-ci maddəsinin birinci abzasında, 9.5-ci (hər iki halda)" sözləri əlavə edilsin;

4.2. 2.5-1-ci bənddə "13.3-1-ci maddəsində" sözləri "9.2-5-ci maddəsinin birinci abzasında, 9.5-ci (ikinci halda) və 13.3-1-ci maddələrində" sözləri ilə əvəz edilsin;

4.3. 2.11-ci bənd aşağıdakı redaksiyada verilsin:

"2.11. həmin Qanunun 9.2-2-ci maddəsində "orqan (qurum)" dedikdə həmin Qanunun 9.2-1.2-ci maddəsində qeyd olunan məlumatlara münasibətdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti, həmin Qanunun 9.2-5-ci maddəsində qeyd olunan məlumatlara münasibətdə isə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi nəzərdə tutulur;";

4.4. aşağıdakı məzmunda 2.14-3-cü bənd əlavə edilsin:

"2.14-3. həmin Qanunun 9.5-ci (birinci halda) maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 fevral 2026-cı il*

# "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 10, maddə 1109 (Cild I); 2024, № 2, maddə 138, № 4, maddə 365; 2025, № 2, maddə 106) 1-ci maddəsində "2026-cı" sözləri "2027-ci" sözləri ilə əvəz edilsin.

**Maddə 2.** Bu Qanun 2026-cı il yanvarın 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 fevral 2026-cı il*

# Leyla Əliyeva və Alena Əliyeva Gəncədə STEAM mərkəzində və 37 nömrəli tam orta məktəbdə olublar





**Leyla Əliyeva və Alena Əliyeva Gəncə şəhər Fizika, riyaziyyat və informatika təmayüllü liseydə fəaliyyət göstərən STEAM mərkəzində və Gəncə şəhər 37 nömrəli tam orta məktəbdə olublar.**

AZƏRTAC xəbər verir ki, mərkəzlə tanışlıq zamanı Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə Azərbaycan məktəblərində STEAM (Science, Technology, Engineering, Art, Mathematics) layihəsinin geniş icrasına başlanıldığı barədə məlumat verilib.

Bildirilib ki, STEAM mərkəzi liseyin tərkibində 2021-ci ildən etibarən fəaliyyət göstərir. Mərkəz bütün yaş qruplarının istifadəsi üçün nəzərdə tutulub. Burada "Robotics", "Art", "Science", "STEAM Kids", CNC və 3D çap, mexatronika, dron istiqamətləri üzrə sahələr fəaliyyət göstərir.

Diqqətə çatdırılıb ki, mərkəzdə yaradılmış imkanlardan sözügedən məktəblə yanaşı, regionun digər məktəblərinin şagird və müəllimləri də istifadə edirlər. Hər tədris ili 1000-dən çox şagird mərkəzdə müxtəlif modullar üzrə təlimlərdə iştirak edir.

Qeyd edək ki, 2019-cu ildən tətbiqinə başlanılan STEAM layihəsinin əsas məqsədi təhsilalanlara tənqidi, yaradıcı düşünmə, əməkdaşlıq etmə və digər bacarıqları formalaşdırmaq, yaradıcı proses vasitəsilə öyrənmə imkanı yaratmaq, fənləri ayrılıqda öyrətmək deyil, onları real dünyadakı tətbiqlərə əsaslanan vahid öyrənmə modelində birləşdirməkdir.

Daha sonra Leyla Əliyeva və Alena Əliyeva Heydər Əliyev Fondu tərəfindən əsaslı təmir edilmiş Gəncə şəhər 37 nömrəli tam orta məktəbdə yaradılmış şəraitlə tanış olublar.

Bildirilib ki, 1969-cu ildə inşa olunmuş Gəncə şəhəri, Kəpəz rayonu 37 nömrəli tam orta məktəbin binası ötən müddət ərzində köhnəldiyindən istifadəyə yararsız vəziyyətə düşüb. 2024-cü ilin noyabrından Heydər Əliyev Fondu tərəfindən 724 şagirdlik məktəbin əsaslı təmir işlərinə başlanılıb.

Təhsil ocağı 3 mərtəbəli 1 korpusdan və 2 mərtəbəli 3 korpusdan ibarətdir. Məktəb zəruri mebel və avadanlıqlarla, fənn kabinetləri və laboratoriyalar əyani vəsaitlərlə tam təchiz edilib.

Məktəb binasında sinif otaqları, fizika, kimya, biologiya laboratoriyaları, informatika, hərbi təlim, tibb, musiqi otaqları, kitabxana, yeməkxana, akt və idman zalları, həmçinin açıq idman meydançası var.

Təhsil müəssisəsinin həyətyanı ərazisində abadlıq və yaşıllaşdırma işləri aparılıb, əraziyə asfalt örtüyü döşənib, dekorativ kol və ağaclar əkilib.

Ziyarət zamanı müxtəlif yaş qruplarına aid 50 uşağa velosiped, eləcə də təhlükəsizlik ləvazimatı hədiyyə edilib. Azərbaycan Velosiped İdmanı Federasiyasının dəstəyi ilə keçirilən sosial aksiyanın əsas məqsədi regionlarda yaşayan uşaqların asudə vaxtlarını daha səmərəli şəkildə keçirmələrinə şərait yaratmaq, onların idmana və sağlam həyat tərzinə marağını artırmaq, məktəbliləri fiziki fəallığa həvəsləndirmək, habelə ekoloji nəqliyyat vasitəsi kimi velosiped istifadəsini təşviq etməkdir.

# Gəncənin Şah Abbas məscidini ziyarət

**Leyla Əliyeva və Alena Əliyeva Gəncədə Şah Abbas məscidini ziyarət ediblər.**

AZƏRTAC xəbər verir ki, məscid 1606-cı ildə Səfəvi hökmdarı I Şah Abbasın əmri ilə memar Şeyx Bahəddin Məhəmməd Amilin layihəsi əsasında inşa edilib. Gəncənin mərkəzində yerləşən bu abidə Orta əsr Azərbaycan memarlığının portal-günbəz ənənələrini, lakonik və ifadəli bədii-konstruktiv xüsusiyyətlərini özündə birləşdirir.





Sonda Leyla Əliyeva və Alena Əliyevaya "Qurani-Kərim" hədiyyə olunub. Qeyd edək ki, məscid 2008-ci ildə Prezident İlham Əliyevin təşəbbüsü ilə bərpa olunub.

# Leyla Əliyeva və Alena Əliyeva Gəncədə qadın sahibkarın sağlam qida brendi ilə tanış olublar





**Leyla Əliyeva və Alena Əliyeva Gəncədə fəaliyyət göstərən qadın sahibkar Fidan Zari tərəfindən yaradılmış "Zarif Natural" brendi ilə tanış olublar.**

AZƏRTAC xəbər verir ki, onlar sahibkarla səmimi söhbət edib, ideyanın formalaşması, brendin yaranma hekayəsi və məhsulların hazırlanma prosesi ilə maraqlanıblar. Daha sonra müəssisədə soyuq sıxım üsulu ilə müxtəlif yağlar və digər məhsullar birgə hazırlanıb. Leyla Əliyeva və Alena Əliyeva qadın sahibkara fəaliyyətində uğurlar arzulayıb, onun təşəbbüskarlığını və zəhmətkeşliyini yüksək qiymətləndirib, xatirə şəkilləri çəkdiriblər.

Qeyd edək ki, "Zarif Natural" brendi sağlam və balanslı qidalanma prinsiplərinə əsaslanaraq soyuq sıxım yağların, qatqısız çərəz əzmələrinin və qlütensiz unların istehsalı və istehlakçılara təqdim olunması istiqamətində fəaliyyət göstərir.

# Leyla Əliyeva və Alena Əliyeva Gəncə Memorial Kompleksini və Milli Qəhrəman Natiq Qasımovun ailəsini ziyarət ediblər





**Leyla Əliyeva və Alena Əliyeva Gəncə Memorial Kompleksi ilə tanış olublar.**

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev tərəfindən 2025-ci il sentyabrın 27-də - Anım Günündə açılışı həyata keçirilən bu kompleks İkinci Qarabağ müharibəsi zamanı Ermənistanın raket hücumlarının qurbanı olmuş günahsız insanların əziz xatirəsini əbədiləşdirmək və müharibənin acı reallıqlarını gələcək nəsillərə çatdırmaq məqsədi daşıyır.

Kompleksin birinci mərtəbəsində muzey ekspozisiyası, ikinci mərtəbədə isə müxtəlif tədbirlərin keçirilməsi üçün zal yerləşir.

Leyla Əliyeva və Alena Əliyeva həmçinin Gəncədə Milli Qəhrəman Natiq Qasımovun ailəsini ziyarət ediblər.

Görüş zamanı qəhrəmanımızın xatirəsi dərin hörmətlə yad edilib, ailə üzvləri ilə səmimi söhbət aparılıb.

Natiq Qasımov Birinci Qarabağ müharibəsi zamanı Ağdam-Xankəndi istiqamətində döyüşlərdə misilsiz igidlik göstərib. O, müharibə zamanı beş gün təkbaşına mühasirədə qalsa da erməni işğalçılarına sonadək müqavimət göstərib.

Görüş zamanı şəhidin şərəfli ömür və döyüş yolu bir daha xatırlanıb.

# Gəncə Dövlət Milli Dram Teatrında "İsi və Piti" animasiya serialının premyerası olub

**Gəncə Dövlət Milli Dram Teatrında "İsi və Piti" animasiya serialının premyerası keçirilib.**

AZƏRTAC xəbər verir ki, Leyla Əliyeva və Alena Əliyeva tədbirdə iştirak ediblər. Premyera Azərbaycan Animasiya Assosiasiyasının təşkilatçılığı ilə "ANİMAFİLM Gəncədə" festivalı çərçivəsində keçirilib.

Festivalda tamaşaçılara maarifləndirici uşaq animasiya serialı - "İsi və Piti" serialının iki bölümünün premyerası ilə yanaşı, "Bum-bum" və "Yer və Ay" qısametrajlı animasiya filmləri təqdim olunub. Gəncə şəhərinin məktəbəqədər təhsil müəssisələrində çalışan müəllimlər və burada təhsil alan uşaqlar animasiya filmlərini böyük maraq və yüksək əhval-ruhiyyə ilə izləyiblər.




Festivalda həmçinin uşaqlara insan və təbiət vəhdətini, ekoloji problemlərin planetimizə təsirini izah edən, hamını Vətəni, ana təbiəti və Yer kürəsini qorumağa səsləyən Azərbaycan və Özbəkistan animasiya mütəxəssislərinin birgə istehsalı olan "Yer və Ay" qısametrajlı animasiya filmi nümayiş olunub.

# Leyla Əliyeva və Alena Əliyeva Gəncədə uşaq evində olublar

**Leyla Əliyeva və Alena Əliyeva Gəncədə 4 nömrəli uşaq evində olublar.**

AZƏRTAC xəbər verir ki, ziyarət zamanı uşaq evinin fəaliyyəti barədə ətraflı məlumat verilib. Bildirilib ki, 4 nömrəli uşaq evi valideynini itirmiş və valideyn himayəsindən məhrum olmuş 3-18 yaşarası uşaqlara xidmət göstərir. Hazırda uşaq evinin 64 sakini var. Onlara sosial-məişət, sosial-psixoloji, tibbi-sosial, sosial-pedaqoji və sosial-hüquqi xidmətlər göstərilir.

Qeyd olunub ki, müəssisə 2012-ci ildə Heydər Əliyev Fondunun təşəbbüsü ilə təmir olunub. Fond uşaq evinin sakinlərini daim diqqətdə saxlayır, burada mütəmadi olaraq şənliklər, əyləncəli tədbirlər təşkil edilir.





# Leyla Əliyeva və Alena Əliyeva Gəncə şəhər 45 nömrəli xüsusi ümumtəhsil məktəbində olublar

**Leyla Əliyeva və Alena Əliyeva Gəncə şəhər 45 nömrəli xüsusi ümumtəhsil məktəbində olublar.**

AZƏRTAC xəbər verir ki, onlar bu təhsil ocağında yaradılmış şəraitlə yaxından tanış olub, şagirdlərin tədris prosesi və reabilitasiya imkanları ilə maraqlanıblar.

Diqqətə çatdırılıb ki, Gəncə şəhər 45 nömrəli xüsusi ümumtəhsil məktəbində 297 şagird təhsil alır. Xüsusi qayğıya ehtiyacı olan uşaqlardan 188-i məktəbdə, 109-u isə evdə təhsilə cəlb olunub.



Təhsil müəssisəsi informatika və texnologiya, loqopediya otaqları, ekoloji sinif, tibb kabineti, kitabxana, idman zalı və digər zəruri infrastrukturla təmin edilib.

Sonda Leyla Əliyeva və Alena Əliyeva uşaqlara hədiyyələr təqdim edib, onlarla xatirə şəkilləri çəkdiriblər.

# Leyla Əliyeva və Alena Əliyeva Gəncə Autizm Mərkəzi ilə tanış olublar

**Leyla Əliyeva və Alena Əliyeva Gəncə Autizm Mərkəzi ilə tanış olublar.**

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun təşəbbüsü ilə yaradılan Autizm Mərkəzi Gəncə ilə yanaşı, ətraf regionlardan - Şəmkir, Daşkəsən, Tovuz, Samux və digər rayonlardan müraciət edən ailələrə və onların övladlarına dəstək göstərir.

Bildirilib ki, burada həyata keçirilən proqramlar uşaqların cəmiyyətə və ailəyə inteqrasiyasında, eləcə də onların aktiv rol almasına töhfə verir. Mərkəz vasitəsilə regionda reabilitasiya ilə yanaşı, autizm, neyromüxtəliflik və inklüzivlik mövzularında maarifləndirmə kampaniyaları həyata keçirilir.





# Sülhün qorunması ümumi məsuliyyətdir

**Azərbaycanın qətiyyətli səyləri nəticəsində Cənubi Qafqazda hazırda de-fakto sülh müşahidə olunur. Ötən il avqustun 8-də Vaşinqton Sammitində Ağ Ev rəhbəri Donald Trampın iştirakı ilə iki ölkə arasında Birgə Bəyannamənin imzalanması, sülh sazişi mətninin paraflanması normallaşma ilə bağlı xeyli irəliləyişlərin əldə olunmasına rəvac verib. Azərbaycanın Ermənistana tranzit məhdudiyyətini aradan qaldırması, bu ölkəyə neft məhsulları tədarük etməsi də bunun mühüm tərkib hissəsidir. Eyni zamanda iki ölkə vətəndaş cəmiyyəti nümayəndələrinin qarşılıqlı səfərləri xalqlar arasında etimad quruculuğunun yaranmasında vacib əhəmiyyət daşıyır.**

## Müsbət dinamika qorunub saxlanmalıdır

Prezident İlham Əliyevin fevralın 4-də Birləşmiş Ərəb Əmirliklərinin Əbu-Dabi şəhərində Ermənistanın Baş naziri Nikol Paşinyanla görüşü zamanı da bu məqamlara vurğu edilib. Tərəflər ABŞ Prezidenti Donald Trampın evsahibliyi və şahidliyi ilə baş tutan Vaşinqton Sülh Sammitinin nəticələrinin həyata keçirilməsi istiqamətində əldə olunan irəliləyişi alqışlayıblar. Onlar Ermənistan və Azərbaycan arasında normallaşma prosesinin ikitərəfli əsasda irəlilədilməsində müsbət dinamikanın qorunub saxlanmasının vacibliyini vurğulayıblar.

Tərəflər hər iki cəmiyyətin sülhün faydalarına real həyatda şahid olduqlarını qeyd ediblər. Onlar ikitərəfli ticarətin başlamasından və Azərbaycandan Ermənistana neft məhsullarının ixracının davam etməsindən, həmçinin üçüncü ölkələrdən Ermənistana taxıl və digər malların Azərbaycan ərazisindən tranzitinin həyata keçirilməsindən məmnun olduqlarını bildiriblər. Tərəflər ikitərəfli ticarət və iqtisadi əməkdaşlığı genişləndirmək üçün imkanları araşdırmağı davam etmək barədə razılığa gəliblər.

Liderlər, həmçinin vətəndaş cəmiyyəti nümayəndələrinin qarşılıqlı səfərlərini alqışlayıb və etimad quruculuğu tədbirlərinin genişləndirilməsinin zəruriliyi barədə razılığa gəliblər.

Əbu-Dabidə iki ölkə liderinin "Zayed İnsan Qardaşlığı Mükafatı" ilə təltif edilməsi də məhz regionda müsbət istiqamətdə irəlilədilən sülh prosesinə verilən beynəlxalq dəyərin təzahürü idi.

"Zayed İnsan Qardaşlığı Mükafatı" Qafqazda onilliklər ərzində davam edən münaqişəyə və humanitar əzablara son qoyan "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında Saziş"in paraflanmasına görə verilib.

Nüfuzlu mükafatın təqdimolunma mərasimindəki çıxışı zamanı Prezident İlham Əliyev bölgədə əldə olunan barışın nümunə yaratdığını bu sözləri ilə dilə gətirdi: "...Hesab edirəm ki, bizim nümunəmiz öyrənilməli və hələ də müharibə vəziyyətində olanlar üçün yol xəritəsi kimi istifadə edilməlidir. Bizim nümunəmiz göstərir ki, uzunmüddətli münaqişəyə, əzablara və qarşılıqlı etimadsızlığa baxmayaraq, sülh mümkündür".

## Sülh və qarşılıqlı anlaşma

Ermənistan-Azərbaycan münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında həllindən sonra ölkəmizin seçdiyi siyasi xətt sülh və qarşılıqlı anlaşma oldu.

Yuxarıda da vurğuladığımız kimi, Azərbaycanın qətiyyətli səyləri ilə əldə olunan regional sülh beynəlxalq səviyyədə rezonans doğurub. Azərbaycan ilə Ermənistan arasında sülh istiqamətində əldə olunan razılaşmaların Qafqazın gələcəyində yeni bir səhifə açacağına böyük inam doğurub.

Ötən il 8 avqust tarixində Vaşinqtonda sülh müqaviləsinin imzalanmamasının yeganə səbəbi Ermənistan konstitusiyasının preambula hissəsində Azərbaycana qarşı ərazi iddiasının olmasıdır. Məlumdur ki, qarşıda bu ölkədə parlament seçkilərinin keçiriləcəyi gözlənilir və nəticələrdən asılı olmayaraq, İrəvan sülh müqaviləsinin imzalanması üçün siyasi iradə nümayiş etdirməlidir. Həmçinin parlament seçkilərindən sonra gündəmə gələ biləcək referendum seçkilərində bu ölkə ümumxalq səsverməsi ilə Ermənistan konstitusiyasının preambula hissəsindəki Azərbaycana qarşı ərazi iddialarını ləğv etməlidir. Bu halda iki ölkə arasında sülh müqaviləsi imzalanacaq.

Təbii ki, bölgədə müşahidə olunan sülh və əməkdaşlıq mühitinin fonunda nümayiş etdirilən bəzi qeyri-konstruktiv davranışlar təəssüf doğurur.

2023-cü ilin sentyabrında həyata keçirdiyi lokal xarakterli antiterror tədbirləri sayəsində Azərbaycan Qarabağda separatizmə son qoyaraq bütün ərazilərində suverenliyini təmin edib. 23 saat davam edən antiterror tədbirləri zamanı Qarabağdakı erməni silahlı dəstələri məğlub olaraq ağ bayraq qaldırıblar. Həmin vaxt kriminal rejim özünü buraxdığını elan edib. Bununla da qondarma "Dağlıq Qarabağ respublikası" öz mövcudluğuna son verib.

Lakin bu günlərdə qondarma və separatçı rejimin sonuncu rəhbəri olan Samvel Şahramanyan Ermənistanın Elm və Təhsil Nazirliyini məhkəməyə verib. Buna səbəb S.Şahramanyanın qondarma qurumu ləğv etməsi barədə qərar haqqında məlumatın tarix dərsliyinə salınmasıdır. O, "şərəf və ləyaqətin qorunması və faktların təkzibi ilə bağlı mülki iddia" qaldırıb. Lakin məhkəmə onun iddiasını təmin etməyib.

Təbii ki, Şahramanyan bu addımı ilə mövcud reallığı qəbul etmədiyini və Ermənistanda bəzi zehniyyətlərdə hələ də revanşizm meyillərinin ölmədiyini göstərir. Bu isə gələcəkdə sülhə potensial təhlükə deməkdir.

Eyni zamanda bu günlərdə XXV Qış Olimpiya Oyunlarında Ermənistanı təmsil edən fiqurlu konkisürənlərin yarış proqramında siyasi və separatçı məzmun daşıyan "Arsax" adlı musiqidən istifadə etməsi narahatlıq doğurdu.

Təbii ki, bu kimi təxribatçı addımlarla Cənubi Qafqazda sülhün qarşısını almaq mümkün deyil. Çünki normallaşma istiqamətində ortaya qoyulmuş siyasi iradə və qətiyyətli addımlar regionda əbədi sülhü bərqərar etmək iqtidarındadır. Sadəcə sülhün bərqərar olunması üçün xalqlar arasında barış körpülərinin salındığı həssas dövrdə bu cür təxribatçı fəaliyyətlər arzuolunan deyil. Buna görə də sülhə kölgə sala biləcək qeyri-konstruktiv davranışlar hər iki tərəfin vətəndaş cəmiyyətləri tərəfindən qınanmalı və gələcəkdə oxşar halların baş verməməsi üçün məsuliyyət formalaşdırılmalıdır.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Azərbaycan vətəndaş cəmiyyətinin nümayəndələri ABŞ-nin vitse-prezidenti Cey Di Vensə açıq məktub ünvanlayıblar

**Azərbaycan vətəndaş cəmiyyətinin nümayəndələri Amerika Birləşmiş Ştatlarının Vitse-prezidenti Cey Di Vensə açıq məktub ünvanlayıblar. AZƏRTAC məktubun tam mətnini təqdim edir:**

"Hörmətli cənab Vitse-prezident,

Əsrlər boyu sivilizasiyalar arasında körpü rolunu oynayan bir xalqın nümayəndələri olaraq Sizə məktub yazırıq. Bura azan səsinin və kilsə zənglərinin əsl birgəyaşayış ruhunda ahəngdar şəkildə bir-birinə qarışdığı diyardır. Azərbaycan istənilən sabit cəmiyyətin təməlini təşkil edən mənəvi və ənənəvi dəyərlərə - ailənin müqəddəsliyinə, irsin mühafizəsinə və dini azadlığın qorunmasına sadiqdir.

ABŞ-nin hazırkı administrasiyasının din azadlığına və dinlərarası dialoqa güclü sadiqliyini nəzərə alaraq, biz Azərbaycanın davamlı irsini dinlərarası harmoniya və tolerantlıq nümunəsi kimi qürurla vurğulayırıq.

Ölkəmizin xristian dünyası ilə münasibətləri təkcə diplomatik deyil, həm də dərin mədəni xarakter daşıyır. Azərbaycan tarixən müxtəlif dini irsin qorunmasına, o cümlədən Vatikanda xristian kilsələrinin və müqəddəs yerlərin genişmiqyaslı təmirinə sərmayə qoyub. Müqəddəs Taxt-tacla möhkəmlənən əlaqələrimizdən və ərazimizdə müxtəlif xristian məzhəblərinin artan mövcudluğundan son dərəcə qürur duyuruq. Azərbaycan çiçəklənən katolik icmasından tutmuş bu yaxınlarda Bakıda İsa Məsihin Sonuncu Gün Müqəddəsləri Kilsəsinin təsis edilməsinə qədər dinlərin çiçəklənməsi üçün şərait yaratmağa davam edir. Paytaxtımızda ikinci Katolik kilsəsinin inşasının davam etdirilməsi bizim bu məsələyə sadiqliyimizi bir daha sübut edir ki, bu da cəmiyyətin öz dini müxtəlifliyi ilə gücləndiyinə inamımızın göstəricisidir.

Lakin hazırkı sülhə qədər keçdiyimiz yol dərin itkilərlə yadda qalıb. Biz 1987-ci ildən bəri Ermənistandakı dədə-baba torpaqlarından zorla çıxarılan qərbi azərbaycanlıların üzləşdiyi tarixi ədalətsizliyi xatırlamalıyıq.

Yüzlərlə kənd viran qoyulmuş, evlər talanmış, İrəvandakı tarixi Göy məscid də daxil olmaqla, müqəddəs yerlər təhqir edilmiş və ya tarixi izləri silinmişdir.

Onilliklər ərzində Azərbaycan cəmiyyətinə inteqrasiya olmasına baxmayaraq, əcdadlarımızın məzarlarını ziyarət etmək və dağıdılmış evləri bərpa etmək arzusu xalqımızda dinc və humanitar bir ürək döyüntüsü olaraq qalır.

Qərbi azərbaycanlılar heç bir ərazi iddiası irəli sürmürlər. Onların məqsədi Ermənistanın suverenliyini təhdid etmək deyil, sülh və ləyaqət şəraitində öz yurd yerlərinə qayıtmaq kimi fundamental insan hüququnu həyata keçirməkdir. Biz tarixi bir yol ayrıcındayıq. 2025-ci il avqustun 8-də Vaşinqtonda imzalanmış Birgə Bəyannamə ümid işığı rolunu oynayır. Biz onilliklər boyu davam edən fikir ayrılıqlarını Prezident İlham Əliyevin və ABŞ Prezidenti Donald Trampın ticarət, təhlükəsizlik və qarşılıqlı hörmətlə müəyyənləşdirilmiş gələcəklə əvəzləmək barədə ortaq baxışlarını tam şəkildə dəstəkləyirik.

Cənab vitse-prezident, biz 1990-cı illərin əvvəllərində Ermənistan Respublikasından qovulmuş azərbaycanlıların qayıtmaq hüququnun müdafiəsi və mədəni irsinin qorunması üçün Sizdən dəstək istəyirik.

Qərbi azərbaycanlıların tarixi yurdlarına dinc yolla qayıtmalarına və Ermənistanda Azərbaycan xalqına məxsus dağıdılmış dini və mədəni irs yerlərinin bərpasına dəstəyiniz düzgün istiqamətdə atılmış mühüm bir addım ola bilər.

Bundan əlavə, biz inanırıq ki, əcdadlarının Ermənistandakı torpaqlarından zorla qovulmuş azərbaycanlıların geri qayıtmaq hüququ məsələsi real və hərtərəfli sülh yolu ilə həll olunmalıdır. Qərbi Azərbaycan İcması dinc qayıdışla bağlı konstruktiv dialoq çağırışı etsə də, bu çağırışlar cavabsız qalmışdır. Ədalətli və davamlı sülh bu icmanın öz doğma evlərinə sülh və təhlükəsiz şəraitdə qayıtmasını əhatə etməlidir.

Sizin liderliyiniz və mənəvi dürüstlüyünüz "2025-ci il sülhü"nün Qafqazdakı hər bir ailə üçün daimi gerçəkliyə çevrilməsini təmin edə bilər.

*Hörmət və ehtiramla,*

Azərbaycan vətəndaş cəmiyyətinin nümayəndələri

1. Ramil İskəndərli - Azərbaycan Milli QHT Forumunun İdarə Heyətinin sədri
2. Oğuz Məmmədov - "Zəngi - Tarixi İrsin Öyrənilməsi" İctimai Birliyinin sədri
3. Fuad Məmmədov - "Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyasının Rəyasət Heyətinin sədri
4. Xatirə Vəliyeva - Azərbaycan Milli QHT Forumunun İdarə Heyətinin üzvü
5. Rizvan Nəbiyev - "Hüquqi Təhlil və Araşdırmalar" İctimai Birliyinin İdarə Heyətinin üzvü
6. Tənzilə Rüstəmxanlı - "Azəri-Türk Qadınlar Birliyi"nin sədri
7. Novella Cəfərova - "D.Əliyeva adına Azərbaycan Qadın Hüquqlarının Cəmiyyətinin Müdafiə Cəmiyyəti" İctimai Birliyinin sədri
8. Səadət Bənənyarlı - "Beynəlxalq İnsan Hüquqları Cəmiyyətinin Azərbaycan Milli Bölməsi" İctimai Birliyinin sədri
9. Səltənət Qocamanlı - "İnsan Hüquqlarının və Qanunçuluğun Müdafiəsi" İctimai Birliyinin sədri
10. Sevinc Əlizadə - "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin sədri
11. Əmir Əliyev - "İnsan Hüquqlarının Təşviqi Mərkəzi" İctimai Birliyinin sədri
12. Əliməmməd Nuriyev - Konstitusiya Araşdırmalar Fondunun rəhbəri
13. Zaur Məmmədov - "Bakı Politoloqlar Klubu" İctimai Birliyinin sədri
14. Rey Qasımov - "Azərbaycanda Minadan Zərərçəkənlərin Assosiasiyası" İctimai Birliyinin sədri
15. Hafiz Səfixanov - "Minalar Əleyhinə Azərbaycan Kampaniyası" İctimai Birliyinin sədri
16. Zaur İbrahimli - "Prioritet" Sosial İqtisadi Araşdırmalar Mərkəzi İctimai Birliyinin sədri
17. Xətai Ələsgərov - "Dədə Ələsgər Ocağı" İctimai Birliyinin sədri
18. Könül Behbudova - "Qarabağ İtkin Ailələri" İctimai Birliyinin sədri
19. Ayaz Mirzəyev - "Azərbaycan Jurnalistlər Şəbəkəsi" İctimai Birliyinin sədri
20. Dilqəm Əhməd - "Çapar" Milli İrsin Tədqiqi Mərkəzi İctimai Birliyinin sədri
21. Hacı Abdulla - "Zəngəzur" Cəmiyyətləri İctimai Birliyinin sədri
22. Fariz Xəlilli - "Miras" Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin sədri
23. Umud Rəhimoğlu - "Beynəlxalq Avrasiya Mətbuat Fondu"nun sədri
24. Mübariz Əsgərov - "Obyektiv" Milli Dəyərlərin Təbliğinə Dəstək İctimai Birliyinin sədri
25. Şəhla Nağıyeva - "Sönməz Məşəl" Mədəni Əlaqələr İctimai Birliyinin sədri
26. Tünzalə Abdullalimova - "Vətən Naminə" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin sədri
27. Ceyran Həsənova - "Şəhid Analarına Dəstək" İctimai Birliyinin sədri
28. Aqil Camal - "Ortaq Dəyərlər" İctimai Birliyinin sədri
29. Vüqar Qədirov - "Qayıdış və Dirçəliş Naminə Gənclər Təşkilatı" İctimai Birliyinin sədri
30. Xalid Kazımov - "Regional İnsan Hüquqları və Media Mərkəzi" İctimai Birliyinin sədri
31. Əhməd Abbasbəyli - "Cəmiyyətin İnkişafı Mərkəzi" İctimai Birliyinin sədri
32. İradə Rzazadə - "Vətəndaşların Sosial Rifahı Naminə" İctimai Birliyinin sədri
33. Kəramət İsmayılov -"İqtisadi və Sosial İnkişaf Mərkəzi" İctimai Birliyinin sədri
34. Fikrət Yusifov - "Ekonomiks" Beynəlxalq İqtisadi Araşdırmalar İctimai Birliyinin sədri
35. Şəlalə Həsənova - "İctimaiyyətlə əlaqələrin inkişafına dəstək" İctimai Birliyinin sədri
36. Zərifə Quliyeva - "Modern İnkişaf və Ailə" İctimai Birliyinin sədri
37. Məhluqə Rəhimova - "Əlil Qadınlar Cəmiyyəti" İctimai Birliyinin sədri
38. Vüsalə Hüseynova - İslahatçı qadınlar və innovasiyalar İctimai Birliyinin sədri
39. İlqar Hüseynli - Sosial-strateji tədqiqatlar və analitik araşdırmalar İctimai Birliyinin sədri
40. Varis Yolçiyev - Azərbaycan Ədəbiyyat Fondunun Baş direktoru
41. Səməd Vəkilov - "Müvəkkil Hüquq Mərkəzi" İctimai Birliyinin sədri
42. Cəsarət Hüseynzadə - "İnformasiya və Sosial Təşəbbüslərə Dəstək" İctimai Birliyinin sədri
43. Elşad Eyvazov - Tərəfsiz Jurnalistlər İctimai Birliyinin sədri
44. Fəridə Mirişova- "İz" Mədəniyyətin İnkişafına Dəstək İctimai Birliyinin sədri
45. Lalə Sərdarlı - "Tətbiqi Sənət Nümunələrinin Qorunmasına və Təbliğinə Yardım" İctimai Birliyinin sədri".

# Ermənistan sülhə paradoksal olan hər bir vəziyyətdən yayınmalıdır

**Tarixdə qalmış qondarma rejimin "prezidenti" S.Şahramanyan Ermənistanın Elm və Təhsil Nazirliyini məhkəməyə verərək, "şərəf və ləyaqətin qorunması və faktların təkzibi ilə bağlı mülki iddia" qaldırıb. Buna səbəb isə S.Şahramanyanın qondarma qurumu ləğv etməsi barədə qərar haqqında məlumatın tarix dərsliyinə salınmasıdır. Amma onun iddiası əsaslı sayılmayıb.**

Sosial Tədqiqatlar Mərkəzinin əməkdaşı Aqşin Kərimov qəzetimizə açıqlamasında bildirib ki, Samvel Şahramanyanın imzaladığı "fərman"ın "məcburi" olub-olmaması hüquqi kazus yaratmır. Nəticə etibarı ilə o, Azərbaycan ərazilərində qeyri-qanuni və separatçı rejimin başçısı idi. "Separatizmin ləğvi üçün Azərbaycanın atdığı addımlar, o cümlədən antiterror əməliyyatlarının nəticəsində rejimin bütün strukturları, onların izləri ləğv edilməli idi. Əsl hüquqi addım budur, Şahramanyan və onun iddiası üzərində hüquqi, siyasi və ictimai manipulyasiyalar yaratmaq isə hüquq prinsiplərinə ziddir", - deyə o əlavə edib.



Ekspert qeyd edib ki, Azərbaycan Ermənistanda hüquq müstəvisindəki diskurslardan sonra İrəvanda revanşizm atmosferini yüksək səviyyədə diqqətdə saxlayacaq. Çünki Ermənistan 8 avqust Vaşinqton razılaşması ilə üzərinə götürdüyü öhdəlikləri icra etməli və onun qarşısına qeyri-müəyyən situasiya çıxarmaqdan yayınmalıdır. Buna paradoksal olan hər bir vəziyyət isə Ermənistanı həm də ABŞ qarşısında məsuliyyətli edir.

A.Kərimov deyib ki, Ermənistanın ictimai-siyasi və hüquq mühitinin ABŞ-nin vitse-prezidenti Ceyms Devid Vensin regiona səfəri fonunda rəng dəyişdirməyə çalışması da əlavə suallar yaradır: "Bunların fonunda Azərbaycan Respublikası təhlükəsizliyə, sülh gündəliyinə xələl gətirəcək riskləri idarə etməyi ABŞ ilə dilomatik-siyasi danışıqların mərkəzinə gətirə bilər. Çünki regional dinamika və təhlükəsizliklə əlaqədar mövqelərin yenidən nəzərdən keçirilməsi aktuallıq qazanıb. Azərbaycan regional arxitekturada öz iştirakını genişləndirməklə sülh prioritetlərinə diqqəti artıracaq. Bu, Azərbaycanın geosiyasi imkanlarının genişliyi baxımından sülh proqramına yeni detallar gətirə bilər. Yəqin ki, cənab Vensin səfərindən sonra bəzi nəticələr ictimaiyyətə açıqlanacaq".

Aqşin Kərimov vurğulayıb ki, həmçinin Azərbaycan-ABŞ, Azərbaycan-Çin münasibətlərinin güclənməsi ilə əlaqədar yaranan geosiyasi mənzərə Bakı üçün əhəmiyyətlidir. Ona görə də, Samvel Şahramanyan kimi şəxslər bu böyük mənzərənin içərisində kiçik bir detaldır, onları seçkiqabağı aktivləşdirən qüvvələrin kim olduğunu müəyyənləşdirməkdən ötrü intensiv səylər davam edəcək.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# "Azərbaycan kibertəhlükəsizlik sahəsində güclü insan kapitalı formalaşdırır"

**"Son üç il ərzində 300-dən artıq mütəxəssis hazırlayan Azərbaycan Kibertəhlükəsizlik Mərkəzi ölkənin kibertəhlükəsizlik potensialının gücləndirilməsində mühüm dayağa çevrilib. Müasir dövrdə kibertəhlükəsizlik artıq yalnız texniki peşə deyil, kritik infrastrukturun qorunması, etimadın təmin edilməsi və innovasiyaların cəmiyyətə xidmət etməsi baxımından böyük məsuliyyətdir".**



AZƏRTAC xəbər verir ki, bu fikirləri İsrailin "Technion" Universitetinin Davamlı Təhsil Mərkəzinin direktoru Moti Yeger Bakıda keçirilən Azərbaycan Kibertəhlükəsizlik Mərkəzinin 6-cı məzun günü tədbirində çıxışı zamanı səsləndirib.

O bildirib ki, süni intellekt və rəqəmsal sistemlərin sürətlə inkişaf etdiyi bir dövrdə kibertəhlükəsizlik milli təhlükəsizlik və ictimai etimad üçün strateji əhəmiyyət daşıyır.

Moti Yeger qeyd edib ki, ötən həftə Qüds şəhərində İsrail və Azərbaycan arasında süni intellekt sahəsində Anlaşma Memorandumunun imzalanması iki ölkə arasında möhkəm və davamlı strateji tərəfdaşlığın göstəricisidir. Sənəd İsrailin Baş naziri Benyamin Netanyahu ilə Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyevin iştirakı ilə imzalanıb.

"Technion", İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi (İRİA) və Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi arasında əməkdaşlığın uzunmüddətli potensialın formalaşdırılmasına, bilik və insan kapitalının inkişafına yönəldiyini vurğulayan M.Yeger Davamlı Təhsil Məktəbinin ömür boyu öyrənmə prinsipinə əsaslandığını bildirib.

O qeyd edib ki, bu proqram çərçivəsində texnologiyanın nəyə qadir olmasından daha çox, onun necə dizayn edilməsinə və təhlükəsiz şəkildə tətbiq olunmasına diqqət yetirilir.

Moti Yeger çıxışının sonunda İRİA-ya və yerli tərəfdaşlara göstərdikləri dəstəyə və əməkdaşlığa görə təşəkkürünü bildirib.

# ABŞ-Azərbaycan strateji tərəfdaşlığı dərinləşir

## Vensin Bakıya səfəri münasibətlərdə yeni mərhələnin başlanğıcı olacaq



**Beynəlxalq əlaqələr daha çox liderlərin qərarları və real iş birliyi sayəsində formalaşır. Ölkələr arasında münasibətlər də dinamik və nəticəyönümlü xarakter daşıyır. Ənənəvi formatlar öz yerini çevik və praqmatik addımlara verir. Hazırda Azərbaycan-ABŞ əməkdaşlığı məhz qarşılıqlı etimada və hər iki tərəfin strateji maraqlarına söykənən möhkəm tərəfdaşlıq üzərində inkişaf edir. ABŞ-nin vitse-prezidenti Ceyms Devid Vensin bu günlərdə Azərbaycana planlaşdırılan səfəri yeni və çevik diplomatik mərhələnin başlanğıcı olmaqla yanaşı, Vaşinqtonun regiondakı maraqlarının və Bakı ilə mövcud olan strateji əlaqələrin təzahürüdür.**

ABŞ Dövlət Departamentinin məlumatına əsasən, dövlət katibinin iqtisadi məsələlər üzrə müavini Ceykob Helberq də 9-11 fevral tarixlərində Milan, İrəvan və Bakıya səfər çərçivəsində vitse-prezident Ceyms Devid Vensə qoşulacaq. Rəsmilərin bölgəyə səfəri Cənubi Qafqazın yeni arxitekturasının təməl daşlarını yerinə oturtmaq və "Beynəlxalq sülh və rifah naminə Tramp marşrutu" (TRIPP) kimi nəhəng layihələri praktiki müstəviyə keçirmək məqsədi daşıyır. Bu da Vaşinqtonun Cənubi Qafqazdakı prioritetlərinin rəsmən dəyişdiyinin elanıdır. Xüsusilə dövlət katibinin müavini Ceykob Helberqin səfərdə iştirakı Amerikanın bölgəyə milyardlarla dollarlıq investisiya və texnoloji yeniliklər gətirmək niyyətini təsdiqləyir. Helberq texnologiya sahəsində rəqabət və təhlükəsizliklə bağlı fəaliyyəti ilə tanınır. Bu məqam bölgədə rəqəmsal infrastruktur və enerji dəhlizləri ilə bağlı konkret təkliflərin masada ola biləcəyinə işarədir.

Vens 2008-ci ildə bölgəyə gələn ovaxtkı vitse-prezident Dik Çeynidən bu yana Bakıya səfər edəcək ABŞ-nin ilk yüksəkranqlı şəxsi olacaq. Vitse-prezidentin münaqişə və siyasi gərginlik mərhələsindən hüquqi-diplomatik arenaya uğurla keçid edən Azərbaycana gözlənilən səfəri rəsmi Bakının artan çəkisini nümayiş etdirir. Bu, sadəcə, diplomatik səfər deyil, iki ölkə arasındakı yüksəksəviyyəli etimadın və birbaşa liderlik dialoqunun mühüm nəticəsidir.

ABŞ vitse-prezidentinin Azərbaycana nəzərdə tutulan səfəri sülh prosesinə dəstək baxımından böyük əhəmiyyət kəsb edir. Səfər çərçivəsində tərəflər arasında sülhün, regional təhlükəsizlik və iqtisadi əməkdaşlığın əsas müzakirə predmeti olacağı vurğulanır. Vens Tramp administrasiyasının "öncə Amerika" doktrinasının əsas daşıyıcılarından biridir. ABŞ rəsmisinin səfəri o deməkdir ki, Cənubi Qafqazda sülh artıq ABŞ-nin milli təhlükəsizlik və iqtisadi maraqları çərçivəsində dəyərləndirilir. Ağ Ev üçün Vaşinqton razılaşmaları çərçivəsində Bakı ilə İrəvan arasındakı barışıq planının irəlilədilməsi əsas hədəfdir. Tramp administrasiyası Vaşinqtonda başlayan prosesin konkret nəticə ilə bitməsində maraqlıdır. Ehtimal olunur ki, bu səfər və görüşlərdən sonra tərəflər arasında iqtisadi-ticari əməkdaşlığın qurulmasında fəallıq artacaq.

TRIPP marşrutunun işə düşməsini tezləşdirmək də Vaşinqton üçün strateji əhəmiyyət kəsb edir. Bu, ABŞ-nin həm Cənubi Qafqazda, həm də Orta dəhliz boyu mövqeyini gücləndirmək, həmçinin Mərkəzi Asiya regionu ilə birbaşa bağlar qurmaq planının mühüm tərkib hissəsidir. TRIPP vasitəsilə ABŞ Azərbaycanın nəqliyyat-logistika potensialına, xüsusilə Zəngəzur dəhlizi və Orta dəhliz layihələrinə milyardlarla dollarlıq dəstək vədi verir ki, bu da regionu qlobal ticarətin yeni mərkəzinə çevirmək məqsədi daşıyır.

Ümumən, Azərbaycan-ABŞ arasındakı münasibətlərin keyfiyyətcə yeni müstəviyə keçdiyi və bu prosesdə şəxsi liderlik faktorunun həlledici rolu göz önündədir. Liderlər arasındakı dialoqun xronologiyasına baxsaq, görərik ki, Davosdan Misirə qədər uzanan bütün təmaslar Azərbaycanı qlobal sülhün və enerji təhlükəsizliyinin mərkəzi qovşağına çevirib. Dövlət başçılarının görüşlərində, məktublaşma və telefon zənglərində əksini tapan səmimiyyət ABŞ-nin Azərbaycanı sadiq və güclü tərəfdaş kimi gördüyünün bariz nümunəsidir. Ağ Ev üçün Azərbaycan, sadəcə, enerji tərəfdaşı deyil, Avrasiyanın geosiyasi arxitekturasında mərkəzi oyunçu statusundadır. Bu kontekstdə, 8 avqust 2025-ci ildə Vaşinqtonda baş tutan tarixi görüş münasibətlərdəki durğunluğa son qoyaraq, "Strateji Tərəfdaşlıq Xartiyası"na gedən yolu açan əsas dönüş nöqtəsi oldu.

Azərbaycan-ABŞ münasibətlərinin hazırkı mərhələsi xüsusilə Donald Trampın hakimiyyətə qayıdışından sonra şəxsi diplomatiya və iqtisadi sülh modelinə əsaslanan strateji dərinlik qazanıb. Trampın xarici siyasəti uzunmüddətli bürokratik danışıqlardan daha çox, birbaşa liderlər arasındakı anlaşmalara söykənir. Məhz iki lider arasındakı yüksək təmaslar münasibətlərin dinamikasını müəyyən edən əsas amildir. Donald Trampın İlham Əliyevə göndərdiyi şəklin üzərində şəxsən yazdığı "İlham, sən böyük lidersən" ifadəsi bu münasibətlərin simvoluna çevrilib. Tramp Ağ Evdə keçirilən görüşlərdə İlham Əliyevi "inanılmaz lider" və "çox ağıllı" rəhbər kimi xarakterizə edib. Bu ifadələr iki ölkə arasındakı münasibətlərin həm də liderlər səviyyəsində yüksək etimada əsaslandığını göstərir.

Liderlər arasındakı dinamik əlaqələr ikitərəfli görüşlərlə məhdudlaşmır, həm də mühüm beynəlxalq platformalarda davamlı təmaslarla möhkəmlənir. 2026-cı ilin yanvarında Davos İqtisadi Forumu çərçivəsində keçirilən dialoq və Misirdəki səmimi təmaslar göstərdi ki, Vaşinqton və Bakı qlobal təhlükəsizlik və iqtisadi rifah məsələlərində eyni dildə danışırlar. Bu görüşlərdə Azərbaycanın Sülh Şurasına dəvət edilməsi, ölkəmizin regionda sülhün və sabitliyin əsas qarantı kimi qəbul olunması örnəyidir.

Nəticə olaraq, vitse-prezident Vensin Bakıya planlaşdırılan səfəri və səfər çərçivəsində imzalanacaq sənədlər, TRIPP layihəsinin icrasına dair atılacaq addımlar Azərbaycanın regional liderliyini beynəlxalq səviyyədə bir daha təsdiqləyəcək, Azərbaycan-ABŞ strateji müttəfiqliyi daha da güclənəcək.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# ABŞ vitse-prezidentinin regiona səfərinin ciddi nəticələri olacaq

**ABŞ-nin vitse-prezidenti Ceyms Devid Vensin Azərbaycana səfəri iki ölkə arasındakı münasibətlərin keçən bir il ərzində sürətlə inkişafının parlaq göstəricilərindən biridir. Bu səfər regionda və dünyada çox gərgin və təlatümlü proseslərin getdiyi bir dövrə təsadüf edir. Belə bir dövrdə Ceyms Devid Vensin regiona səfəri göstərir ki, Cənubi Qafqaz, Azərbaycan ABŞ-nin xarici siyasətində çox önəmli yer tutur.**



Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin şöbə müdiri Vasif Hüseynov "Azərbaycan" qəzetinə açıqlamasında bildirib ki, bu səfərin Vaşinqton və Bakı arasındakı münasibətlər üçün əhəmiyyəti böyükdür: "İlk olaraq qeyd etmək lazımdır ki, ötən bir ildə Azərbaycan Prezidenti İlham Əliyev və ABŞ Prezidenti Donald Tramp arasında bir neçə dəfə həm ikitərəfli, həm də müxtəlif beynəlxalq tədbirlər çərçivəsində görüşlər baş tutub. Bu görüşlərdə həm Cənubi Qafqazın ümumi gələcəyi, həm də ikitərəfli münasibətlərlə bağlı bir çox razılıqlar əldə edilib. Əlbəttə ki, bu anlaşmalar içərisində ən mühüm əhəmiyyətə malik olan Donald Trampın vasitəçiliyi ilə Azərbaycan və Ermənistan arasında sülh müqaviləsi istiqamətində aparılan işlərin sürətlənməsi və Zəngəzur dəhlizi ilə bağlı praktiki nəticələri olan razılıqların əldə olunmasıdır. Bu, dəhlizin ABŞ-nin iştirakı ilə TRIPP adı altında açılmasını nəzərdə tutur. Bu istiqamətdə artıq ciddi işlər görülüb. Bu, həmçinin ABŞ Prezidentinin Azərbaycana, ümumilikdə Cənubi Qafqaza münasibətində ciddi konstruktiv mövqeyinin olmasının göstəricisidir".

Siyasi şərhçi qeyd edib ki, əvvəlki Co Bayden administrasiyasının birtərəfli ermənipərəst mövqeyi nəticəsində Amerikanın bütün vasitəçilik cəhdləri iflasa uğramışdı. Azərbaycan tərəfi açıq mövqe ifadə etmişdi ki, ABŞ sülh prosesində obyektiv, konstruktiv mövqe tutmasa, onun vasitəçiliyi ölkəmiz tərəfindən müsbət qarşılanmayacaq. "Donald Trampın prezident seçilməsindən sonra bu ölkənin xarici siyasətində edilmiş ciddi korrektələr ABŞ-nin Azərbaycan-Ermənistan sülh prosesində ən vacib aktor kimi çıxış etməsi ilə nəticələndi. Ceyms Devid Vensin səfəri məhz bu istiqamətdə əldə olunmuş razılaşmanın bir daha müzakirə edilməsinə, onların daha səmərəli şəkildə icra olunmasına xidmət edəcək", - deyə o əlavə edib.

ABŞ-nin vitse-prezidentinin Azərbaycana səfərinin ikitərəfli münasibətlər baxımından da mühüm əhəmiyyət daşıdığını deyən V.Hüseynov vurğulayıb ki, Vensi ABŞ-dən biznes nümayəndələri də müşayiət edəcək. Bu səfər çərçivəsində Amerika-Azərbaycan iqtisadi münasibətlərinin dərinləşməsi, investisiya imkanları, eyni zamanda ticarət dövriyyəsinin artırılması ilə bağlı təşəbbüslər müzakirə ediləcək. Bütün bunları nəzərə aldıqda görərik ki, ABŞ-nin vitse-prezidentinin Azərbaycana səfəri iki ölkə arasında münasibətlər üçün tarixi əhəmiyyətə malikdir. Bu səfərin, şübhəsiz ki, həm Cənubi Qafqaz, həm də Azərbaycan-ABŞ əlaqələri üçün ciddi nəticələri olacaq.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# "TITR Assosiasiyasının üç təsisçi ölkəsindən biri olan Azərbaycan marşrutun istismarında və inkişafında strateji rol oynayır"

**Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (TITR) Şərq ilə Qərb arasında mühüm dəhliz olaraq öz mövqeyini inamla möhkəmləndirir. AZƏRTAC əldə edilən nəticələr, marşrutun rəqabət qabiliyyətini artırmaq istiqamətində görülən tədbirlər və TITR Assosiasiyasının strateji prioritetləri barədə baş katib vəzifəsini icra edən Nurgül Jakupova ilə söhbət edib.**



*- TITR Assosiasiyası son bir ildə hansı əsas nəticələrə nail olub və onların Orta dəhlizin üzv ölkələr üçün əhəmiyyəti nədən ibarətdir?*

- Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu ötən il konteyner daşımalarının inkişafı baxımından aktivlik nümayiş etdirdi. 2025-ci ildə ümumi konteyner daşımaları 76,900 TEU-ya çatacaq ki, bu da 2024-cü il göstəricisindən 36% çoxdur. Hesabat dövründə TITR marşrutu üzrə 433 konteyner qatarı istismar edilib ki, bunlardan 400-ü Şərq-Qərb istiqamətində, 33-ü isə Qərb-Şərq istiqamətində olub. Bu göstəricilər marşrut üzrə konteyner daşımalarının artan müntəzəmliyini və dayanıqlılığını əyani şəkildə nümayiş etdirir. Bundan əlavə, bu müsbət tendensiyanın əsas amillərindən biri konteyner qatarlarının çatdırılma müddətinin yarıya endirilməsi (qış mövsümü istisna olmaqla) idi.

TITR marşrutu boyunca nəqliyyat həcminin artması Orta dəhlizdə iştirak edən bütün ölkələr üçün fundamental əhəmiyyət kəsb edir. Konteyner daşımalarının artması nəqliyyat infrastrukturundan istifadənin intensivləşməsinə, tranzit gəlirlərinin çoxalmasına və marşrut boyunca logistika mərkəzlərinin inkişafına kömək edir. Bundan əlavə, bu, iştirakçı ölkələrin beynəlxalq təchizat zəncirlərindəki mövqelərini gücləndirir və xarici ticarət yollarının şaxələndirilməsinə şərait yaradır, Orta dəhlizin Avrasiya məkanında ümumi rəqabət qabiliyyətini artırır.

*- TITR Assosiasiyası marşrutun rəqabət qabiliyyətini artırmaq üçün hansı praktik addımlar atır?*

- Trafik həcminin artması və TITR marşrutunun əhəmiyyətinin güclənməsi ilə assosiasiya əməliyyat, təşkilati və infrastruktur tədbirlərini birləşdirərək rəqabət qabiliyyətini artırmaq üçün sistemli şəkildə çalışır.

İlk növbədə, assosiasiya marşrutun fəaliyyətini davamlı olaraq izləyir və üzv ölkələr ilə birlikdə yaranan hər hansı problemi tez bir zamanda həll edir. Konteyner qatarlarının hərəkətini gündəlik olaraq əlaqələndirən və nəqliyyat iştirakçıları arasında yük axınları haqqında məlumat mübadiləsini təmin edən dispetçer mərkəzi ilə müntəzəm olaraq onlayn görüşlər keçirilir. Mərkəzin fəaliyyəti tranzit etibarlılığının artmasına və konteyner çatdırılma müddətinin azalmasına kömək edir.

Eyni zamanda assosiasiya marşrut haqqında məlumatlılığın artırılması və təşviqi, yeni müştərilərin cəlb olunması, yükgöndərənlər və logistika operatorları tərəfindən davamlı marağın yaradılması məqsədi daşıyan kommunikasiya və təşviqat səylərini fəal şəkildə həyata keçirir. Assosiasiya nümayəndələri Çin-Avropa Beynəlxalq Dəmir Yolu Əməkdaşlıq Forumu, "Avrasiya İqtisadi Forumu - 2025" və Avropanın ən böyük nəqliyyat və logistika sərgilərindən biri olan "Transport Logistic - 2025" də daxil olmaqla əsas beynəlxalq marketinq və sənaye tədbirlərində iştirak ediblər. Aparıcı beynəlxalq media qurumları ilə qarşılıqlı əlaqə marşrutun təşviqi üçün əlavə bir vasitəyə çevrilib: TITR-in potensialı və assosiasiyanın fəaliyyəti ÇXR hökumətinin rəsmi xəbər agentliyi olan Sinxuanın, eləcə də ən böyük beynəlxalq xəbər qurumlarından biri olan CNN-in və digər xarici media qurumlarının nəşrlərində işıqlandırılıb.

TITR marşrutunun inkişafında praktik addım iştirakçı ölkələrdə tutumu çoxaltmaq və nəqliyyat səmərəliliyini artırmaq məqsədi daşıyan əsas infrastruktur layihələrinin həyata keçirilməsidir.

Artıq fəaliyyətdə olan obyektlər sırasında Sian quru limanında sürətli və etibarlı konteyner daşınmasını təmin edən Qazaxıstan-Çin terminalı, modernləşdirilmiş Bakı-Tbilisi-Qars dəmir yolu xətti, Kurık və Aktau limanlarında dərinləşdirilmiş giriş kanalları, Aktau limanında konteyner mərkəzi, Kurık limanında çoxfunksiyalı terminallar və Potidə yeni logistika terminalı var.

Paralel olaraq, Qazaxıstan vasitəsilə marşrutun infrastrukturunun daha da modernləşdirilməsi davam edir. Xüsusilə, Dostık-Moyıntı hissəsində ikinci yolun tikintisi başa çatıb və bu, onun tutumunu əhəmiyyətli dərəcədə artırıb. Jetıgen-Kazıbek hissəsində Almatıdan keçən dəmir yolu xətti nəqliyyat üçün açılıb, ən işlək nəqliyyat mərkəzlərindən birində tıxaclar əhəmiyyətli dərəcədə azaldılıb və Trans-Xəzər Nəqliyyat Marşrutu boyunca tranzit daşımaları sürətlənib.

Əlavə olaraq, TITR-in Qazaxıstan hissəsində təqribən 800 kilometrlik dəmir yolu infrastrukturunun, o cümlədən Alltınkol-Jetıken, Kızılljar-Saksaul, Şalkar-Beyney və Beyney-Manqistau sahələrinin modernləşdirilməsi işləri aparılır, həmçinin Moyıntı-Kızıljar yeni dəmir yolu qolunun tikintisinə başlanılıb.

Bu infrastruktur layihələrinin həyata keçirilməsi TITR marşrutunun tutumunu əhəmiyyətli dərəcədə artıracaq, qatar xidmətini sürətləndirəcək, etibarlılığı gücləndirəcək və yükdaşıma müddətini azaldacaq. Marşrutun mühüm rəqabət üstünlüyü yük axınlarını dəstəkləməyə və stimullaşdırmağa yönəlmiş tarif siyasətidir.

Son beş ildə "Şərq-Qərb" marşrutunda sabit və proqnozlaşdırıla bilən tarif şərtləri dəyişməz olaraq qalıb. Bu tarif sabitliyi bazar iştirakçılarına logistika zəncirlərini uzunmüddətli planlaşdırmağa imkan verir, yükgöndərənlər üçün qiymət risklərini azaldır və tranzit daşımalar üçün TITR marşrutunun cəlbediciliyini artırır.

Eyni zamanda "Qərb-Şərq" marşrutunda əks yük axınlarını stimullaşdırmaq və əlavə daşıma həcmlərini cəlb etmək məqsədilə 30-50 faiz arasında endirimli güzəştli tarif şərtləri tətbiq olunur.

Genişmiqyaslı infrastrukturun modernləşdirilməsi və çevik, sabit tarif siyasətinin birləşməsi TITR dəhlizi üçün dəniz nəqliyyatı da daxil olmaqla alternativ gəmiçilik marşrutları ilə müqayisədə davamlı rəqabət üstünlüyü yaradır və Avrasiya logistikasının etibarlı və səmərəli elementi kimi onun mövqeyini gücləndirir.

*- TITR marşrutunun inkişafında Azərbaycanın hazırkı rolu nədən ibarətdir və tərəfdaşlarla hansı sahələrdə əməkdaşlıq davam etdirilir?*

- TITR Assosiasiyasının üç təsisçi ölkəsindən biri olan Azərbaycan marşrutun istismarında və inkişafında strateji rol oynayır. Onun əlverişli coğrafi mövqeyi, inkişaf etmiş nəqliyyat infrastrukturu və səmərəli logistika şəbəkəsi ölkənin yüksək tranzit və nəqliyyat potensialını yaradır, habelə TITR-in əsas nəqliyyat və logistika mərkəzlərindən birinə çevirir.

Azərbaycan milli nəqliyyat sisteminin tutumunun artırılmasına yönəlmiş genişmiqyaslı infrastruktur layihələri həyata keçirir. Xüsusilə, Bakı Beynəlxalq Dəniz Limanının ikinci mərhələsi tikilir, quru yük körpüsünün və liman dəmir yolu stansiyalarının tutumu genişləndirilir, Bakı-Böyük Kəsik dəmir yolu xəttinin enerji təchizatı sisteminin yenidən qurulması, rabitə və siqnalizasiya sistemlərinin modernləşdirilməsi işləri aparılır, dəmir yolu vaqonları və lokomotivləri parkı yenilənir. Bu tədbirlər TITR marşrutu boyunca daşımaların tutumunun və etibarlılığının artırılmasına kömək edir. Bundan əlavə, Bakıda müntəzəm olaraq işçi qruplarının səyyar görüşləri və TITR Assosiasiyasının ümumi yığıncağı keçirilir ki, bu da marşrutun inkişafının birgə əlaqələndirilməsinə və əsas məsələlərin həllinə imkan verir.

Marşrut boyunca tərəfdaşlar - Qazaxıstan, Gürcüstan, Türkiyə və Çin ilə əməkdaşlığının bir hissəsi olaraq, sərhəd keçidlərini sadələşdirmək və nəqliyyat səmərəliliyini artırmaq məqsədi daşıyan rəqəmsal sistemlərin və prosedurların sinxronlaşdırılması üzrə birgə tədbirlər də həyata keçirilir.

*- TITR Assosiasiyası beynəlxalq təşkilatlar və özəl müəssisələrlə qarşılıqlı əlaqələrini necə qurur?*

- İllər ərzində TITR Assosiasiyası özünü yetkin və açıq bir təşkilat kimi təsdiqləyib, beynəlxalq maliyyə institutları, müvafiq beynəlxalq təşkilatlar və özəl sektor nümayəndələri ilə müntəzəm olaraq məsləhətləşmələr aparılıb. Assosiasiyanın qərargahında mütəmadi şəkildə Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı, Avropa Komissiyası, Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GIZ), Çin Beynəlxalq Mühəndislik Məsləhət Korporasiyası (CIECC), Yaponiyanın aparıcı qeyri-hökumət təşkilatı ROTOBO, eləcə də Avropa və Asiya liman administrasiyaları, nəqliyyat və logistika şirkətlərinin nümayəndə heyətləri ilə görüşlər keçirilir.

Bu səfərlər çərçivəsində nümayəndələr TITR marşrutunun mövcud imkanları, infrastrukturu və gələcək inkişaf perspektivləri ilə tanış olurlar. Marşrutun tutumunun artırılması, logistika proseslərinin rəqəmsallaşdırılması və optimallaşdırılması, eləcə də biznes gözləntiləri və ehtiyaclarının müzakirəsinə xüsusi diqqət yetirilir.

Belə bir qarşılıqlı əlaqə formatı davamlı tərəfdaşlıq şəbəkəsinin formalaşmasına, nəqliyyat coğrafiyasının genişlənməsinə və Orta dəhliz infrastrukturunun mütərəqqi inkişafına kömək edir.

*- TITR Assosiasiyasının növbəti 3-5 il üçün strateji məqsədləri nələrdir və onların həyata keçirilməsi Avrasiya məkanında logistikaya necə təsir edəcək?*

TITR Assosiasiyasının növbəti 3-5 il üçün strateji məqsədləri ötürmə qabiliyyətini gücləndirmək, konteyner daşımalarını daha da inkişaf etdirmək və rəqəmsal həllərin tətbiqi yolu ilə marşrutun səmərəliliyini hərtərəfli şəkildə artırmağa yönəlib.

Bu baxımdan, ortamüddətli əsas prioritetlərə infrastruktur maneələrinin aradan qaldırılması, sabit müntəzəm konteyner xidmətlərinin yaradılması, Çin-Avropa və Mərkəzi Asiya-Avropa marşrutları da daxil olmaqla, əsas gəmiçilik marşrutları boyunca əlavə konteyner yüklərinin cəlb edilməsi daxildir.

Eyni zamanda əvvəlki illərdə qış mövsümündə Xəzər dənizində pisləşən hava şəraiti Aktau limanında konteyner qatarlarının tıxacına səbəb olub. Əlverişsiz hava şəraitindən asılılığı azaltmaq üçün assosiasiya üzvləri hazırda Xəzər dənizində güclü küləklərə davamlı və daha böyük tutuma malik konteyner gəmilərinin alınması və istismarı məsələlərini araşdırırlar. Bununla yanaşı, Aktau limanı güclü fırtına şəraitində işləmək üçün uyğunlaşdırılmış müasir körpü kranlarının quraşdırılmasını nəzərdən keçirir.

Xəzər dənizində fasiləsiz yükdaşımalarını təmin etmək və yüklərin çatdırılma müddətini azaltmaq məqsədilə TITR marşrutu boyunca daşıma həcmlərinin sürətli artımını nəzərə alaraq, "KTZ Express" ASC altı yeni gəmi almağı planlaşdırır. Bundan əlavə, Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi bir "Ro-Pax" gəmisinin tikintisini başa çatdırmağı planlaşdırır və iki yeni konteyner gəmisinin inşa edilməsini də nəzərdən keçirir.

Çin-Orta Asiya-Avropa marşrutu boyunca və əks istiqamətdə davamlı və problemsiz konteyner tranzitini təşviq etmək üçün TITR Assosiasiyası üzvlərinin iştirakı ilə Qara dənizdə müntəzəm konteyner təminedicisi xidməti planlaşdırılır.

Nəqliyyat prosesinin rəqəmsallaşdırılmasına, o cümlədən tam rəqəmsal həllərin tətbiqinə və iştirakçı ölkələr arasında informasiya sistemlərinin sinxronlaşdırılmasına xüsusi diqqət yetirilir. Bu, sərhəd keçid vaxtlarını azaldacaq, nəqliyyat şəffaflığını artıracaq və logistika zənciri iştirakçıları üçün xərcləri minimuma endirəcək. Bütün bu məqsədlərin həyata keçirilməsi TITR marşrutunun Avrasiya logistikasının rəqabətli və etibarlı elementi kimi rolunun gücləndirilməsinə, eləcə də Şərq və Qərb ölkələri bazarlarının əlaqəsinin artırılmasına töhfə verəcək.



# İlham Əliyev üçün sülhün alternativi yoxdur

## "Zayed İnsan Qardaşlığı Mükafatı" Azərbaycan Prezidentinin güc və diplomatiya siyasətinə verilən beynəlxalq qiymətdir

**Dünyanın getdikcə parçalanmış vəziyyətə düşdüyü bir vaxtda məsuliyyətli liderlərə, sarsılmaz siyasi iradəyə və problemlərin dialoq vasitəsilə həllinə böyük ehtiyac duyulur. Hazırkı mürəkkəb və ziddiyyətli beynəlxalq vəziyyətdə qəbul edilən ibrətamiz qərarlar dövlətlər və xalqlar arasında sabitliyin bünövrəsini və güclü etimad yarada bilər. Sülh cəsarəti, digərini dinləmək və ən çətin şəraitdə belə, güzəşt yolunu tapmaq, qərarların icrasına məsuliyyətlə yanaşmaq bacarığı tələb edir. Tarix göstərir ki, uzunmüddətli və dayanıqlı əlaqələr yalnız qarşılıqlı hörmət və ehtiramla əldə oluna bilər.**

Bu baxımdan, 2026-cı ilin 4 fevralı Azərbaycanın müasir diplomatiya tarixinin əlamətdar günlərindən biri kimi uzun müddət yaddaşlarda qalacaq. Həmin gün Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabi şəhərində keçirilən təntənəli mərasim beynəlxalq aləmdə sülhün təşviqinə yönəlmiş mühüm bir hadisə olmuşdur. Tədbirdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə, BƏƏ-nin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhya "Zayed İnsan Qardaşlığı Mükafatı"nı təqdim etdi. Dövlət rəhbərimizə bu ali mükafatın verilməsi yalnız Azərbaycan üçün deyil, həm də bütün region və dünya üçün çox böyük bir mənaya malikdir.

Qeyd edək ki, "Zayed İnsan Qardaşlığı Mükafatı", BƏƏ-nin banisi Şeyx Zayed bin Sultan Əl Nəhyanın irsinə əsaslanaraq, dünyada sülh, humanizm, dözümlülük və həmrəylik dəyərlərini təbliğ edən ən nüfuzlu qlobal mükafatlardandır. Bu mükafat qarşıdurma məntiqi əvəzinə sülhün, kin əvəzinə məsuliyyətin, keçmiş əvəzinə gələcəyin seçilməsi baxımından müdrik rəhbərliyi qeyd edir. O, qardaşlığın təhlükəsizlik, inkişaf və insan ləyaqətinin təmin edilməsi üçün universal prinsip və praktiki təməl olduğunu bir daha təsdiqləyir. Bu mükafat Papa Fransisk və Əl-Əzhər böyük imamı tərəfindən də dəstəklənir.

Cənab İlham Əliyevə belə bir mükafatın təqdimatı Azərbaycan Prezidentinin münaqişənin ədalətli həlli yolunda göstərdiyi sülh səylərinin beynəlxalq aləmdə necə yüksək qiymətləndirilməsinə daha bir nümunədir. Belə bir ali təltif Azərbaycanın keçdiyi yolun və dövlət başçısının sülhyönümlü siyasətinin əhəmiyyətini vurğulayır.

### Sülhə aparan müstəqil yol

Prezident İlham Əliyevin "Zayed İnsan Qardaşlığı Mükafatı" ilə təltif olunması təsadüfi bir hadisə deyil. Bu mükafat illərlə davam edən strateji və qətiyyətli siyasətin nəticəsidir. Azərbaycan Prezidenti 30 illik münaqişənin sülh yolu ilə həllinə nail olmaq üçün müstəsna diplomatik səylər göstərmişdir. Ötən ilin avqustunda ABŞ-də - Ağ Evdə Prezident Donald Trampın iştirakı ilə Azərbaycan və Ermənistan arasında "Sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında Saziş"in paraflanması cənab İlham Əliyevin illərdir apardığı səbirli, strateji və qətiyyətli siyasətin məntiqi yekunu, dünyadakı bütün münaqişələri sivilizasiyalararası dialoqun gücü ilə yoluna qoymağın parlaq nümunəsidir.

Bu qərar Azərbaycanın beynəlxalq hüququn norma və prinsipləri əsasında ədalətli sülhə nail olmaq istiqamətindəki qətiyyətini bir daha göstərir. Münaqişənin həllində Qərbin və ATƏT-in Minsk qrupunun uzun müddət fəaliyyət göstərməsinə baxmayaraq, Prezident İlham Əliyev dünya miqyasında nüfuzlu bir diplomatik lider olaraq sülhü təmin etmək üçün müstəqil bir yol tapmışdır. Məhz bu müstəqil yol sülhə gətirib çıxarmış, onilliklərlə Ermənistan və Azərbaycan arasında münaqişənin "nə hərb, nə sülh" vəziyyətində qalmasında maraqlı olan, bundan öz çirkin maraqları üçün faydalanmağa çalışan bütün xarici güclərin təsir və təhdidlərini neytrallaşdırmışdır. Əbu-Dabidə Prezident İlham Əliyevə təqdim edilən "Zayed İnsan Qardaşlığı Mükafatı" bu paradiqmanın qələbəsidir. Mərasimdə çıxış edən Prezident İlham Əliyev demişdir: "Bu sülh təkcə iki ölkə üçün deyil, daha geniş region üçün də böyük əhəmiyyət kəsb edir. Biz 30 ildən artıq müddətdə müharibə şəraitində olmuşuq. İndi isə artıq altı aydır ki, sülh şəraitində yaşayırıq.

Dəfələrlə qeyd etdiyim kimi, biz sülh şəraitində yaşamağı öyrənirik. Sizə deyə bilərəm ki, bu, xüsusi bir hissdir. Biz müstəqillik əldə edəndən bəri heç vaxt sülh şəraitində yaşamamışıq və indi bunu sürətlə öyrənirik. ABŞ Prezidenti Donald Trampın Vaşinqtonda evsahibliyi etdiyi tarixi Zirvə görüşündən sonrakı altı ay tərəfdaşlıq, əməkdaşlıq və uzunmüddətli, dayanıqlı sülhə doğru irəliləyiş ayları olmuşdur".

### Mükafatın fəlsəfəsi - Azərbaycanın sülh gündəliyi

Şeyx Zayedin irsinə əsaslanan bu mükafat həmçinin humanizm, dözümlülük və həmrəylik kimi universal dəyərləri təşviq edir. Azərbaycan Prezidenti İlham Əliyevin liderliyi altında Azərbaycan sülhə xidmət etməklə yanaşı, həm də beynəlxalq aləmdə tolerantlıq və multikulturalizmin mərkəzi olaraq mövqeyini gücləndirmişdir. Cənubi Qafqazda onilliklər boyu davam edən düşmənçilikləri aradan qaldırmaq və sülhün bərqərar olması naminə Prezident İlham Əliyev "qalib-məğlub" anlayışından imtina edərək bütün region üçün bərabər imkanlar yaratmağa çalışmışdır. "Bizim nümunəmiz göstərir ki, uzunmüddətli münaqişəyə, əzablara və qarşılıqlı etimadsızlığa baxmayaraq, sülh mümkündür. Hər iki tərəfdən güclü siyasi iradə mövcud olduğu və həmin proses dost ölkələr və beynəlxalq ictimaiyyət tərəfindən dəstəkləndiyi halda, sülh mümkündür", - deyə Azərbaycan Prezidenti mərasimdə bildirmişdir.

"Zayed İnsan Qardaşlığı Mükafatı"nın verilməsi, yalnız Azərbaycanın hərbi qələbəsinin tanınması deyil, həm də ölkənin dini və etnik dözümlülük mərkəzi kimi qlobal mövqeyinin dəyərləndirilməsidir. 2019-cu ildə Roma Papası Fransisk və Əl-Əzhərin böyük imamı Əhməd Əl-Tayyib tərəfindən imzalanmış "İnsan Qardaşlığı Sənədi"ndə qeyd olunan dəyərlər Azərbaycan dövlətinin çoxmillətli və çoxkonfessiyalı quruluşu ilə mükəmməl şəkildə uyğunluq təşkil edir. Prezident İlham Əliyev öz siyasəti ilə bu sənədin ruhunu yaşadır və Azərbaycanı dünyada sülhə və humanizmə töhfə verən nümunəvi dövlət kimi tanıdır.

Azərbaycanın bu sahədəki diplomatik uğuru yalnız Ermənistanla sülhün əldə olunması ilə bitmir. Bu, həm də regionun təhlükəsizliyinin təmin olunması və separatizm kimi təhlükələrin aradan qaldırılması deməkdir. Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində regionda artıq qanunsuz silahlı birləşmələr və separatizm yuvaları yoxdur. Cənubi Qafqazda artıq "boz zonalar"ın yerini davamlı sülh və sabitlik, bunu təmin edən dayanıqlı suveren institutlar tutub. Azərbaycanın sülhə sadiqliyi, humanist yanaşması beynəlxalq miqyasda ən yüksək səviyyədə qiymətləndirilir.

Prezident İlham Əliyevin "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görülməsi dövlətimizin başçısının bütün dünyada sülhə, qardaşlığa, qlobal sabitliyə verdiyi misilsiz töhfələrə beynəlxalq ehtiramın parlaq nümunəsidir. Bu münasibət dövlət başçıları Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın, Qırğızıstan Respublikasının Prezidenti Sadır Japarovun, Pakistanın Baş naziri Məhəmməd Şahbaş Şərifin, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin, Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin və başqa rəsmi şəxslərin tədbirə müraciətlərində xüsusi vurğulanıb. Bildirilib ki, balansa və məntiqi düşüncəyə əsaslanan diplomatiya vasitəsilə biz daha sabit və proqnozlaşdırıla bilən gələcək qura bilərik. Qazaxıstan prezidenti müraciətində qeyd etdi ki, dünyanın getdikcə parçalanmış vəziyyətə düşdüyü bir vaxtda belə siyasətin müstəsna mənəvi və siyasi əhəmiyyəti var: "Sülh sazişi istiqamətində Azərbaycanın və Ermənistanın əldə etdiyi irəliləyiş tarixi əhəmiyyətə malik dönüş nöqtəsidir. Bu, hətta uzunmüddətli münaqişələrin dialoq, məsuliyyət və təmkinlik vasitəsilə həll oluna biləcəyini nümayiş etdirir. Qarşıdurma və ciddi parçalanma xətləri ilə səciyyələndirilən bir dövrdə bu təcrübə göstərir ki, barışıq zəiflik deyil, güc deməkdir… Şeyx Zayed Mükafatı güclü mənəvi mesaj daşıyır… Bu mükafat Şeyx Zayed bin Sultan Al Nəhyanın dözümlülük, qarşılıqlı hörmət və dinc birgəyaşayışa əsaslanan davamlı irsini təcəssüm etdirir". Özbəkistan Prezidenti xüsusi bir məqama toxunaraq demişdir: "Uzun sürmüş münaqişəni rasional şəkildə həll etmək və sülhə nail olmaq naminə həmin siyasi liderlərin birgə səyləri, heç şübhəsiz, bu nüfuzlu mükafata layiqdir. Əldə olunmuş razılaşma problemin həllində məsuliyyətli yanaşmanın, bütöv regionumuzda sabitliyin təmin edilməsi istiqamətində atılmış tarixi addımın bariz nümunəsidir. Bu mənada dövlət xadimlərinə belə yüksək mükafatın verilməsi, həmçinin dünyanın mühüm regionlarından birində yaranan dostluq, həmrəylik və yeni əməkdaşlıq ruhunun aydın əməli təsdiqidir. Biz istənilən mübahisənin, münaqişənin yalnız beynəlxalq hüquq və mehriban qonşuluq əsasında siyasi və diplomatik vasitələrlə həllinin tərəfdarıyıq. Bu gün biz xalqımızın ümumi əmin-amanlığı və rifahını yalnız birlik, qarşılıqlı dəstək və tərəfdaşlıq vasitəsilə təmin edə bilərik. Böyük Şeyx Zayedin adını daşıyan bu mükafatın layiqli namizədlərə verilməsi faktı həmin əbədi həqiqəti bir daha aydın şəkildə sübuta yetirir".

Pakistanın Baş naziri isə müraciətində Prezident İlham Əliyevin sülh gündəliyini yüksək qiymətləndirərək bildirmişdir ki, parçalanma və münaqişələr məngənəsində olan dünyada Prezident Əliyevin qətiyyətli və cəsarətli rəhbərlik keyfiyyətləri hər zaman görünüb, onun gələcəyə yönələn baxışları uzunmüddətli ziddiyyətləri kənara qoyaraq, Ermənistanla tarixi sülh sazişi əsasında bu yolun açılmasında, əmin-amanlığın gücləndirilməsində özünü büruzə vermişdir: "Həmin olduqca mühüm razılaşma təxminən dörd onillik sürən münaqişəyə son qoydu və beləliklə, Zayed Mükafatının dərindən təşviq etdiyi insan qardaşlığının, həmrəyliyin, mərhəmətin, ortaq insani dəyərlərin əsl nümunəsini təcəssüm etdirir".

### Qlobal nümunə

Əbu-Dabidə keçirilən təltifetmə mərasimi qlobal miqyasda mühüm bir nümunə yaratdı. Göstərdi ki, dünyanın müxtəlif bölgələrində davam edən münaqişələr üçün Azərbaycan sülhün əldə olunması və qarşılıqlı razılaşmaların təşviq edilməsi baxımından əhəmiyyətli rol oynaya bilər və ölkəmiz bu missiyanı şərəflə yerinə yetirməyi bacarır. Prezident İlham Əliyevin diplomatik uğurları, sadəcə, bir münaqişənin həllindən ibarət deyil, həm də bütün dünya üçün güc və diplomatiyanın vəhdətinin əyani sübutudur.

Bu mükafat Azərbaycanın beynəlxalq aləmdəki yerinin necə möhkəmləndiyini göstərdiyi kimi, Prezident İlham Əliyevin qlobal liderlik mövqeyinin də ən yüksək məqama yüksəldiyini nümayiş etdirir. Fevralın 4-də Əbu-Dabidə təqdim edilən "Zayed İnsan Qardaşlığı Mükafatı" Azərbaycan xalqının qələbəsinin, müdrikliyinin və sülhsevərliyinin, İlham Əliyevin liderlik qüdrətinin beynəlxalq səviyyədə təsdiqidir.

Bu mötəbər mükafat Azərbaycanın və şəxsən cənab İlham Əliyevin sülhə sadiqliyinin təcəssümüdür. Bu gün Azərbaycan gücünü və humanist irsini bir daha nümayiş etdirərək, qlobal miqyasda öz nüfuzunu daha da möhkəmləndirir və regionda sabitliyin qarantı kimi tanınır. 2026-cı il 4 fevral tarixi Azərbaycanın və Prezident İlham Əliyevin sülh, sabitlik və humanizm uğrunda verdiyi mübarizənin qələbə günü kimi tarixə yazılacaq.

Əbu-Dabidə keçirilən təntənəli tədbir bir həqiqəti də təsdiqlədi ki, sülhə, ədalətə, insanların xoşbəxtlik və rifahına xidmət edən istənilən fəaliyyət gec-tez öz hədəflərinə çatır və layiqli mükafatını alır. Prezident İlham Əliyev üçün ən qiymətli və əvəzolunmaz mükafatsa, heç şübhəsiz ki, Azərbaycan xalqının verdiyi mükafatdır. Onun tarixi missiyasının xalqımızın milli yaddaş salnaməsində formalaşdırdığı dəyərdir. Cənab İlham Əliyev Xilaskar, Qalib Sərkərdə və Müzəffər Ali Baş Komandan olaraq, xalqımızın və dövlətimizin qarşısında duran ən mürəkkəb və vacib məsələləri həll etmiş, bu gün isə dövlətimizi inamla gələcəyə aparan, ən yüksək zirvələrə yönləndirən böyük Liderdir.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Şəxsi və ailə sirlərini yayanlar məsuliyyət daşıyırlar



**Ali Məhkəmə ötən il dekabrın 24-də "Şəxsiyyət hüquqlarının müdafiəsi haqqında" yeni Plenum qərarı qəbul edib və məhkəmə təcrübəsinə bir sıra yeniliklər gətirib.**

Ali Məhkəmədən AZƏRTAC-a verilən məlumata görə, əvvəllər bir şəxs digər şəxsə qarşı yalan məlumatlar yaydığı halda şərəf və ləyaqətin müdafiəsi institutundan istifadə etməklə tələblər irəli sürürdü, məlumatın həqiqi olduğu ortaya çıxdıqda isə iddialar təmin olunmurdu. Halbuki şəxsin barəsində doğru məlumatların öz razılığı olmadan yayılması da qanun pozuntusudur.

Həmin hal konstitusion səviyyədə qorunan şəxsi toxunulmazlıq hüququna müdaxilədir və bu hüququ pozulan hər kəs onun haqqında toplanmış məlumatlarla tanış ola, həqiqətə uyğun olmayan, tam olmayan, habelə qanunun tələbləri pozulmaqla əldə edilmiş məlumatların düzəldilməsini, belə məlumatların çıxarılmasını (ləğv edilməsi), ona dəymiş mənəvi zərərin ödənilməsini və s. tələb edə bilər.

Ali Məhkəmə yeni qərarı ilə bu hüququ şərəf və ləyaqətin müdafiəsi hüququndan fərqləndirib və xüsusi olaraq qeyd edib ki, şəxsi toxunulmazlıq hüququ konstitusion mənada şəxsi və ailə həyatının məxfiliyinin qorunmasını nəzərdə tutmaqla, hər bir şəxsin şəxsi və ailə həyatına hörmət edilməsinə, onun cəmiyyətdə özünü rahat və təhlükəsiz hiss etməsinə xidmət edir.

Ali Məhkəmə qərarında şəxsi toxunulmazlıq hüququnun mühüm institutu olan, lakin bu vaxtadək məhkəmə mübahisələrinin içində digərlərinə nisbətən müdafiədən kənarda qalan şəxsi və ailə həyatına hörmət hüququnu geniş şərh edərək ön plana çıxarmışdır.

*Şəxsi və ailə həyatına hörmət hüququ nədir?*

Şəxsi və ailə həyatına hörmət hüququ - şəxsi və ailə həyatının sirrini saxlamaq, şəxsi və ailə həyatına hüquqazidd müdaxilədən, yəni öz razılığı olmadan şəxsi həyatı haqqında məlumatın toplanılması, saxlanılması, istifadəsi və yayılmasından mühafizə olunmaq hüququdur. Şəxs öldükdə belə bu hüquq vərəsələri tərəfindən müdafiə oluna bilər.

Qanun təkcə şəxsi və ailə həyatına dair məlumatları qorumaqla kifayətlənmir, şəxsin mənzili, avtomobili, xidməti otağı, ləvazimatları, habelə şəxsi xüsusiyyətə malik digər əşyaları, ona məxsus heyvanları, bitkiləri və digər obyektləri də qoruyur.

Şəxs barəsində tibbi məlumatlar, maliyyə və əmlak vəziyyəti ilə bağlı məlumatlar, şəxsi yazışmaları, keçmişi ilə bağlı və digər şəxsi sirr təşkil edən məlumatlar, ünvanı, ailə vəziyyəti, boyu, yaşı, cinsi, ər-arvad arasındakı şəxsi münasibətləri (emosional, cinsi və s.), ailədaxili davranışlar, boşanma səbəbləri, uşaqların mənşəyi və sağlamlıq vəziyyətləri, övladlığa götürmə ilə bağlı məlumatlar, həmçinin ailə üçün məxfi və həssas xarakter daşıyan digər məlumatların şəxsin öz razılığı və ya heç bir qanuni əsas olmadan toplanması, saxlanması, istifadəsi və yayılması, pis niyyətlə şəxsin özünə bildirilməsi qadağandır və mülki məsuliyyətə səbəb olur.

Məqsədli şəkildə və aktiv hərəkətlərlə, heç bir qanuni əsas olmadan, özbaşına kiminsə barəsində məlumat toplamaq qadağandır. Məsələn, bir şəxs öz maraqları naminə digər şəxs barədə məlumat əldə etmək üçün məxfi məlumatların saxlandığı informasiya bazasına daxil olaraq həmin şəxsə aid fərdi məlumatları toplayırsa, bu hərəkət qanunsuz sayılır və mülki məsuliyyətə səbəb olur. Lakin məlumatlar şəxsə özü istəmədən, təsadüfən məlum olarsa, qanunsuz hesab olunmayacaq, bu şərtlə ki, onu aid olduğu şəxsin əleyhinə istifadə etməsin, yaymasın. Məsələn, eyni modeldən olan mobil telefonların dəyişik düşməsi nəticəsində telefonu səhvən əldə edən şəxs onu açarkən təsadüfən şəxsi sirr təşkil edən fotoşəkil və ya yazışmanı görür, bu şəxs gördüklərini istifadə etməsə və ya yaymasa heç bir məsuliyyət daşımayacaq.

Şəxsi və ailə sirri məlumatları aid olduğu şəxslərin razılığı olmadan yaymaq qadağandır. Xüsusilə televiziya və ya radio proqramlarında, sosial şəbəkələrdə və s. kütləvi üsullarla bildirilməsi yayılmanın kütləviliyi baxımından daha böyük həcmdə mənəvi zərərin vurulması ilə nəticələnə bilər. Yayılma audio-videoyazı yolu ilə edilmişsə, onu yayan şəxslə yanaşı media subyekti birmənalı olaraq şəxsi və ailə həyatına hörmət hüququnun pozulması ilə bağlı məsuliyyət daşıyacaq.

Proqramın məzmunu şəxsiyyət hüquqlarına hüquqazidd müdaxilə riski daşıdığı halda, mütəmadi canlı şəkildə efirə gedən proqramlar və silsilə şəklində davam edən müxtəlif buraxılışlarda media subyektləri canlı efirə çıxacaq şəxsləri səsləndirdikləri məlumatlara və davranışlara görə insanların şəxsi və ailə həyatına hörmət hüququnun pozulması baxımından məsuliyyət daşıyacaqları barədə əvvəlcədən anlaşılan formada xəbərdar etməlidirlər, əks halda baş vermiş pozuntulara görə media orqanı özü də məsuliyyət daşıyacaq.

Şəxs əldə etdiyi məlumatı təkbətək şəkildə ona aid olan şəxsə ələ salaraq, lağ edərək, alçaldaraq, nüfuzdan salaraq və s. bu kimi aşağılayıcı məqsədlərlə, pis niyyətlərlə bildirərsə, şəxsi toxunulmazlıq hüququnun pozulması kimi qəbul edilməklə mənəvi zərər əsası yaradacaq. Məsələn, sağlamlıq vəziyyəti, fiziki çatışmazlığı, nikahdan kənar uşağının olması, nikahdankənar münasibətləri barədə həqiqi məlumatların (yazışmaların, foto, video və qanunla qorunan digər fərdi məlumatlar) özünə pis niyyətlə bildirilməsi.

Bundan başqa, Ali Məhkəmə yeni qərarla şəxsin mənzilinə, işçiyə ayrılmış xidməti otağa, rəflərinə, iş masasına, kompüterinə, şəxsin çantasına, cibinə onun razılığı, habelə müvafiq qanuni əsas olmadan daxil olmanı da şəxsi toxunulmazlıq hüququnun pozulması kimi qiymətləndirib. Plenum qərarından sonra artıq şəxsin heyvanlarına, bitkilərinə zərər vurması da mənəvi zərər əsası kimi qəbul edilə biləcək.

Bu hüquqların pozulması cinayət məsuliyyətinə səbəb olub-olmamasından asılı olmayaraq, mülki məsuliyyətə səbəb olacaq.

Şəxsi və ailə sirri təşkil edən məlumatları yaymış şəxslərlə bərabər bu məlumatın saxlanılmasına məsul olan şəxslər, qurumlar, idarə və müəssisələr, iş yerlərinin kadrlar sistemində mövcud olan işçilərə (digər əsasla xidmət göstərən şəxslərə) dair məlumatları və insan resurslarını idarə edən məsul şəxslər, işəgötürənlər, klinikalar, mobil operator şəbəkələri, banklar və vətəndaşlara xidmət göstərən digər müəssisələr, dövlət orqanları, sosial şəbəkə platformaları, hüquqi və fiziki şəxslər də məlumatların qanunazidd şəkildə kənar şəxslərə əlçatanlığını təmin edən şəxs kimi məsuliyyət daşıyacaqlar.

Çünki onlar göstərdikləri xidmətlə bağlı özlərində (informasiya sistemlərində) olan fərdi məlumatları qorumağa borcludurlar, həmin məlumatların yayılmamasına, habelə şəxsin razılığı və ya qanuni əsaslar olmadan onun elektron hökumət portalında mövcud olan baza məlumatlarına daxil olunmamasına məsuldurlar, göstərilənlərin əksi şəxsi toxunulmazlıq hüququna müdaxilə hesab edilir.

*Bəs hansı hallarda şəxsi və ailə sirri təşkil edən məlumatların yayılması qanunidir?*

Ali məhkəmə bu hallara da aydınlıq gətirib. Belə məlumatların yayılmasına şəxsin öz razılığı varsa, mülki məsuliyyət yaranmır. Razılıq açıq şəkildə ifadə edilməli, qanuna və ya əxlaqa zidd olmamalıdır. Şəxs öz razılığını həm yazılı, həm də şifahi formada verə, yaxud davranışı ilə və ya susaraq göstərə bilər. Məsələn, şəxs sosial şəbəkədə onun barəsində razılığı alınmadan edilmiş paylaşımı bəyənib və altından pozitiv rəy yazıbsa, razılıq vermiş hesab olunur.

Bundan başqa, məlumatlar ictimaiyyətə açıq olubsa və ya şəxsin özü onu ictimaiyyətə açıqlayıbsa, buna görə heç kəs məsuliyyət daşımır. Məsələn, bir şəxs internet resursunda əlaqə məlumatlarını, həyatını, xəstəliyini, gördüyü işləri, iş ortaqlarını və sairi paylaşırsa, bu şəxsin özünün həmin məlumatları ictimaiyyətə açıqlaması hesab edilir. Bu məlumatların sonradan başqa şəxslər tərəfindən olduğu kimi yayılması mülki məsuliyyət yaratmır.

Dövlət orqanlarının və digər şəxslərin şəxsi və ailə sirri təşkil edən məlumatları yayması qanunla müəyyən edilmiş hallarda mümkündür. Məsələn, axtarışda olan şəxsin tapılması məqsədilə hüquq-mühafizə orqanlarının şəxsin fotoşəkli, geyimi, boyu, yaşı cinsi və sair məlumatı paylaşması pozuntu hesab edilmir.

Yayılmış məlumatlar cəmiyyətin maraq dairəsindədirsə, bu da mülki hüquq pozuntusu hesab edilmir. Publik şəxslərin davranışları, qərarları və fəaliyyəti cəmiyyətə birbaşa və ya dolayı şəkildə təsir etdiyindən onların şəxsi həyatı da ictimai nəzarətə açıq olmalıdır.

Bu zaman yayılma ictimai marağı aşmamalıdır. Məsələn, jurnalist yerli özünüidarə orqanının rəhbərinin rəsmi gəlirləri ilə uyğun gəlməyən lüks mənzil və avtomobillərə sahib olması, habelə uşağının anadangəlmə qüsurlu olması barədə ictimaiyyətə məlumat verir. Şəxsin əmlak vəziyyəti ilə bağlı göstərilən hallar şəxsi məlumat olsa da, cəmiyyətin legitim maraq dairəsinə daxildir, bu məlumatın yayılması pozuntu hesab edilə bilməz. Lakin, uşağın fiziki qüsurlu olması ilə bağlı məlumatlar şəxsi və ailə həyatına hüquqazidd müdaxilə hesab olunacaq, çünki həmin şəxsin publik vəzifələrinin icrası baxımından hər hansı ictimai maraq kəsb etmir.

# Bələdiyyələrin 2025-ci ildəki fəaliyyəti müzakirə olunub

**Fevralın 9-da Milli Məclisin Regional məsələlər komitəsinin növbəti iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komitənin sədri Siyavuş Novruzov iclasda bir məsələnin - Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın illik məruzəsinin müzakirə olunacağını diqqətə çatdırıb.**

Komitə sədri çıxışında ötən il ərzində Azərbaycanın əldə etdiyi nailiyyətlərdən söz açıb. Qeyd olunub ki, Ümummilli Lider Heydər Əliyevin müəyyən etdiyi siyasi və ideoloji əsaslar üzərində qurulan müasir Azərbaycan dövləti bu gün Prezident İlham Əliyevin uzaqgörən, praqmatik və qətiyyətli rəhbərliyi altında tarixi inkişafının keyfiyyətcə yeni mərhələsini yaşayır. Vurğulanıb ki, Azərbaycan 2025-ci ildə regional liderliyini möhkəmləndirmiş, hərbi və diplomatik gücünü artırmış, müstəqil, suveren və qalib dövlət kimi mövqeyini daha da gücləndirmişdir.

Komitə sədri bildirib ki, ötən il yerli özünüidarəetmə sahəsində islahatların yeni mərhələsinə başlanılıb və bələdiyyələrin birləşdirilməsi idarəetmənin səmərəliliyinin artırılmasına, onların institusional potensialının güclənməsinə və fəaliyyət imkanlarının genişlənməsinə xidmət edib. O, Ədliyyə Nazirliyinin bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin həyata keçirilməsi ilə bağlı 2025-ci il üzrə məruzəsinin dolğun və ətraflı hazırlandığını deyib. Bildirib ki, məruzədə həm bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət, həm də onlara metodoloji yardım üzrə il ərzində görülən məqsədyönlü işlər, digər əhəmiyyətli tədbirlər geniş şəkildə əks olunub.

Sonra ədliyyə nazirinin müavini Toğrul Hüseynov Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın illik məruzəsini təqdim edib.

Nazir müavini qeyd edib ki, il ərzində ədliyyə orqanlarının fəaliyyəti çərçivəsində müxtəlif maarifləndirmə tədbirləri həyata keçirilmiş, institusional və rəqəmsal islahatlar, o cümlədən süni intellekt həlləri tətbiq edilərək xidmətlərin keyfiyyəti və idarəetmə səmərəliliyi artırılmışdır. Bələdiyyələrin struktur islahatları nəticəsində onların sayı ölkə üzrə 685 vahid təşkil edib. Ərazi bütövlüyünün və suverenliyin bərpasından sonra ötən ilin yanvarında bələdiyyə seçkiləri keçirilib, nəticədə bələdiyyələrin yeni tərkibi formalaşıb. Əvvəlki seçkilərdə olduğu kimi, yeni seçilən bələdiyyə üzvlərinin böyük hissəsini qadınlar və gənclər təşkil edib.

Sonra nazir müavini bələdiyyələr tərəfindən qanunçuluğa riayət edilməsinin təmin olunması, qanunvericiliyin pozulması hallarının, onları yaradan səbəb və şəraitin aradan qaldırılması istiqamətində nazirliyin həyata keçirdiyi fəaliyyəti diqqətə çatdırıb.



Bildirilib ki, 2025-ci ildə hüquq ekspertizasından keçən 81711 (o cümlədən Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyində - 1935) bələdiyyə aktının 97,2 faizinin qanunvericiliyə uyğun olduğu müəyyən edilib. Cinayət əlamətləri aşkar olunan hallar üzrə materiallar istintaq orqanlarına göndərilib və inzibati xətalara görə vəzifəli şəxslər məsuliyyətə cəlb edilib.

Bundan başqa, hesabat ilində bələdiyyələrin maliyyə imkanlarının artırılması, yerli vergi və ödənişlərin düzgün hesablanması və yığılması, əhalinin məşğulluğunda bələdiyyələrin iştirakının genişləndirilməsi istiqamətində tədbirlər davam etdirilib. Eyni zamanda korrupsiyaya qarşı mübarizə və vətəndaşların məlumatlılığının artırılması üçün maarifləndirmə tədbirləri həyata keçirilib.

Nazir müavini bələdiyyələrin fəaliyyəti ilə bağlı metodoloji iş və maarifləndirmə, maliyyə idarəçiliyində şəffaflığı artırmaq, elektron xidmətlərin tətbiqi, elektron informasiya sistemlərinin qurulması və digər istiqamətlərdə görülən işləri diqqətə çatdırıb.

Sonra təqdim olunan məruzə ətrafında aparılan müzakirələrdə komitə üzvləri Tahir Rzayev, Aydın Mirzəzadə, Kamran Bayramov, Elşən Musayev, Parlament Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin müdiri Hacı Mirhəşim Seyid, Azərbaycan Şəhər Bələdiyyələrinin Milli Assosiasiyasının sədri Təmraz Tağıyev, Azərbaycan Qəsəbə Bələdiyyələrinin Milli Assosiasiyasının sədri Hümbət Hüseynov və "Bələdiyyələrin Fəaliyyətinin Təbliği" İctimai Birliyinin sədri Vüqar Cəfərov çıxış edərək, məruzənin hərtərəfli hazırlandığını qeyd ediblər. Onlar bələdiyyələrin fəaliyyətinin səmərəliliyinin, onların maliyyə mənbələrinin dayanıqlığının artırılması və yerli özünüidarəetmənin digər aktual məsələləri ilə bağlı bir sıra qeyd və təkliflərini bildiriblər.

Müzakirələrin sonunda Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın illik məruzəsi müsbət qiymətləndirilib və Milli Məclisin plenar iclasında baxılmaq üçün tövsiyə olunub.

İclasda komitə sədrinin müavini Nurlan Həsənov, deputatlar Məzahir Əfəndiyev, Arzuxan Əli-zadə, Vasif Qafarov, Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Baş İdarəsinin rəisi Elmin Həsənov və digər rəsmi şəxslər iştirak ediblər.

***"Azərbaycan"***

# Ali Məclisin növbəti iclası keçirilib, muxtar respublikanın yeni Baş naziri təyin edilib

**Fevralın 9-da Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin birinci müavini Bəxtiyar Məmmədovun sədrliyi ilə yeddinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2026-cı il yaz sessiyasının növbəti iclası keçirilib.**





Ali Məclisin Mətbuat xidmətindən AZƏRTAC-ın bölgə müxbirinə bildirilib ki, iclasda Bəxtiyar Məmmədov Naxçıvan Muxtar Respublikasının yaranmasının 102-ci ildönümü münasibətilə muxtar respublika əhalisini və ictimaiyyətini təbrik edib, muxtar respublikanın inkişafı üçün fəaliyyət göstərən hər kəsə uğurlar arzulayıb.

Sonra Ali Məclis Sədrinin birinci müavini qeyd edib ki, bugünkü iclasın gündəliyində 2 məsələ nəzərdə tutulsa da, əlavə olaraq Naxçıvan Muxtar Respublikasının Baş nazirinin təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin təqdimatına baxılması məsələsi də gündəliyə daxil edilib.

Gündəlik təsdiq olunduqdan sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin birinci müavini Bəxtiyar Məmmədov bildirib ki, Naxçıvan Muxtar Respublikası Konstitusiyasına əsasən, Ali Məclisin Sədri Naxçıvan Muxtar Respublikasının Baş naziri vəzifəsinə təyin edilməsi üçün Azərbaycan Respublikasının Prezidenti tərəfindən təqdim olunmuş şəxsin namizədliyini Ali Məclisə təqdim edir.

Təqdimat oxunub, namizəd haqqında məlumat verildikdən sonra "C.H.Musayevin Naxçıvan Muxtar Respublikasının Baş naziri təyin edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarı səsə qoyularaq qəbul edilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yüksək etimad göstərərək onu Naxçıvan Muxtar Respublikasının Baş naziri vəzifəsinə təqdim etdiyinə görə minnətdarlığını bildirən Cabbar Musayev çıxış edərək deyib ki, bu gün Azərbaycan tarixi Zəfərin yaratdığı yeni reallıqlar fonunda sürətlə inkişaf edir. Dövlət başçısının Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu siyasi xətti müasir dövrün çağırışlarına uyğun şəkildə uğurla davam etdirməsi Azərbaycanın dayanıqlı inkişafını təmin edən əsas amillərdəndir.

Cabbar Musayev qarşıda duran vəzifələrin uğurla icra edilməsi, dövlət başçısının müəyyən etdiyi strateji hədəflərin layiqincə həyata keçirilməsi üçün bundan sonra da səylə çalışacağını bildirib.

Bəxtiyar Məmmədov Ali Məclis adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yüksək etimadı ilə yeni vəzifəyə təyin olunması münasibətilə Cabbar Musayevi təbrik edib, gələcək fəaliyyətində uğurlar arzulayıb.

Hüquq siyasəti komitəsinin sədri Əjdər Əliyev iclasda gündəlikdə duran ikinci məsələ - "Normativ hüquqi aktlar haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin birinci oxunuşda müzakirəsi ilə bağlı məlumat verib, qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Sonuncu məsələnin - "Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının etik davranış qaydaları haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin birinci oxunuşda müzakirəsi ilə əlaqədar Hüquq siyasəti komitəsinin sədri Əjdər Əliyev məlumat verib, komitənin rəyini diqqətə çatdırdıqdan sonra qanun səsə qoyularaq qəbul edilib.

Bununla da Ali Məclisin növbəti iclası başa çatıb.

# Hüququn Zəfəri, tarixi ədalətin bərpası

**Tarix göstərir ki, ədalət geciksə də, heç vaxt unudulmur. Müharibələrin, işğalların və qanlı terror aktlarının arxasında dayanan hərbi canilər zaman-zaman özlərini məğlubedilməz və cəzasız qalacaqlarını düşünüblər. Tarix müxtəlif mərhələlərdə sübut edib ki, insanlığa qarşı törədilən cinayətlər nə zamanın axarında itir, nə də xalqın yaddaşından silinir. Nürnberq məhkəmələrindən bu günə qədər qurulan beynəlxalq və milli məhkəmə prosesləri bir həqiqəti təsdiqləyir: hərbi cinayət törətmiş şəxslər gec-tez ədalət qarşısında cavab verməli olurlar.**

Erməni terrorçularına qarşı aparılan və artıq başa çatmış məhkəmələr də məhz tarixi ədalətin bərpasına xidmət edir. Bu proseslər təkcə konkret cinayətkarların yalnız cəzalandırılması deyil, həm də insanlığa qarşı törədilmiş vəhşiliklərin hüquqi-siyasi qiymətini alması, qurbanların haqq səsini ədalət tribunasından dünyaya çatdırmaq üçün olduqca vacib mərhələdir.

Beynəlxalq hüququn fundamental sənədləri - 1949-cu il Cenevrə Konvensiyası, əlavə edilmiş protokollar, eləcə də Beynəlxalq Cinayət Məhkəməsinin Roma Statusu mülki əhaliyə qarşı zorakılıq, girov götürmə, işgəncə, etnik təmizləmə və terror aktlarını ağır hərbi cinayətlər və insanlığa qarşı cinayətlər kimi təsnif edir. XX və XXI əsrlərdə Yuqoslaviya, Ruanda, Syerra-Leone və digər beynəlxalq tribunal təcrübələri göstərdi ki, milli mənsubiyyətindən asılı olmayaraq bu cür cinayətlər törədən şəxslər fərdi qaydada məsuliyyət daşıyır və "əmr yerinə yetirmişəm" kimi bəhanələr hüquqi əsas sayılmır. Erməni terrorçularının məhkəməsi də məhz bu universal hüquqi yanaşmaya söykənərək aparılıb. Mülki şəxslərin qəsdən hədəfə alınması, terror üsullarından sistemli istifadə edilməsi və hərbi əməliyyatlar zamanı beynəlxalq humanitar hüququn kobud şəkildə pozulması konkret sübutlar əsasında qiymətləndirilib. Bu məhkəmələr beynəlxalq presedentlərlə müqayisədə eyni hüquqi məntiqi təsdiqləyir - insanlığa qarşı cinayətlər nə zamana, nə də coğrafiyaya bağlıdır və ədalət bu cür əməlləri mütləq şəkildə hüquqi müstəvidə cavablandırır.

Bu məhkəmələrin əsas gücü təkcə hökm oxunan zalda deyil, ortaya qoyulan həqiqətlərin miqyası ilə ölçülür. İllər boyu təhrif edilən faktlar, səsləndirilməsi mümkün olmayan şahid ifadələri və gizlədilən cinayət izləri məhkəmə prosesi zamanı hüquqi sübut statusu alır. Bu məhkəmədə cinayətkarın adı, rütbəsi və ya arxasında dayanan ideoloji çətir heç bir rol oynamadı - həlledici olan törədilmiş əməlin mahiyyəti və onun insan həyatına vurduğu sağalmaz zərbə idi. Erməni terrorçularının məhkəməsi göstərdi ki, müasir dövrdə ədalət yalnız qisas anlayışı üzərində deyil, hüquqi məsuliyyət, sübut və beynəlxalq norma əsaslı qərarlarla formalaşır. Bu proses bir tərəfdən qurbanların yaddaşına hörmətin ifadəsi, digər tərəfdən isə gələcək üçün verilən açıq mesajdır: terror və insanlığa qarşı cinayətlər nə siyasi manipulyasiya ilə ört-basdır edilə, nə də zaman keçdikcə unudula bilər.

Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini tam bərpa etməklə təkcə hərbi-siyasi qələbə əldə etmədi, eyni zamanda xalqımıza qarşı insanlığa və beynəlxalq humanitar hüquqa zidd cinayətlər törətməkdə ittiham olunan şəxsləri ədalət mühakiməsi qarşısına çıxarmaqla hüquqi ədalətin bərpasına nail oldu. Müasir tarixdə nadir nümunələrdən biri kimi Azərbaycan heç bir xarici hərbi müdaxilə və ya himayə olmadan öz gücünə torpaqlarını azad etdi, paralel olaraq müharibə cinayətləri törətmiş şəxslərin məsuliyyətə cəlb olunmasını təmin etdi. Təbii ki, bu proses özü heç də asan başa gəlmədi: mühakimə olunanların cinayət ortaqları və xarici havadarları müxtəlif siyasi, informasiya və diplomatik təzyiq mexanizmlərindən istifadə edərək ölkəmizə təsir göstərməyə çalışdılar. Lakin bütün bu cəhdlər ölkəmizin hüququn aliliyinə söykənən mövqeyini sarsıda bilmədi.

Azərbaycan bu mərhələdə gücün hüquqa tabe olduğu, ədalətin isə təzyiqlərlə dəyişdirilmədiyi bir dövlət modelini nümayiş etdirərək göstərdi ki, suverenlik yalnız torpağa sahib olmaq deyil, eyni zamanda tarixi ədaləti təmin etmək iradəsidir. Aparılan məhkəmələr Azərbaycan dövlətçiliyinin mahiyyətini müəyyən edən mühüm bir xətti aydın şəkildə ortaya qoydu: güc ədalətdən üstün tutulmur, qələbə hüquqla tamamlanır. Dövlət öz tarixi məsuliyyətini yalnız silahlı mübarizə ilə deyil, hüquqi mühakimə yolu ilə də yerinə yetirdiyini nümayiş etdirdi. Bu proses gələcək nəsillər üçün aydın hüquqi presedent formalaşdırdı - müharibə şəraitində belə insanlıq əleyhinə cinayətlər cəzasız qalmır və dövlət öz vətəndaşlarının haqqını məhkəmə zalında qorumaq iradəsinə malikdir. Eyni zamanda bu məhkəmələr gənc nəsillərə dövlətin yalnız əraziyə deyil, dəyərə, hüquqa və tarixi həqiqətə sahib çıxdığını göstərən canlı dərs oldu. Azərbaycan bu yanaşma ilə dövlətçilik ənənəsini gücləndirdi, ədaləti müvəqqəti siyasi maraqlardan üstün tutan bir hüquqi yaddaş yaratdı və gələcək üçün dəyişməz mesaj verdi: cinayət törədənlər unudulmur, hüquq isə zaman aşımına məruz qalmır.

Məhkəmələr eyni zamanda beynəlxalq ictimai rəyə ünvanlanan açıq və prinsipial mesajdır: ədalət selektiv deyil və siyasi konyunkturaya tabe olmur. Dünya tarixində bunun bariz nümunələrindən biri İsrail təcrübəsidir. Vaxtilə yəhudi xalqına qarşı soyqırımı və insanlığa qarşı cinayətlərdə iştirak etmiş faşist canilər müharibə bitdikdən illər, hətta onilliklər sonra müxtəlif ölkələrdə aşkar edilərək mühakimə olundular və layiqli cəzalarını aldılar. Bu fakt sübut etdi ki, zaman cinayəti unutdurmur, məsuliyyəti aradan qaldırmır. Azərbaycan da eyni hüquqi və mənəvi xətti əsas götürərək göstərdi ki, xalqımıza qarşı amansız cinayətlər törədənlər gec-tez ədalət qarşısında dayanacaqlarını dərk etməlidirlər. Çünki müasir dünyada cinayətkar üçün ən ağır hökm yalnız cəza deyil, qaçılmazlıq hissidir - harada gizlənməsindən, kimlərin himayəsinə sığınmasından asılı olmayaraq, bir gün onun üçün də məhkəmə qurulacağı gerçəyinin olacağını düşünməsidir.

Bu proses yalnız hüquqi sənədlərdə qalan bir fakt deyil - bu, həm də ədalətin sonda öz yerini tapdığına inamın gücləndiyi bir məqamdır. Azərbaycan məhkəmələri təkcə ümumi prinsipləri təsdiqləməklə kifayətlənmədi, konkret şəxslərin ədalət mühakiməsi qarşısında dayanmalarını təmin etdi. Məhkəmənin hökmü ilə işğalçı rejimin sabiq rəhbəri Arayik Harutyunyan, keçmiş xarici işlər naziri Davit Babayan, qondarma rejimin parlament sədri Davit İşxanyan, "müdafiə ordusu"nun komandanının müavini Davit Manukyan və "müdafiə ordusu"nun komandiri Levon Mnatsakanyan kimi şəxslər ömürlük azadlıqdan məhrum edildilər. Digər separatçı "liderlər", o cümlədən Arkadi Qukasyan, Bako Sahakyan isə 20 il müddətinə azadlıqdan məhrumetmə cəzası aldılar. Bu adlar tarixə siyasətçi kimi deyil, törətdikləri əməllərə görə hüquq qarşısında cavab verən şəxslər kimi düşdülər.

Aparılan məhkəmə prosesi, hüquq sistemimizin yalnız qanunları tətbiq etmək gücünü nümayiş etdirmir, eyni zamanda gələcək nəsillərə bir mesajdır: cinayətkarlar heç vaxt qanunsuzluğun kölgəsində gizlənə bilməzlər və insanlığa qarşı törədilən cinayətlər zamanla yox, ədalətlə ölçülür. Ədalət bərpa olunub və bu, yalnız bugünkü qələbənin deyil, gələcək üçün dönməz hüquqi dəyərin təminatıdır.

Məhkəmə bir daha sübut etdi ki, ədalət yalnız hökm oxunan günün deyil, tarixin qarşısında verilən qərardır. Azərbaycan bu proseslə həm xalqımıza, həm də beynəlxalq ictimaiyyətə açıq mesaj verdi ki, qanunun dili emosiyadan uzaqdır. Verdiyi qərarlar xalqların yaddaşına yazılır. Bu gün oxunan hökmlər təkcə keçmişin hesabı deyil, gələcəyin xəbərdarlığıdır! Zorakılıq üzərində qurulan ideologiyalar gec-tez hüququn sərt divarına çırpılaraq ədalətin divanı qarşısında durmağa məhkumdur. Azərbaycan bu tarixi mərhələdə ədalətin yanında dayanaraq bir daha göstərdi ki, suveren dövlət olmaq yalnız torpağa sahib çıxmaq deyil, həqiqəti qorumaq və haqqı hüquqla bərpa etmək iradəsidir.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

## Ruben Vardanyanın barəsində cinayət işi üzrə məhkəmə prosesi fevralın 10-da davam etdiriləcək

**Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı maddələri ilə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə məhkəmə iclası fevralın 10-da davam etdiriləcək.**

Bu barədə AZƏRTAC-a Bakı Hərbi Məhkəməsindən məlumat verilib.

Qeyd edək ki, R.Vardanyanın 2025-ci il dekabrın 30-na təyin olunmuş məhkəmə prosesi qeyri-müəyyən müddətədək təxirə salınmışdı. Buna səbəb həmin cinayət işi üzrə hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Anar Rzayevdən və Camal Ramazanovdan ibarət məhkəmə heyətinin (ehtiyat hakim Günel Səmədova) digər iş (15 nəfər Ermənistan vətəndaşının barəsində cinayət işi) üzrə məhkəmə iclasında müşavirəyə getməsi idi.

Xatırladaq ki, Ruben Vardanyan Azərbaycan Respublikası CM-in 100.1, 100.2 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 107 (əhalini deportasiya etmə və məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrum etmə), 113 (işgəncə), 114.1 (muzdluluq), 115.2 (müharibə qanunlarını və adətlərini pozma), 116.0.1, 116.0.2, 116.0.10, 116.0.11, 116.0.16, 116.0.18 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 120.2.1, 120.2.3, 120.2.4, 120.2.7, 120.2.11, 120.2.12 (qəsdən adam öldürmə), 29,120.2.1, 29,120.2.3, 29,120.2.4, 29,120.2.7, 29,120.2.11, 29,120.2.12 (qəsdən adam öldürməyə cəhd), 192.3.1 (qanunsuz sahibkarlıq), 214.2.1, 214.2.3, 214.2.4 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218.1, 218.2 (cinayətkar birlik yaratma), 228.3 (qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1.2, 270-1.4 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 278.1 (hakimiyyəti zorla ələ keçirmə və ya onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279.1, 279.2, 279.3 (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və ya qrupları yaratma) və 318.2-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddələri ilə ittiham olunur.

# Naxçıvan Muxtar Respublikasının Baş naziri kollektivə təqdim edilib



**Fevralın 9-da Azərbaycan Respublikası Prezidentinin təqdimatı əsasında Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin qərarı ilə Cabbar Musayev Naxçıvan Muxtar Respublikasının Baş naziri təyin olunub.**

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, təqdimat mərasimindən əvvəl Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov və Baş nazir Cabbar Musayev Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzi meydanında ucaldılan abidəsini ziyarət edərək, önünə gül dəstələri düzüb, Ulu Öndərin xatirəsini ehtiramla anıblar.

Sonra Ceyhun Cəlilov Prezidentin təqdimatına uyğun olaraq, Cabbar Musayevi Nazirlər Kabinetinin kollektivinə təqdim edib.

Baş nazir Cabbar Musayev çıxışında göstərilən yüksək etimada görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə minnətdarlığını vurğulayıb. Baş nazir dövlət başçısının müəyyən etdiyi strateji xəttə uyğun verilmiş tapşırıq və göstərişlərin vaxtında dürüstlük, şəffaflıq və peşəkarlıq prinsipləri əsasında yerinə yetirəcəyini bildirib.

Səlahiyyətli nümayəndə Ceyhun Cəlilov çıxış edərək Prezident İlham Əliyevin tapşırıqlarını diqqətə çatdırıb. O bildirib ki, Nazirlər Kabinetinin əsas vəzifəsi sosial-iqtisadi proqramların vaxtında və keyfiyyətlə icra edilməsidir. Atılan bütün addımların mərkəzində vətəndaş məmnunluğu və sosial ədalət prinsipləri dayanmalıdır. Məşğulluğun artırılması, sahibkarlığın inkişafı, aqrar sahənin gücləndirilməsi, turizm potensialının genişləndirilməsi, ekoloji tarazlığın qorunması, yol infrastrukturunun möhkəmləndirilməsi və s. sahələrin yüksələn xətlə inkişafı davam etdirilməlidir.

Ceyhun Cəlilov diqqətə çatdırıb ki, Prezident İlham Əliyevin 2023-cü il 5 iyun tarixli sərəncamı ilə "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" təsdiq edilib. Səlahiyyətli nümayəndə muxtar respublikanın müasir inkişaf yol xəritəsi sayılan dövlət proqramının 2026-2027-ci illər üzrə icrasının intensiv şəkildə davam etdirilməsinin vacibliyini vurğulayıb.

Sonda səlahiyyətli nümayəndə Cabbar Musayevi təbrik edərək, Prezidentin muxtar respublikanın inkişafı ilə bağlı tapşırıqlarının vaxtında və layiqincə yerinə yetiriləcəyinə əminliyini ifadə edib.

# Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının yaradılmasının 33 illiyi qeyd olunub





**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) yaradılmasının 33 illiyinə həsr olunmuş tədbir keçirilib.**

Tədbirdə AHİK-in rəhbərliyi və kollektivi, üzv və tabe təşkilatların nümayəndələri, ittifaq üzvləri iştirak ediblər.

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb, Ulu Öndər Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Konfederasiya sədri Sahib Məmmədov AHİK-in tarixi və fəaliyyəti barədə məlumat verib, keçdiyi inkişaf yoluna nəzər salıb. 1994-cü ildə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin təşəbbüsü ilə qəbul edilmiş "Həmkarlar ittifaqları haqqında" qanunun konfederasiyanın formalaşmasında və həmkarlar ittifaqlarının inkişafında, vətəndaş cəmiyyətinin möhkəmlənməsində mühüm rolu qeyd olunub.

Vurğulanıb ki, möhtərəm cənab Prezident İlham Əliyevin həmkarlar ittifaqlarına göstərdiyi davamlı diqqət və dəstək əmək hüquqlarının qorunmasına, sosial dialoqun gücləndirilməsinə və layiqli əmək şəraitinin təmin olunmasına mühüm töhfə verir. Bunun nəticəsidir ki, təşkilat əmək münasibətlərinin tənzimlənməsində mühüm rol oynayır. Eyni zamanda Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən, həmkarlar ittifaqı üzvlərini də əhatə edən humanitar və sosial layihələrin ölkəmizin sosial-iqtisadi inkişafında əhəmiyyəti qeyd olunub.

Çıxışda AHİK-in işçi hüquqlarının müdafiəsi, əməyin mühafizəsi, Baş Kollektiv Sazişdən irəli gələn öhdəliklərin icrası, eləcə də gender bərabərliyi, gənclər, idman və təhsil sahələrində görülən işlər qeyd olunub. Bildirilib ki, AHİK tərəfindən son bir neçə il ərzində fəaliyyətin təkmilləşdirilməsi, rəqəmsal həllərin tətbiqi, sosial layihələrin genişləndirilməsi istiqamətində mühüm addımlar atılıb. Həyata keçirilən layihələrin həmkarlar ittifaqları üzvlərinin sosial müdafiəsinin gücləndirilməsinə və onların fəallığının artırılmasına müsbət təsir göstərdiyi vurğulanıb.

Sonra həmkarlar hərəkatının tarixini özündə əks etdirən, eləcə də AHİK-in fəaliyyətindən bəhs edən videoçarxlar nümayiş olunub.

Həmkarlar ittifaqlarının veteran üzvü Leyla Acalova, Gənclər üçün Prezident mükafatçısı, Qarabağ Universitetinin əməkdaşı Lamiyə Məmmədova, Vətən müharibəsi iştirakçıları, həmkarlarımız Ruslan Bağırov və Saleh Salahov çıxış edərək konfederasiyanın 33 illik fəaliyyətinin zəngin bir irs olmaqla yanaşı, gələcəyə doğru inkişaf yolunda mühüm motivasiya mənbəyi olduğunu qeyd ediblər. Çıxışlarda əldə olunan nailiyyətlərin davam etdirilməsinin, həmkarlar ittifaqı dəyərlərinin gələcək nəsillərə ötürülməsinin, birlik və həmrəyliyin daha da möhkəmləndirilməsinin vacibliyi vurğulanıb.

Sonda AHİK-in fəaliyyətində fərqlənən veteranlar, gənc həmkarlar və könüllülər konfederasiya tərəfindən təşəkkürnamələrlə təltif olunublar.

Tədbir bədii hissə ilə davam edib.

*Nərminə ƏSGƏROVA,*
*"Azərbaycan"*

# Qəbələdə musiqi bayramı: "Qış nağılı" II Beynəlxalq Musiqi Festivalı yekunlaşdı





**Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının təşkilatçılığı, Heydər Əliyev Fondu, Mədəniyyət Nazirliyi və "Gilan"ın dəstəyi ilə Qəbələdə keçirilən "Qış nağılı" II Beynəlxalq Musiqi Festivalı başa çatıb.**

2009-cu ildən ənənəvi olaraq keçirilən Qəbələ Beynəlxalq Musiqi Festivalının davamı olaraq, artıq ikinci ildir təşkil edilən "Qış nağılı" festivalı bu il də musiqisevərləri bir araya gətirib. Soyuq qış günlərində reallaşan bu möhtəşəm sənət bayramı musiqi dünyasının diqqətini yenidən Qəbələyə yönəltməyi bacarıb.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, fevralın 5-də başlayan festival çərçivəsində Qəbələdəki Heydər Əliyev Konqres Mərkəzində musiqisevərlərə rəngarəng proqram təqdim edilib. Vokal, kamera instrumental musiqi axşamları, solo çıxışlar, autizmli pianoçunun konserti, Azərbaycanla İtaliya arasında dostluğu təcəssüm etdirən "Bakı-Neapol: Musiqi körpüsü" kamera musiqi axşamı izləyicilərin ürəyincə olub.

Fevralın 8-də axşam Heydər Əliyev Konqres Mərkəzində "Qış nağılı" II Beynəlxalq Musiqi Festivalının təntənəli bağlanış mərasimi və yekun konserti keçirilib. Mərasimdə Leyla Əliyeva, festivalın təşkilatçı qurumlarının təmsilçiləri, tanınmış musiqiçilər, musiqisevərlər və şəhərin qonaqları iştirak ediblər.

"Azərbaycan-İspaniya: iki ölkə, bir musiqi" adlı flamenko-caz musiqi gecəsində Azərbaycan xalq mahnıları, flamenko-caz və muğam improvizələri səsləndirilib, İspaniyadan dəvət alan ifaçı və rəqqaslar səhnəyə çıxıb.

Konsertə başlamazdan əvvəl ispan və Azərbaycan musiqiçilərinin yaradıcılığı barədə qısa məlumat verilib. Bildirilib ki, dünyaşöhrətli flamenko pianoçusu və bəstəkar Andres Barrios klassik musiqi təhsili alıb. Caz musiqisi sahəsində dərin biliklərə yiyələnən sənətçi eklektik və yenilikçi yaradıcılıq üslubu ilə seçilir. Onun musiqisi XXI əsr flamenkosunun cəsarətli və müasir ifadəsi kimi, müxtəlif dünya musiqi üslublarını ustalıqla birləşdirir.

Diqqətə çatdırılıb ki, konsertdə iştirak edən azərbaycanlı musiqiçi, tarzən İbrahim Babayev hər zaman özünəməxsus eksperimentləri ilə seçilməyi bacarır. O, muğam ənənələrinə əsaslanaraq, onlara elektron və çağdaş musiqi elementlərini əlavə edir. Pianoçu Nicat Aslanov isə muğam, etnocaz və müasir cazın sintezinə əsaslanan bir yaradıcılığa sahibdir.

Konsertdə Andres Barriosun ifasında "Ecdysis", "Meraki", "Noche Andaluza", "İsbilya", "La Colombiana" və ispan xalq nəğmələri səsləndirilib. İspaniyalı rəqqasə Cristina Cazorla və rəqqas Javier Morenonun təqdim etdikləri flamenko rəqs kompozisiyaları, həmçinin tarzən İbrahim Babayevin pianoçu Andres Barriosla birgə ifa etdiyi muğam və flamenko improvizələr, xalq mahnısı "Yaylıq" tamaşaçılara böyük zövq verib.

Yekun konsertində həmçinin tanınmış azərbaycanlı pianoçu və caz bəstəkarı Nicat Aslanovun və caz triosunun üzvləri Fuad Cəfər (bas gitara) və Həsən Bilalovun (zərb alətləri) ifasında solo performans və flamenko improvizələri təqdim olunub.

Beləliklə, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının təşkilatçılığı, Heydər Əliyev Fondu, Mədəniyyət Nazirliyi və "Gilan"ın dəstəyi ilə Qəbələdə keçirilən "Qış nağılı" II Beynəlxalq Musiqi Festivalı şən notlarla başa çatıb.

# Uşaqlar nəzarətsiz qalmamalıdırlar

**Sosial şəbəkələr gündəlik həyatın ayrılmaz hissəsidir. İnformasiya əldə etmək, maariflənmək, təhsil və özünüifadə imkanları baxımından rəqəmsal platformalar geniş imkanlara malikdir. Bundan əlavə, internetin yaratdığı imkanlar sosial münasibətləri formalaşdıran əsas mühitlərdən biridir desək, yanılmarıq.**



Bu imkanlarla yanaşı, internetin və sosial şəbəkələrin, xüsusən uşaqlar və yeniyetmələr üçün yaratdığı risklər də zaman keçdikcə daha qabarıq şəkildə ortaya çıxır. Süni intellekt texnologiyaları vasitəsilə hazırlanmış qısa videoçarxlar, misal olaraq, "reels", "shorts" və oxşar formatlar gündəlik olaraq milyonlarla istifadəçiyə təqdim olunur. Bu videoların böyük bir qismi zorakılıqdan, silahlı hücumlardan, kriminal həyat tərzindən, aqressiv davranışlardan və sairədən ibarət olur, amma bütün bunlar adiləşdirilir və bəzən də "qəhrəmanlıq" nümunəsi kimi təqdim edilir. Psixoloji cəhətdən formalaşmaqda olan uşaqlar üçün isə belə məzmunlu görüntülər təhlükəli davranış modellərinin normallaşmasına səbəb ola bilər.

Demək olar ki, bəzi böyük platformalar azyaşlıları zərərli məzmunlardan qorumaq məqsədilə müəyyən yaş məhdudiyyətləri və valideyn nəzarəti alətləri təqdim edirlər. Buna "YouTube", "YouTube Kids", "Facebook" və digər platformaları nümunə gətirmək olar. Ancaq bu mexanizmlərin real təsir gücü ciddi suallar doğurmaqdadır. Tutaq ki, bir valideyn öz övladına bununla bağlı məhdudiyyət tətbiq edir, amma uşaq başqa bir telefon vasitəsilə, məsələn, dostunun hesabından və ya saxta profil yaradaraq eyni məzmuna çıxış əldə edir. Üstəlik, məsələ yalnız bir neçə məşhur platforma ilə də məhdudlaşmır. Dünyada yüzlərlə sosial şəbəkə və videopaylaşım platforması fəaliyyət göstərir və onların əksəriyyətində yaş filtrləri formal xarakter daşıyır. Anormal materiallar, silah nümayişləri, zorakı çağırışlar, aqressivlik yaradan məhsullar, kriminal həyat tərzini təbliğ edən paylaşımlar və nəzarətsiz ünsiyyət imkanları uşaqlar üçün açıq qalır. Bu da aqressiyanın artmasına, zorakılığın adi hal kimi qəbul edilməsinə səbəb olur və sosial davranışlarda ciddi dəyişikliklərlə müşayiət olunur.

Bu tip hadisələr Azərbaycan cəmiyyəti üçün heç vaxt dramatik şəkildə xarakterik olmayıb. Güclü ailə bağları, ictimai nəzarət, mənəvi dəyərlər və sabit mühit belə halların kütləviləşməsinin qarşısını alıb. Lakin qlobal rəqəmsallaşma və nəzarətsiz sosial media mühiti bu balansı sürətlə dəyişir. Son vaxtlar baş verən hadisələrə nəzər salaq. Rayonların birində 12 yaşlı uşaq digər azyaşlıya (7 yaşlı) bıçaqla xəsarət yetirib. Digər hadisə isə bir neçə gün əvvəl "İdrak" liseyində şagirdin müəllimə odlu silahdan atəş açmasıdır. Deyə bilərik ki, bu hadisələr artıq təsadüfi insident deyil. Doğrudur, hadisələrin forması fərqlidir, ancaq mahiyyət eynidir. Azyaşlıların zorakılığa meyillənməsi təhlükəli tendensiyaya çevrilir.

Bu cür problemlər dünyanın bir çox ölkəsində ciddi narahatlıq doğurmaqdadır. Avstraliya, Fransa, İtaliya, İspaniya və başqa ölkələr sosial şəbəkələrin uşaqlara təsirini nəzərə alaraq qanunvericiliyi sərtləşdirib, yaşa uyğun mərhələli giriş mexanizmləri tətbiq edib və platforma idarəçilərinin üzərinə hüquqi öhdəliklər qoyub. Avropa İttifaqı səviyyəsində də bu istiqamətdə vahid hüquqi çərçivənin hazırlanması prosesi davam edir. Almaniyada aparılan son sorğular isə cəmiyyətin böyük hissəsinin azyaşlı və yeniyetmələrin sosial şəbəkələrə girişinin məhdudlaşdırılmasını dəstəklədiyini göstərir. Türkiyədə 15 yaşa qədər uşaqların sosial şəbəkələrdən istifadəsi qadağan ediləcək. Bu barədə qanun layihəsi yaxın günlərdə Türkiyə Böyük Millət Məclisində müzakirəyə çıxarılacaq. Qanun qəbul ediləcəyi təqdirdə valideynlərinin icazəsi olsa belə, uşaqlar sosial şəbəkələrə daxil ola bilməyəcəklər.

Azərbaycanda da bu məsələ diqqət mərkəzindədir. Bir neçə gün əvvəl Milli Məclisdə komitə iclasında "Uşaq hüquqları haqqında" qanun layihəsinin müzakirəsi zamanı Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova bildirib: "Biz "Roblox" korporasiyasına rəsmi müraciət ünvanlamışıq. Bu platforma geniş oyun şəbəkəsinə malikdir və uşaqlar üçün, demək olar ki, heç bir ciddi giriş məhdudiyyəti mövcud deyil. Uşaqlar orada öz ideyalarını sərbəst şəkildə reallaşdıra, həmin məzmunu dərhal ictimailəşdirə və digər uşaqları da bu prosesə cəlb edə bilirlər. Bu isə ciddi və zərərli nəticələr doğura bilər. Rəsmi müraciətimizdə iradlarımızı bildirmişik və onların nəzərə alınmasını tələb etmişik. Əgər bu məsələlər əməkdaşlıq çərçivəsində həll olunarsa, biz bunu qiymətləndirəcəyik. Əks halda isə qanunvericilik təşəbbüsləri ilə çıxış edəcəyik. Bu oyunların bir çoxunda yaş məhdudiyyətinin olmaması, nəzarətsiz ünsiyyət imkanları və istifadəçilərin anonimliyi uşaqlar üçün ciddi təhlükələr yaradır. Bu cür platformalar uşaqları zərərli məzmunla qarşı-qarşıya qoymaqla yanaşı, onların psixoloji vəziyyətinə, davranışlarına və sosial münasibətlərinə də mənfi təsir göstərə bilər".

Mütəxəssislər hesab edirlər ki, sosial şəbəkələrə girişin tam qadağan edilməsi də problemin həlli deyil. Əsas məsələ düzgün tənzimləmədir, yaşa uyğun mərhələli giriş, məzmun filtrləri və vaxt limitlərinin tətbiqidir. Bu prosesdə valideynlərin rolu da xüsusi əhəmiyyətə malikdir. Nəzarət, sadəcə, texniki məhdudiyyətlərlə məhdudlaşmamalıdır. Məsələ valideynin övladının rəqəmsal dünyadakı emosional vəziyyəti ilə maraqlanması, onun nə izlədiyini və nə hiss etdiyini anlaması üzərində qurulmalıdır. Çünki özünü yalnız hiss edən, diqqət və qayğı görməyən uşaqlar daha çox sosial şəbəkələrə sığınır və riskli ünsiyyət formalarına açıq olurlar.

Nəzarətsiz azadlıq isə uşaqlar üçün risklidir. Vurğulamaq lazımdır ki, rəqəmsal savadlılığın artırılması, uşaqlar üzərində nəzarət, sosial şəbəkə operatorları ilə əməkdaşlıq mexanizmlərinin qurulması bu sahədə diqqət yetirilməli əsas məsələlərdir. Məqsəd uşaqları həm real, həm də rəqəmsal məkanda təhlükəsiz və sağlam şəkildə böyütmək olmalıdır.

*Təhminə VERDİYEVA,*
*"Azərbaycan"*

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti
ASCO-nun struktur idarələrinə tələb olunan taxta materiallarının satın alınması məqsədilə
**açıq tender elan edir**

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 2026-cı il fevralın 13-ü saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı, Mikayıl Useynov küç., 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263**

*Tender komissiyası*

# Qərbi Azərbaycan İcması Azərbaycan-Ermənistan normallaşma prosesinə qarşı yönəlmiş təxribatçı addımları pisləyib

**Qərbi Azərbaycan İcması son vaxtlar Ermənistanda və bir sıra digər ölkələrdə Azərbaycan-Ermənistan normallaşma prosesinə qarşı yönəlmiş təxribatçı addımları kəskin şəkildə pisləyir.**

AZƏRTAC xəbər verir ki, icmanın bununla bağlı yaydığı bəyanatda deyilir: "Bu günlərdə - Azərbaycan və Ermənistan liderlərinin Əbu-Dabidə müsbət ruhda keçirilmiş görüşü günü Fransa Senatının Azərbaycan xalqına qarşı dəhşətli cinayətlər törətmiş müharibə canilərinin azad olunmasına çağıran qətnamə qəbul etməsi, İsveçrə parlamentinin üzvünün Ermənistanda özlərini hansısa qondarma qurumun "rəhbərləri" kimi qələmə verən şəxslərlə görüşməsi, "Qarabağ məsələsi hələ bağlanmamışdır" kimi təxribatçı açıqlamalar verməsi bu qəbildən olan təxribatçı hərəkətlərdir.

Görəsən, "azadlıq, bərabərlik, qardaşlıq"dan dəm vuran Fransanın bu parlamenti niyə bircə dəfə bizim - qərbi azərbaycanlıların üzləşdiyi faciələrə, deportasiyalara, soyqırımına, Azərbaycan xalqının Ermənistanda bütün izinin, qədim və zəngin tarixi-mədəni irsinin silinməsi kampaniyasına münasibət bildirməyib?

Qərbi Azərbaycan İcması hesab edir ki, ilk növbədə Ermənistan dövləti öz ərazisində artıq keçmişdə qalmış qondarma rejimin bütün "təsisatları"nı ləğv etməli, bundan başqa, regiondankənar aktorların sülhə maneə törədən əməllərini pisləyən açıqlamalar verməlidir".

# Rusiya portalı Bakının on yaraşıqlı binasının icmalını təqdim edib

**Rusiyanın "Vseostroyke" portalı öz oxucularına Azərbaycan paytaxtının tarixi memarlıq irsinin və müasir şəhərsalma üslubunun vəhdətini əks etdirən əsas arxitektura obyektləri barədə məlumat verib.**

AZƏRTAC xəbər verir ki, "Bakının görməli məkanları - hər kəsin görməli olduğu on ən yaxşı bina" sərlövhəli materialda qeyd olunur ki, Azərbaycan paytaxtının arxitekturasında qədim qalalardan tutmuş XXI əsrin ən müasir tikililərinə qədər müxtəlif dövrlər və üslublar bir-birini tamamlayır. Bu, şəhəri memarlar və səyahətçilər üçün nadir araşdırma obyektinə çevirir.

Portal ən diqqətəlayiq binalar arasında şəhərin yaraşıqlı tikililərindən biri olan, dalğavari forması ilə, demək olar ki, tamamilə düz bucaqlarının olmadığı Heydər Əliyev Mərkəzini, eləcə də Bakının memarlıq dominantına çevrilmiş üç qüllədən ibarət "Alov qüllələri" kompleksini qeyd edir. İcmalda həmçinin şəhərin zəngin tarixə malik qədim rəmzi - Qız qalası da yer alır.

Nəşrdə habelə forması açılmamış xalçaya bənzəyən və sənətkarlığın memarlıq metaforası kimi xidmət edən Milli Xalça Muzeyi, XV əsr islam memarlığının görkəmli abidəsi Şirvanşahlar sarayı, Avropanın memarlıq məktəbinin təsirinin nümunəsi olan



İsmailiyyə sarayı, Hökumət evi binası və XX əsrin əvvəllərinə aid müasir Bakı malikanələri vurğulanır.

Portal qeyd edir ki, Bakının memarlıq landşaftı qədim abidələr və modernist həllər, Şərq və Qərbin təsirləri arasında dialoqdur. Hər bir dövr şəhərin görünüşündə nəzərəçarpacaq izlər buraxıb.



**2026 Şəhərsalma və Memarlıq İli**



# Şuşa zəngin şəhərsalma mədəniyyətinin nadir incisidir

**Şuşa qalası uzun illər boyu Azərbaycanın Qarabağ xanlığının paytaxtı olmuşdur. Qarabağ xanlığının əsasının qoyulması və Şuşa şəhərinin onun paytaxtına çevrilməsi Pənahəli xanın (1693-1763) adı ilə bağlıdır. Qarabağ xanı Pənahəli Cavanşirlər tayfasının Sarıcanlı oymağından idi. Bu Azərbaycan tayfası Qarabağın qədim sakinlərindən olmuş və uzun müddət bölgənin ictimai-siyasi həyatında mühüm rol oynamışdır. Şuşa qalasının salınması 1750-1751-ci illərdən hesab edilir. Tarixi mənbələrə görə, 1750-ci ildə hündür, sıldırım dağ üstündə qalanın inşasına başlanmış və həmin əsrin sonrakı illərində qala divarlarının çəkilməsi davam etdirilmişdi.**

Qarabağ xanı Pənahəli xan 1752-ci ildə Şuşanı paytaxt elan edib oranı möhkəmləndirmiş, Qala-şəhərə çevirmişdi. Şəhər bir müddət Pənahəli xanın şərəfinə "Pənahabad", sonradan isə "Şuşa qalası" və "Şuşa" adlandırılmışdır.

XVIII əsrin ikinci yarısından başlayaraq, şəhərin əhalisi sürətlə çoxalmış və Şuşa Azərbaycanın mühüm, strateji əhəmiyyətli şəhərlərindən birinə çevrilmişdir. Pənahəli xanın hakimiyyəti dövründə (1747-1763) şəhərdə böyük tikinti işləri aparılmış, sonra İbrahimxəlil xanın dövründə (1763-1806-cı illər) isə Qarabağ xanlığı daha da güclənmişdir. Xanlığın ərazisində Əskəran, Ağoğlan qalaları və digər diqqətəlayiq, strateji əhəmiyyətli qalalar tikilmişdir. Şəhər qısa müddət ərzində xeyli böyümüş, təbii gözəlliyi, hündür binaları və möhtəşəm qala divarları ilə diqqəti cəlb etmişdir.




Şəhərdə 17 məhəllə var idi ki, onların hər birinin məscidi, bulağı və hamamı olmuşdur. Pənahəli xanın hakimiyyəti illərində (1747-1763) şəhərin salınmasının ilkin mərhələsində ən qədim məhəllələr sonralar şəhərin relyefinə uyğun olaraq, "Aşağı məhəllə" adlandırılmışdır. "Aşağı məhəllə" 9 məhəllədən təşkil olunmuşdur: Seyidli, Çöl Qala, Çuxur məhəllə, Quyuluq, Dördlər Qurdu, Qurdlar, Merdinli, Hacı Yusifli, Culfalar. Şuşanın bir şəhər kimi formalaşmasının ikinci mərhələsi İbrahimxəlil xanın hakimiyyəti illərinə (1763-1806) təsadüf edir. Bu mərhələdə "Yuxarı məhəllə" adlanan ikinci məhəllə formalaşmışdır. "Yuxarı məhəllə" 8 məhəllədən təşkil olunmuşdur: Saatlı, Mamayı, Köçərli, Xocamircanlı, Ağadədəli, Dəmirçilər, Təzə məhəllə, Hamamqabağı.

Şuşa qalası üç əsas qapıya malik olmuşdur: Gəncə, İrəvan və Ağoğlan qapıları. Hər üç qapının adı tarixi mənbələrdə tez-tez xatırlanır, həmçinin onların adı Şuşanın XIX əsrdə çəkilmiş bütün baş planlarında qeyd edilir.

1992-ci il mayın 8-də Şuşanın Ermənistan silahlı qüvvələri tərəfindən işğalı nəticəsində rayonun 25 məktəbi, 31 kitabxanası, 17 klubu, 8 mədəniyyət evi, 4 texnikumu, 2 institut filialı, 7 uşaq bağçası, 4 kinoteatrı, 5 mədəniyyət və istirahət parkı, 2 sanatoriya, turist bazası, 2 mehmanxana, Azərbaycan Milli Xalça Muzeyinin Şuşa filialı, Şuşa Dövlət Dram Teatrı, Şuşa Televiziyası, Şərq musiqi alətləri fabriki, Dövlət Rəsm Qalereyası, Uşaq sağlamlıq məktəbi talan edilmiş, yandırılmış və dağıdılmışdır.

Bununla yanaşı, işğala qədər Şuşada memarlıq abidəsi sayılan 850-dən çox yaşayış binası və 300-dək mədəniyyət və tarixi abidə var idi. Bunların içərisində Son Tunc və İlk Dəmir dövrü abidəsi sayılan Şuşa və Şuşakənd daş qutusu qəbirləri, Daş dövrü abidəsi olan Şuşa mağara düşərgəsi, XVIII əsrə dair Şuşa qalasının divarları, Gəncə qapısı, Pənah xanın sarayı və kitabxanası, İbrahimxəlil xanın bürcü və qəsri, Xan sarayı və karvansara, M.P.Vaqifin mədrəsəsi və türbəsi, Yuxarı məscid mədrəsəsi, Hacıqulların malikanəsi, ikimərtəbəli karvansara, Mehmandarovların malikanə kompleksi, Gövhər ağa, Xocamircanlı, Çöl-Qala, Merdinli, Saatlı, Köçərli məscidləri, Xurşidbanu Natəvanın evi və bulağı, Ə.B.Haqverdiyevin, Q.B.Zakirin, M.M.Nəvvabın, S.S.Axundovun, N.B.Vəzirovun, Y.V.Çəmənzəminlinin evləri, Mamay bəyin evi, məscidi və bulağı, Behbudovların, Fərəməzovların, Zöhrabbəyovun, Bəhmən Mirzənin evləri, Üzeyir bəy Hacıbəylinin, Bülbülün ev-muzeyləri, Xan Şuşinskinin, tarzən Sadıqcanın evləri, Real məktəbinin binası, Qız məktəbi, "Şirin su" hamamı, Meydan bulağı, İsa bulağı və digər tarixi mədəniyyət nümunələri erməni işğalçıları tərəfindən talan edilmiş, dağıdılmış və ya məhv edilmişdir.

## Şuşanın işğaldan azad edilməsi Zəfər Günü kimi tarixə yazıldı

Azərbaycan Prezidenti İlham Əliyev 2020-ci il oktyabrın 16-da, 44 günlük İkinci Qarabağ müharibəsinin 20-ci günündə Türkiyənin "A Haber" televiziya kanalına müsahibəsində demişdi: "Şuşanın Azərbaycan xalqının qəlbində xüsusi yeri var. Bu, bizim tarixi şəhərimizdir, qədim mədəniyyət ocağıdır. Şuşa Azərbaycan xalqına bir çox istedadlı, dahi şəxslər bəxş edibdir. Əlbəttə ki, Şuşasız bizim işimiz yarımçıq olar. Ona görə təbii ki, Şuşanın işğaldan azad edilməsi bizim hədəflərimizin arasında xüsusi yer tutur. Biz buna çalışmalıyıq, biz buna nail olmalıyıq".

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin prinsipial mövqeyi, səsləndirdiyi tutarlı dəlillər və əsaslı fikirlər, döyüş meydanında Azərbaycan Ordusunun əldə etdiyi qələbələr diplomatiya meydanında da uğurlara çevrildi və Azərbaycanın İkinci Qarabağ müharibəsindəki hərbi-diplomatik Qələbəsini şərtləndirdi.

Azərbaycanın milli və dövlətçilik maraqlarını daim üstün tutan Prezident, Ali Baş Komandan İlham Əliyev 2020-ci il noyabrın 8-də Şuşa şəhərinin azad olunması münasibətilə xalqa müraciətində demişdir: "İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, Zəfərimizin günüdür!"

Azərbaycan Prezidentinin dekabrın 3-də imzaladığı sərəncama əsasən, noyabrın 8-i bayram günləri sırasına daxil edildi və hər il Azərbaycanda Zəfər günü kimi təntənəli şəkildə qeyd edilir. Azərbaycan Respublikasında Zəfər Gününün təsis edilməsi haqqında Prezidentin sərəncamında vurğulanır ki, Azərbaycanın hərbi sahədə qazandığı qələbələr, xüsusilə Şuşanın düşmən əsarətindən qurtarılması müharibənin taleyində həlledici rol oynadı, Ermənistanın öz məğlubiyyətini etiraf etməsi və kapitulyasiyası ilə nəticələndi, Ermənistanı Kəlbəcər, Ağdam və Laçın rayonlarını Azərbaycana qaytarmağa məcbur etdi.

## Xarıbülbül Qarabağın azadlıq rəmzi oldu

2021-ci il yanvarın 14-də Şuşaya səfər edən Azərbaycan Prezidenti İlham Əliyev son dəfə 39 il bundan əvvəl Ümummilli Lider Heydər Əliyevin şəhərə tarixi və unudulmaz səfəri zamanı gəldiyini diqqətə çatdıraraq bildirdi ki, qəhrəman Azərbaycan Ordusu mükəmməl hərbi əməliyyat keçirərək cəsarət, rəşadət, qəhrəmanlıq, güc, milli ruh nümayiş etdirərək Şuşanı işğalçılardan azad etmiş və uzun fasilədən sonra noyabrın 8-də Şuşada Azərbaycan bayrağı qaldırılmışdır: "Biz buraya qalib kimi gəlmişik, bayrağı da qaldırmışıq, azad edilmiş bütün torpaqlarda Azərbaycan bayrağı dalğalanır. Döyüşə-döyüşə gəlmişik. Heç kim bu torpaqları bizə elə-belə verməyib. Heç bir danışıqlar heç bir əhəmiyyətə malik deyildi. Biz gördük ki, ancaq öz gücümüzlə öz torpaqlarımızı azad etməliyik və bunu etdik".

Şuşaya səfəri zamanı Azərbaycan Prezidenti İlham Əliyev bildirdi ki, Ermənistanın Azərbaycan torpaqlarını, o cümlədən Şuşanı işğal etməsi nəticəsində tarixi, mədəni abidələrimiz dağıdılıb, ev-muzeyləri qarət edilib. Onların arasında Xurşidbanu Natəvanın, Üzeyir bəy Hacıbəylinin, Bülbülün Şuşadakı büstləri də var. Güllələnmiş bu büstlər erməni vandalizminin şahidləridir. Prezident İlham Əliyev hələ işğaldan əvvəl qeyd etmişdir ki, ərazi bütövlüyümüz bərpa edildikdən sonra Bülbülün, Natəvanın, Üzeyir bəy Hacıbəylinin büstləri yenə də Şuşada qoyulacaq. Azərbaycan Prezidentinin bu sözləri artıq reallığa çevrildi və həmin dahi şəxsiyyətlərin büstləri Şuşada yenidən əvvəlki yerlərinə qoyuldu.

Bununla yanaşı, Şuşa şəhərinin Azərbaycan üçün müstəsna əhəmiyyət kəsb etdiyini bildirən Prezident İlham Əliyev qeyd etmişdir ki, yarıdağılmış tarixi abidələrimizin bərpasında çox həssas olmalı, ancaq biz o tarixi abidələrimizin əsl simasını bərpa etməliyik. Vaxt itirmədən, ancaq eyni zamanda tələsmədən Şuşanın ilkin simasının, tarixi simasının bərpa edilməli olduğunu bildirən Azərbaycan Prezidenti Şuşa şəhərini Azərbaycan mədəniyyətinin paytaxtı elan edərək demişdir: "Şuşa şəhəri buna layiqdir. Hesab edirəm ki, nəinki Azərbaycanın, bölgənin mədəni paytaxtı sayıla bilər. Şuşanın mədəni həyatı zəngin olmalıdır". Bununla yanaşı, dövlət başçısı vaxtilə Vaqif Poeziya Günlərinin ənənəvi olaraq keçirildiyini vurğulayaraq diqqətə çatdırmışdır ki, Şuşada Vaqif Poeziya Günləri bərpa edilməlidir, "Xarıbülbül" festivalı bərpa olunmalıdır.

Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi haqqında Prezident İlham Əliyevin 2021-ci il mayın 7-də imzaladığı sərəncamda vurğulanır ki, şəhərin tarixi görkəminin bərpası, əvvəlki şöhrətinin özünə qaytarılması və ənənəvi dolğun mədəni həyatına qovuşması, eləcə də Azərbaycanın çoxəsrlik zəngin mədəniyyətinin, memarlıq və şəhərsalma sənətinin parlaq incisi kimi beynəlxalq aləmdə təbliği mühüm əhəmiyyət kəsb edir. Bununla yanaşı, bu mühüm sənəddə göstərilir ki, tarixi-mədəni əhəmiyyəti və Azərbaycan xalqı üçün müstəsna mənəvi dəyərə malik olması Şuşaya xüsusi qayğı və həssaslıqla yanaşılmasını zəruri edir.

Azərbaycan Prezidenti bildirmişdir ki, Şuşa Azərbaycan dövlətinin mədəniyyət paytaxtı kimi dünyanın ən gözəl şəhərlərinin birinə çevriləcəkdir: "Əslində, həmişə belə olub. Sadəcə olaraq, mənfur düşmən bütün tarixi abidələrimizi dağıdıb. Amma biz bərpa edəcəyik. Onların əsl simasını qaytaracağıq. Azərbaycan xalqı Şuşada bundan sonra əbədi yaşayacaqdır".

2021-ci il mayın 12-13-də hər bir azərbaycanlı üçün müqəddəs məkanda, Azərbaycanın mədəniyyət paytaxtı Şuşada, bənzərsiz və füsunkar Cıdır düzündə 29 ildən sonra yenidən "Xarıbülbül" Musiqi Festivalı keçirildi. Vətən uğrunda canlarından keçmiş qəhrəman şəhidlərin əziz xatirəsinə həsr edilmiş möhtəşəm "Xarıbülbül" Musiqi Festivalı düşmənə, bu müqəddəs şəhərə yad olan ünsürlərə həm də cavab oldu. Nəticədə, Şuşa şəhəri Azərbaycanın mədəniyyət paytaxtı, Xarıbülbül Qarabağın azadlıq rəmzinə çevrildi.

## Şuşa çoxəsrlik, zəngin şəhərsalma mədəniyyətinə malikdir

Şuşa - Qarabağın tacı, Qafqazın sənət məbədi, Şərqin konservatoriyası, Azərbaycanın ictimai-siyasi, mədəni həyatında mühüm xidmətləri olan görkəmli xadimlərin vətəni, doğma şəhər, əziz bir torpaq, hərbi-strateji əhəmiyyətli qala və müqəddəs abidədir. Bu baxımdan, Şuşanın əsl tarixi simasının, ənənələrinin və qədim mədəni abidələrinin bərpası mühüm əhəmiyyət kəsb edir.

2021-ci il avqustun 29-30-da Azərbaycan Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın iştirakı ilə Şuşada bir sıra tədbirlər keçirildi və Şuşa şəhərinin baş planı təqdim olundu.

1982-ci il yanvarın 14-də Ümummilli Lider Heydər Əliyevin iştirakı ilə böyük təntənə ilə açılmış dahi Azərbaycan şairi və ictimai xadimi Molla Pənah Vaqifin məqbərəsi, Şuşa şəhəri 1992-ci il mayın 8-də işğal edildikdən sonra ermənilər tərəfindən dağıdılmışdı. 2021-ci il avqustun 29-da Şuşada muzey-məqbərə kompleksinin təmir-bərpa və yenidənqurma işlərindən sonra açılışı oldu, həmçinin erməni vandalizminə məruz qalmış şairin evinin yerindəki büstü də yenidən ucaldıldı.

Eyni zamanda Azərbaycan musiqi mədəniyyətinin inkişafında böyük xidmətlər göstərmiş, professional musiqi sənətinin banisi, görkəmli bəstəkar, ictimai xadim Üzeyir bəy Hacıbəylinin Şuşa şəhərindəki ev-muzeyində aparılacaq işlərlə tanışlıq, həmçinin dağıdılmış heykəlinin, eləcə də vokal məktəbinin təşəkkülü və təkamülündə mühüm rol oynamış dahi Bülbülün Şuşa şəhərindəki ev-muzeyinin bərpa işlərindən sonra açılışı oldu. Eyni gündə Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində yenidənqurma işləri yekunlaşan XX əsrin 70-ci illərində tikilmiş "Qarabağ" mehmanxanasının da fəaliyyəti bərpa olundu.

2021-ci il sentyabrın 18-də ilk dəfə Şuşada Milli Musiqi Günü çərçivəsində Üzeyir bəy Hacıbəyli XIII Beynəlxalq Musiqi Festivalının konserti keçirildi. Hər il dahi Azərbaycan bəstəkarı Üzeyir bəy Hacıbəylinin ad günündə qeyd olunan bu tədbir Şuşada, onun heykəlinin ucaldığı parkda təşkil edildi. Xatırladaq ki, 1985-ci ildə Üzeyir bəy Hacıbəylinin 100 illik yubileyi münasibətilə Şuşada ucaldılmış bəstəkarın heykəli 1992-ci ildə Birinci Qarabağ müharibəsi zamanı erməni vandalizminə məruz qalaraq tamamilə məhv edilmişdi. Zəfərdən sonra Şuşa şəhərində görkəmli bəstəkar Üzeyir bəy Hacıbəylinin heykəli öz əvvəlki yerində ucaldıldı. Qeyd edək ki, bərpa işlərini Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu öz vəsaiti hesabına icra edir.

Prezident İlham Əliyevin Şuşanın Azərbaycan xalqı üçün tarixi əhəmiyyətini, yüksək mədəni-mənəvi dəyərini nəzərə alaraq, 2022-ci ilin "Şuşa ili" elan edilməsi haqqında imzaladığı sərəncamda deyilir ki, bənzərsiz tarixi görkəmini və formalaşdırdığı özünəməxsus mühiti həmişə qoruyub saxlayan bu şəhər yetirdiyi böyük şəxsiyyətləri ilə ədəbi, mədəni, elmi və ictimai fikir salnaməmizə əlamətdar səhifələr yazmışdır.

Bununla yanaşı, 2022-ci il martın 31-də Beynəlxalq Türk Mədəniyyəti Təşkilatına (TÜRKSOY) üzv ölkələrin Mədəniyyət Nazirlərinin Daimi Şurasının Türkiyənin Bursa şəhərində keçirilən iclasında Şuşa şəhəri 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" seçildi.

2023-cü il mayın 9-da İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada Heydər Əliyev Fondu tərəfindən aparılan bərpa işlərindən sonra Mehmandarovların malikanə kompleksinin açılışında iştirak etmiş, Xüsusi nümayəndəliyin inzibati binasının qarşısındakı meydanda olmuşlar. Həmin gün Azərbaycan Prezidenti Cıdır düzündə Mir Möhsün Nəvvab Qarabağinin Heydər Əliyev Fondu tərəfindən bərpaolunan məzarını ziyarət etmiş, Atatürk küçəsinin, Molla Pənah Vaqif və Pənahəli xan küçələrinin kəsişməsindəki lövhələrin açılışında, həmçinin Qarabağ küçəsində inşa olunacaq qeyri-yaşayış binasının təməlinin qoyulmasında iştirak etmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev 2023-cü il mayın 10-da görkəmli dövlət xadimi, dahi şəxsiyyət, Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinin qeyd edildiyi gün Şuşadan geniş təbrik müraciəti etdi. Həmin gün Şuşa şəhərində əsaslı yenidənqurma və bərpa işlərindən sonra Yuxarı Gövhər ağa məscidinin, Saatlı məscidinin, Yaradıcılıq mərkəzinin, Milli Xalça Muzeyinin Şuşa filialının açılışları ilə yanaşı, Heydər Əliyev və 8 Noyabr küçələrinin kəsişməsində, Xurşidbanu Natəvan və Zəfər küçələrində, həmçinin Qarabağ və Xan Şuşinski küçələrinin kəsişməsindəki, Dəmir yumruq küçəsinin lövhələrin və Şuşa Hotel-Konqres Mərkəzi Kompleksinin açılışları da keçirildi.

2023-cü il mayın 12-də Şuşa şəhərində Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və TÜRKSOY-un birgə təşkilatçılığı ilə "Şuşa - türk dünyasının mədəniyyət paytaxtı - 2023" ilinin rəsmi açılış mərasimi oldu. Bununla yanaşı, 2023-cü il oktyabrın 13-14-də I Türk Dünyası Mədəniyyət Forumunun Şuşada keçirilməsi qədim tarixiə malik Azərbaycan şəhərinin beynəlxalq ictimaiyyətə çatdırılması baxımından mühüm əhəmiyyət kəsb etdi.

2023-cü il sentyabrın 25-də Qətərin paytaxtı Doha şəhərində keçirilən İslam Dünyası Mədəniyyət Nazirlərinin 12-ci Konfransında Azərbaycanın qədim Şuşa şəhərinin 2024-cü il üçün ICESCO-nun "İslam dünyasının mədəniyyət paytaxtı" proqramı üzrə namizədliyi irəli sürülmüş və "Şuşa - 2024-cü il üçün islam dünyasının mədəniyyət paytaxtı" elan olunmuşdur.

2024-cü il mayın 10-da Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada üçüncü yaşayış kompleksinin təməlqoyma mərasimində iştirak etdilər. Həmin gün Şuşa şəhərində "Şirin su" hamamının və Mamayı məscidinin bərpadan sonra açılışı olmuşdur.

2024-cü il mayın 11-də Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşanın Cıdır düzündə VII "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalının və "Şuşa - islam dünyasının mədəniyyət paytaxtı 2024" ilinin açılış mərasimində iştirak etdilər. Prezident İlham Əliyev 2024-cü il iyulun 5-də Şuşada Aşağı Gövhər ağa məscidinin, "İsa bulağı" istirahət kompleksinin və Dövlət Xidmətləri Mərkəzinin, həmin il sentyabrın 19-da isə Üzeyir bəy Hacıbəylinin ev-muzeyinin əsaslı təmir və bərpadan sonra açılışında iştirak etmişdir.

Bu baxımdan, 2021-2025-ci illərdə keçirilən mühüm tədbirlər bir daha onu təsdiq edir ki, Şuşa Azərbaycanın və Türk dünyasının mədəniyyət paytaxtı olmaqla yanaşı, həmçinin ictimai fikir və milli-ideoloji mərkəzinə çevrilməkdədir. Bütün qeyd edilən faktlara və təhlilə əsaslanaraq əminliklə söyləmək olar ki, Şuşanın mədəni irsi Azərbaycan memarlıq üslubunda bərpa edilməklə, müasir tariximizin yeni və şərəfli dövrü yazılır.

***Elçin ƏHMƏDOV,***
***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Beynəlxalq münasibətlər və xarici siyasət kafedrasının professoru***

# Qazaxıstan BTC ilə neft ixracını artırır



**Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft kəməri əsasən "Azəri-Çıraq-Günəşli" neftini daşıyır. Bu boru xəttinə həmçinin Xəzərin digər regional xam neft həcmləri, o cümlədən Qazaxıstan nefti də vurulur.**

Hazırda BTC marşrutu üzrə tədarükün resurs bazasını əsasən "KMQ Kaşaqan B.V." şirkəti vasitəsilə ixrac edilən "Kaşaqan" yatağının, həmçinin "Tenqizşevroyl"un resursları təşkil edir. Ötən il BTC ilə 1,3 milyon ton Qazaxıstan nefti göndərilib. Cari ildə isə bu rəqəmin 1,6 milyon ton olması planlaşdırılır. Müqavilə öhdəlikləri ilə 2,2 milyon ton həcmdə təsbit edilib. Mövcud texniki imkanlar nəzərə alınmaqla və iqtisadi məqsədəuyğunluq saxlanılmaq şərti ilə perspektivdə bu istiqamət üzrə tədarükün mərhələli şəkildə ildə 7 milyon tona qədər artırılması mümkündür.

"KazMunayQaz" ilə SOCAR (Azərbaycan Respublikas Dövlət Neft Şirkəti) arasında strateji əməkdaşlıq bu marşrut üzrə neft tranziti üçün dayanıqlı modelin formalaşdırılmasına yönəlib. Əsas prioritet şəffaf şərtlərin təmin edilməsi və infrastrukturun modernləşdirilməsi hesabına bu yolun qazaxıstanlı yükgöndərənlər üçün cəlbediciliyinin artırılması olacaq. Tərəflər tərəfdaşlığın uzunmüddətli prinsiplərini möhkəmləndirməyi, marşruta yeni yataqları işlədən şirkətləri cəlb etməyi və sərbəst boru kəməri tutumundan maksimum səmərə ilə istifadə etməyi planlaşdırırlar. Başlıca məqsəd ixracın fasiləsizliyinə zəmanət vermək və tərəfdaşlar qarşısında etibarlılığı təmin etməkdir.

Bunları Qazaxıstanın energetika naziri Erlan Akkenjenov AZƏRTAC-a müsahibəsində də vurğulayıb. O deyib: "İxrac marşrutlarının diversifikasiyası hər bir ölkə üçün normal tapşırıqdır. 2022-ci ildən etibarən Prezident Kasım-Jomart Tokayevin tapşırıqlarına uyğun olaraq, nazirliyimiz əlavə tədarük yollarının inkişafı üzərində fəal işləyir. Əsas istiqamətlərdən biri kimi Bakı-Tbilisi-Ceyhan neft kəmərindən istifadə edilir və Xəzər üzərindən Avropa bazarlarına sabit tanker daşımalarını qaydasına salmışıq".

Məlum olduğu kimi, neftin tranziti Aktau limanı vasitəsilə həyata keçirilir. Bəs limanın infrastrukturu həcm artımının öhdəsindən gələ biləcəkmi? Bununla bağlı bildirilib ki, indi Aktau limanı "Şimal-Cənub" və Orta dəhlizi birləşdirən əsas beynəlxalq qovşaqlardan birinə çevrilir. Qlobal logistikanın dəyişdiyi şəraitdə Avropa Yenidənqurma və İnkişaf Bankının dəstəyi ilə reydlərin irimiqyaslı yenidənqurma işlərinə başlanıb. Bu isə ildə bir milyonadək konteynerin emalına imkan verəcək. İxracın artımı nəzərə alınaraq infrastruktur öncədən inkişaf etdirilir, eyni zamanda "vahid pəncərə" və "door-to-door" fasiləsiz çatdırılma kimi rəqəmsal xidmətləri tətbiq olunur (nəqliyyat şirkətinin daşınmanın bütün mərhələlərini öz üzərinə götürdüyü kompleks logistika xidməti). Rəqabətli tariflər və "dar boğaz"ların aradan qaldırılması sayəsində Aktau regional limandan mühüm transmilli qovşağa çevrilir və Qazaxıstanın tranzit cəlbediciliyini gücləndirir.

Qeyd edək ki, Qazaxıstan bizim enerji layihələrimizi həmişə dəstəkləyib. Hələ 1999-cu ilin noyabr ayında İstanbul şəhərində Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin marşrutunu müəyyənləşdirən sənədi Azərbaycan, Gürcüstan, Türkiyə, ABŞ prezidentləri ilə birgə Qazaxıstanın dövlət başçısı da imzalamışdı. 2005-ci ilin may ayında BTC-yə ilk neft axıdılarkən Səngəçal terminalında keçirilən tədbirdə Azərbaycan, Gürcüstan, Türkiyə prezidentləri ilə yanaşı, Qazaxıstanın dövlət başçısı da iştirak etmişdi. Bu kəmərə xeyli müddətdir Qazaxıstan nefti də vurulur.

Ümumiyyətlə, həm Azərbaycanın, həm də Qazaxıstanın karbohidrogen ehtiyatları ilə zəngin olması bu iki qardaş ölkəyə neft və qaz sektorunda da əməkdaşlığı genişləndirməyə imkan verir. İndi bu əməkdaşlıq getdikcə şaxələnir. Belə ki, "yaşıl enerji" potensialı böyük olan ölkələrimiz enerji keçidi dövründə yeni layihələrə imza atır və bu sahədə sıx əlaqələr yaradırlar.

Hər iki dövlətin iştirak etdiyi ambisiyalı layihələrdən biri "Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi"dir. Bu layihəyə əsasən, Mərkəzi Asiyada istehsal olunan bərpaolunan enerji Azərbaycandan tranzit keçməklə Avropaya ixrac olunacaq. Bu barədə ilkin sənəd 2024-cü ildə Bakıda keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransı (COP29) çərçivəsində imzalanıb.

Beləliklə, böyük "yaşıl enerji" potensialına sahib olan Qazaxıstan da daxili tələbatını ödəməklə yanaşı, enerji ixrac etmək imkanına da malikdir. Qazaxıstanla yanaşı, Mərkəzi Asiyanın digər respublikalarının da alternativ və bərpaolunan enerji potensialı var. Odur ki, bütün bunlar Azərbaycandan keçən "Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi"nin formalaşmasını zərurətə çevirib.

***Flora SADIQLI,***
***"Azərbaycan"***





# Mədəniyyət





● İncəsənət xadimləri

**Sol əlini köksünə sıxıb, sağ əlini çənəsinə dayaq vermişdi. Nuru azalmış gözləri, üzündən heç əskik olmayan təbəssümü uzaqlara baxırdı. Doxsan üç yaşına çatmışdı Oqtay Sadıqzadə. Dünyanın hər üzünü görmüşdü...**

## Həyat çox sınağa çəksə də...

Onunla söhbət etmək tarix kitabı oxumağa bərabər idi. Həm də tarixçilərin yarı həqiqət, yarı gümanlara əsaslanaraq yazdıqları kitablardan deyildi. Hadisələri tamamilə real, faktları dəqiq idi. Çünki bu, Oqtay Sadıqzadənin ömür kitabıydı...

O, dünyaya gələndə artıq vətəninin azadlığı, ölkəsinin müstəqilliyi kədərli xatirələrə, kövrək xəyallara çevrilmişdi. 1920-ci il aprelin 28-də bolşeviklər Azərbaycanı işğal etmiş, Cümhuriyyət hökumətini süquta uğratmışdılar.

Yeni hökumət öz yerini möhkəmlətmək üçün Azərbaycanın dövlət müstəqilliyi niyyətindən dönməmiş azərbaycanlılara qarşı sərt tədbirlər həyata keçirməyə başladı. Ancaq Vətənin azadlığı ideyasını Azərbaycanın vətənsevər, təəssübkeş övladlarının könlündən, düşüncələrindən silmək, unutdurmaq




mümkünsüz idi. Bu isə bolşevik hökumətini daha da hiddətləndirirdi. Yeni hökumətin rəhbərləri millətin azadlıq ruhunu yenidən oyada biləcək şəxsiyyətlərə düşmən kəsilmişdilər.

Onun valideynləri - atası yazıçı Seyid Hüseyn, anası şair Ümmügülsüm də Azərbaycanı canlarından çox sevən ziyalılarımızdan idilər.

Cümhuriyyətin süqutundan sonra başlarının üstündə kabus kimi dolaşan təhlükədən uzaqlaşmaq üçün Xızıya getdilər. Seyid Hüseyn Xızıda məktəbdə müəllim işləməyə başladı. 1921-ci il fevralın 21-də ilk övladları dünyaya gəldi. Seyid Hüseyn körpənin adını Oqtay qoydu.

Həmin il qış sərt keçdiyindən bir müddət şəhərə gediş-gəliş kəsildi. Qohumları ilə əlaqə saxlaya bilmədiklərinə görə Seyid Hüseyn oğlunun dünyaya gəldiyi gün qardaşı Mir Paşanın şəhid olduğundan xəbərsiz qaldı.

Qarla örtülmüş yollar açıldıqdan sonra baş vermiş faciədən xəbər tutdular. Bakı Sovetinin sədri Əliheydər Qarayevin tapşırığı ilə Mir Paşanın da daxil olduğu Azərbaycan Dövlət Teatrının truppası Qarabağ kəndlərinə getmişdi ki, orada azərbaycanlılara dinclik verməyən ermənilərlə söhbət aparıb onları sülhə çağırsınlar. Ermənilər gecə hücum edərək aktyorları qaldıqları evdə qətlə yetirmişdilər.

Mir Paşanın qırxına az qalmış Bakıya gələ bildilər və daha Xızıya qayıtmadılar. Çox keçmədi ki, Seyid Hüseyn həbs olundu. Onu bir neçə ay sonra buraxdılar. 1923-cü ildə yenidən həbs etdilər. İki aya yaxın həbsdə qaldıqdan sonra Ruhulla Axundovun köməyi ilə azadlığa çıxdı.

Oqtay Sadıqzadənin uşaqlığı belə ağır, ziddiyyətli bir dövrdə keçdi. Sabahlarından arxayın deyildilər. Ancaq nə qədər ki, anası və atası yanlarında idi, o da, bacısı Qumral, qardaşları Toğrul və Cığatay da özlərini xoşbəxt hiss edirdilər.

Azərbaycanın məşhur yazıçılarının, şairlərinin, tənqidçilərinin, alimlərinin çoxu atasının və anasının dostları idilər. Oqtaygil uşaqlıqdan onları tez-tez görür, söhbətlərini dinləyirdilər. Belə bir mühitdə böyüyən Oqtay Sadıqzadə kiçik yaşlarından rəssamlığa meyil göstərdi. O, 1935-ci ildə Azərbaycan Dövlət Rəssamlıq Texnikumuna daxil oldu.

1937-ci il sovet hökumətinin repressiya siyasəti Sadıqzadələrin də ocağında qara yel kimi əsdi. Həmin il iyunun 15-də Oqtay Sadıqzadənin atası Seyid Hüseyni Şüvəlandakı bağlarında həbs etdilər.

1937-ci il noyabrın 2-də anası Ümmügülsümü də İçərişəhərdəki evlərindən apardılar. Ümmügülsüm Sadıqzadə Bayıl həbsxanasına salındı. 1938-ci il mayın 10-da isə ona və kamera yoldaşlarına eyni gündə - istintaqsız, məhkəməsiz hökm oxundu. Səkkiz il həbs cəzasına məhkum edildilər. Mayın 21-də Temlaq İslah Əmək Düşərgəsinə göndərildilər.

Oqtaygil anasından az da olsa məktubla xəbər tuturdular. Ataları barədə isə heç bir məlumat ala bilmirdilər.



Seyid Hüseyn Sadıqzadəyə SSRİ Ali Hərbi Məhkəməsinin Səyyar Sessiyasının 1938-ci il 5 yanvar tarixli qərarı ilə güllələnmə hökmü verilmişdi. Hökm bir gün sonra icra olunmuşdu. Oqtaygil bu faciədən xəbərsiz idilər. Oqtay atasının yolunu gözləyirdi...

O.Sadıqzadə 1939-cu ildə Bakı Rəssamlıq Texnikumunu əla qiymətlərlə bitirdi və Nizami muzeyində işləməyə başladı. O, hələ ilk əsərləri ilə rəssamlıq istedadını nümayiş etdirərək sənətşünasların təqdirini qazanırdı.

1941-ci ildə repressiyaya məruz qalmış ailənin övladı kimi o da sovet hökumətinin "diqqətindən" kənarda qalmadı. Oqtay Sadıqzadəyə hərbi komissarlıqdan çağırış gəldi. Gənc rəssam "xalq düşməni"nin övladı kimi cəbhəyə deyil, cərimə batalyonuna göndərildi.

1942-ci il sentyabrın 16-da isə qardaşı Cığataya hərbi komissarlıqdan çağırış gəldi. Onu da "xalq düşməni"nin övladı kimi əsgərlik adı ilə cərimə batalyonuna yolladılar. Ağır katorqa işlərində çalışmaqdan vərəm xəstəliyinə tutulub geri döndü.

Oqtay isə hələ də sürgündə idi. Buna görə də anası illər sonra sürgündən evə dönəndə Oqtayı görə bilmədi. Bakıda qalmaq yasaq edildiyi üçün iyirmi gün sonra anası Şamaxıya getdi. Ağır sürgün illəri sağlamlığını əlindən almış Ümmügülsüm xanım 1944-cü il sentyabrın 17-də Şamaxıda vəfat etdi.

1946-cı ildə Oqtay Sadıqzadə sürgündən qayıtdı. Anasının geri döndüyünü, lakin üç ay sonra vəfat etdiyini eşidəndə yasa batdı. 1948-ci ildə isə vərəm xəstəliyi iyirmi dörd yaşlı qardaşı Cığatayı onlardan aldı.

Oqtay Sadıqzadə Bakıya döndükdən sonra kitab qrafikası ilə məşğul olmağa başladı. Daha sonra təhsilini davam etdirmək niyyəti ilə Moskvaya üz tutdu. Surikov adına Moskva Dövlət Rəssamlıq İnstitutuna daxil oldu və qrafika ixtisası üzrə təhsil aldı. 1956-cı ildə institutu bitirdi.

Bakıya qayıtdı. "Azərnəşr"də bədii redaktor işləməyə başladı. Nəşriyyatda çalışdığı ilk illərdən Azərbaycan və dünya ədəbiyyatının görkəmli nümayəndələrinin əsərlərinə çəkdiyi illüstrasiyalarla kitab qrafikası sahəsində tanındı.

Rəssam İ.S. Turgenyevin "Atalar və oğullar", O. Balzakın "Qorio ata", M.Qorkinin "Artamonovların işi", İ. Qasımov və H. Seyidbəylinin "Uzaq sahillərdə", V. Hüqonun "Səfillər" (1955-1963), C. Məmmədquluzadənin "Danabaş kəndinin əhvalatları" (1958-1959), Xaqaninin "Lirika" (1958), Nizaminin "Fitnə" (1966), R. Nurinin "Çalı quşu" və digər əsərlərə çəkdiyi illüstrasiyalarla böyük rəğbət qazandı.



"1937-ci il repressiyasının qurbanları" tablosu, "Nizami Gəncəvi və dünya mədəniyyəti" adlı monumental silsilə əsərləri, "Qətran Təbrizi", "Natəvan", "Seyid Hüseyn", "Tatalovanın portreti", "Qız portreti", "Bakılı qız", "Natəvan" (1983), "Fidan Qasımova", "Akademik Zərifə xanım Əliyeva" və digər portretlər rəssamın yaradıcılığında xüsusi yer tutur.

Milli rəssamlıq sənətinin inkişafında müstəsna xidmətləri olan sənətkarın əsərlərinə Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin, Azərbaycan Milli Tarixi Muzeyinin, Üzeyir bəy Hacıbəyli, Hüseyn Cavid, Səməd Vurğun və Bülbülün ev-muzeylərinin tərtibatında xüsusi yer verilib.

Oqtay Sadıqzadə 1977-ci ildə Azərbaycanın Əməkdar incəsənət xadimi, 1992-ci ildə isə Xalq rəssamı fəxri adlarına layiq görülüb. 1999-cu ildə "Şöhrət", 2011-ci ildə "Şərəf" ordenləri ilə təltif edilib. 2014-cü ildə təsviri sənətin inkişafında xidmətlərinə görə Azərbaycan Respublikasının Dövlət mükafatına layiq görülüb.

Dünyanın müxtəlif ölkələrində yaradıcılıq ezamiyyətlərində olan rəssamın əsərləri bu gün ölkəmizdə və bir sıra xarici ölkələrin muzey, qalereya və şəxsi kolleksiyalarında saxlanılır.

Əsərləri ilə şöhrət qazanan, müasir Azərbaycan incəsənətinin inkişafında xüsusi xidmətləri olan fırça ustası Oqtay Sadıqzadə 2014-cü il dekabrın 20-də dünyasını dəyişdi.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

● Maraqlı talelər

## Sənətə böyük vurğunluq

**Yaşadığı bütün mənalı həyatını Azərbaycan teatr və kino sənətinə həsr etmiş, tamaşalarda və filmlərdə bir-birindən maraqlı, bənzərsiz, yaddaqalan obrazlar yaratmış aktyor, Xalq artisti Əliabbas Qədirov çoxlarına qismət olmayan əsl sənətkar ömrü yaşamışdır. Görkəmli aktyorun ölümündən iyirimi il keçməsinə baxmayaraq, o daim sənət dostları və pərəstişkarları tərəfindən hörmətlə xatırlanır.**



Əliabbas Gülabbas oğlu Qədirov 13 fevral 1946-cı ildə Bakı şəhərində dünyaya göz açıb. Orta təhsilini şəhərdəki 31, 176, 43, 36, 105 saylı orta məktəblərdə alıb. Kiçik yaşlarından aktyorluq peşəsi onun qəlbinə, ürəyinə hakim kəsilib. Uşaqlığından humanitar elmlərə, xüsusən ədəbiyyata maraq göstərən Əliabbasa bu sahəyə həvəsi Dilşad müəllim oyadıb. Əliabbas Qədirov ilk rollarını bu ədəbiyyat müəlliminin məktəbdə təşkil etdiyi dram dərnəyinin tamaşalarında oynayıb. Ondakı fitri istedadı görən Dilşad müəllim həmişə Əliabbasa baş rollarda oynamağı tapşırıb. Tamaşalarda gah Hacı Qaranı ("Hacı Qara"), gah Vaqifi ("Vaqif") oynaya-oynaya ürəyindən gələcək həyatı ilə bağlı bir-birindən gözəl arzular keçib. Günlərin birində bu arzuların reallığa çevriləcəyinə böyük ümid bəsləyib. Səkkizinci sinifdən "Dəmiryolçular" klubunda Xalq artisti Ağadadaş Qurbanovun rəhbərlik etdiyi dram kollektivinin üzvü olub. Aktyorluq sənətinin sirlərinə də elə həmin dram dərnəyində yiyələnib.



Sənətə böyük vurğunluq pillə-pillə onu zirvələrə ucaldıb. Ürəyində baş qaldıran arzularına çatmaq üçün o, yorulmaq bilmədən daim öz üzərində çalışıb, sınaqlara, imtahanlara hazırlaşıb. Bu çalışqanlıq, hazırlıq onun gələcəyinə yol açıb, arzularına qovuşdurub. Əliabbas Qədirov 1965-ci ildə Mirzağa Əliyev adına Azərbaycan Dövlət Teatr İnstitutunun (indiki Azərbaycan Dövlət Mədəniyyət Universiteti) dram və kino aktyorluğu fakültəsinə qəbul olub. Onu zirvələrə aparacaq yolun bünövrəsi burada qoyulub. İlk günlərdən ali təhsil ocağında çalışqanlığı ilə seçilib. Sənət müəllimi, ixtisas kurs rəhbəri Xalq artisti, professor Mehdi Məmmədov, səhnə danışığı müəllimi Əməkdar artist, qiraət ustası Müxlis Cənizadə olub. Tələbə həyatının sevincini yaşayan Əliabbas Qədirov sənətin sirlərini müəllimlərindən öyrənə-öyrənə püxtələşib.

Tələbəlik illərində institutun tədris teatrının ştatlı aktyoru kimi Əliabbas Qədirov Cəfər Cabbarlının "Aydın" (Surxay), Hüseyn Cavidin "Azər", Afanasi Salinskinin "Təbilçi qız" (Fyodr) əsərlərinin tamaşalarında maraqlı rollar oynayıb. Böyüklüyündən, kiçikliyindən asılı olmayaraq, onun oynadığı bütün rollar müsbət qarşılanıb, diqqəti cəlb edib, işıqlı gələcəyinə böyük ümidlər verib. Məhz elə bu bacarığına görə də Əliabbas Qədirov axırıncı kursda oxuyanda professor Mehdi Məmmədov onu akademik teatrda quruluş verdiyi Hüseyn Cavidin "Xəyyam" faciəsində Yusif rolunu oynamağa dəvət edib. Gənc aktyor bu tamaşada da oynadığı rolu ilə teatr ictimaiyyətinin rəğbətini qazanıb. Əliabbas Qədirov 1970-ci il aprelin 6-dan Milli Dram Teatrının aktyoru kimi fəaliyyətə başlayıb. Görkəmli aktyor uzun illər bu sənət ocağında çalışıb. Aktyorluqdan teatrın bədii rəhbəri və direktoru vəzifəsinə qədər yüksəlib.

Əliabbas Qədirov 1970-ci ildən ömrünün sonuna qədər Milli Dram Teatrının səhnəsində bir-birinə bənzəməyən yaddaqalan obrazlar yaradıb. Oynadığı rollara, necə deyərlər, öz möhürünü vurub. Sabit Rəhmanın "Küləklər" pyesində Xosrov, Mirzə Fətəli Axundzadənin "Xırs quldurbasan" əsərində Vəli, Nodar Dumbadzenin "Darıxma, ana!" əsərində Givi, İlyas Əfəndiyevin "Mahnı dağlarda qaldı" əsərində leytenant və Nicat, Cəfər Cabbarlının "Aydın" pyesində İlyas, Bəxtiyar Vahabzadənin "Kimdir haqlı?" əsərində Rəşad, Nəbi Xəzrinin "Torpağa sancılan qılınc" əsərində Qazan xan, Şekspirin "Kral Lir" əsərində Qraf Qloster və başqa rolları böyük məharətlə canlandırmışdır. Həm Akademik Milli Dram Teatrında, həm də filmlərdə oynadığı rollara nəzər yetirəndə Əliabbas Qədirovun çox peşəkarlıqla bir-birinə zidd, konfliktli, mürəkkəb xarakterli obrazlar yaratdığını görmək mümkündür.

Qısa müddət ərzində sənətkarlığı ilə böyük şöhrət qazanmış Əliabbas Qədirovun oynadığı tamaşaların bir qismi televiziyanın "Qızıl fond"una daxil edilmişdir. Bu tamaşalardan Süleyman Sani Axundovun "Laçın yuvası" (Cahangir), Məmməd Muradın "Təkan" (Dilqəm), İlyas Əfəndiyevin "Atayevlər ailəsində" (Cahangir), Mirzə Fətəli Axundzadənin "Hacı Qara" (Heydər bəy), Əbdürrəhim bəy Haqverdiyevin "Bəxtsiz cavan" (Fərhad), Mar Bayciyevin "Duel" (İsgəndər), Dazortsevin "Qəbula gələn sonuncu adam" (Kişi) əsərlərinin adlarını çəkmək olar. Bu gün də sevgi ilə baxılan həmin teletamaşalar Əliabbas Qədirovun necə də böyük bir sənətkar olduğunu parlaq şəkildə göstərir. Onu xalqa sevdirən də elə bu sənətkarlığı və bacarığıdır.

Görkəmli aktyor həm də Azərbaycan Dövlət Televiziyasında əvvəlcə gənclər üçün "Məşəl", sonralar əyləncə xarakterli "Komediyalar aləminə səyahət" verilişlərinə aparıcılıq da edib. Əliabbas Qədirov həm də müəllim işləyib. Uzun müddət Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində gələcək aktyorlara dərs demiş, yol göstərmişdir.

Əliabbas Qədirov teatrla yanaşı, kino aktyoru kimi də bacarığı və peşəkarlığı ilə böyük uğur qazanmışdır. Təcrübəli aktyor "Azərbaycanfilm"də "Xatirələr sahilində" (İmran), "Nəğmə dərsi" (Ata), "Nə yaxşı ki, Səməd Vurğun var" (Vaqif), "Bizim evin kişisi" (Mansur), "Qızıl uçurum" (Cəlil), "Qocalar" (Fəriz), "Babək" (Fəzl), "Dənizdən işarə" (Sultanov) və başqa filmlərə çəkilmişdir. Əliabbas Qədirov kinorejissor Eldar Quliyevin çəkdiyi "Sevinc buxtası" ikiseriyalı bədii filmindəki Nazim roluna görə Azərbaycan Respublikasının Dövlət mükafatına layiq görülmüşdür.

Adı həmişə hörmət və ehtiramla xatırlanan aktyor Əliabbas Qədirovun Azərbaycan incəsənətinin inkişafına verdiyi töhfələr zaman-zaman dövlətimiz tərəfindən layiqincə qiymətləndirilmişdir. Görkəmli aktyor 1978-ci ildə Azərbaycan SSR Dövlət mükafatına, 1982-ci ildə Azərbaycan SSR Əməkdar artisti fəxri adına, 1989-cu ildə isə Xalq artisti fəxri adına layiq görülmüşdür. 2006-cı ildə isə aktyor "Şöhrət" ordeni ilə mükafatlandırılmışdır.

Aktyorun 60 yaşı yenicə tamam olmuşdu. Müdrik yaşına çatmış Əliabbas Qədirovun yaradıcılıqla bağlı ürəyində arzuları, planları çox idi. Aktyor hələ yeni-yeni rollar oynamaq istəyi ilə yaşayırdı. Nə edəsən ki, son zamanlar səhhətində problemlər yaranmışdı. Amma buna baxmayaraq, hələ uşaqlığından ilk addımlarını atdığı, müxtəlif rolları canlandırdığı səhnəni tərk etməyi ağlına da gətirmirdi. Görkəmli aktyorun sonuncu rolu Əli Əmirlinin "Mesenat" əsərindəki Hacı Zeynalabdin Tağıyev oldu. Əgər sağlamlığı imkan versəydi, inanırıq ki, Əliabbas Qədirov bundan sonra da səhnəmizdə neçə-neçə parlaq obrazlar yaradacaqdı.

2006-cı il mart ayının 8-də qapıları görkəmli aktyor Əliabbas Qədirovun vəfat etdiyi barədə qara xəbər döydü. Azərbaycan teatrına ağır itki üz verdi. Oynadığı rolları ilə milyonların ürəyini fəth etmiş tanınmış sənətkar bizlərdən ayrıldı. Bu böyük sənətkardan xalqımıza teatr səhnəsində və filmlərimizdə yaratdığı bir-birinə bənzəməyən obrazlar qaldı. Əliabbas Qədirov yaratdığı bu obrazlarla tamaşaçı qəlbində heç vaxt pozulmayacaq iz qoydu. Xalqımız incəsənətimizin, mədəniyyətimizin inkişafında böyük xidmətlər göstərmiş bu böyük sənətkarı heç vaxt unutmayacaq.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

## Milli Xalça Muzeyində macar qobelen ustası Juja Perelinin fərdi sərgisi açılacaq

**Fevralın 11-də Azərbaycan Milli Xalça Muzeyində tanınmış macar qobelen ustası Juja Perelinin "Həqiqət çərçivəsindən kənar" adlı fərdi sərgisi açılacaq.**

Muzeydən bildirilib ki, sərgidə tekstil sənətinin aparıcı nümayəndələrindən sayılan Juja Perelinin dünyagörüşünü, yaradıcı potensialını və yüksək peşəkarlığını əks etdirən 29 əsəri nümayiş olunacaq.

Müəllifin ipək, yun və pambıq materialların sintezindən ərsəyə gətirdiyi qobelenlərdə insan və təbiət münasibətləri, kainat, zaman, yaddaş, əbədiyyət və s. mövzular mifoloji obrazlar və abstrakt motivlərlə üzvi şəkildə birləşdirilərək təqdim edilir. Onun dərin fəlsəfi məzmunu, mükəmməl kompozisiyası, zəngin kolorit




həlli ilə seçilən əsərlərində həm klassik Avropa qobelen ənənələri qorunur, həm də yeni materiallar, texnikalar və fərqli yaradıcı yanaşmalarla bu sənətin sərhədləri genişləndirilir. Juja Perelinin qobelenləri maddi və qeyri-maddi aləm arasında vasitəçi rolunu oynayaraq, sözlə çətin ifadə olunan duyğuları və mənəvi reallıqları simvollar vasitəsilə tamaşaçıya çatdırır. Bu xüsusiyyətlər müasir qobelen sənətində özünəməxsus yeri olan rəssamın əsərlərinə individuallıq və ölməzlik qazandırır.

2001-ci ildə Juja Pereli qobelen sənətinin mərkəzi sayılan Fransanın Obüsson şəhərində fərdi sərgi keçirən ilk xarici sənətkar olub. Onun əsərləri müxtəlif ölkələrin muzey və şəxsi kolleksiyalarında saxlanılır.

Sərgi fevralın 28-dək davam edəcək.

# Dünya maliyyə bazarı çalxalanır

## Qızıl "qızıl qiymətinndən bahadır

**Dilimizin adətidir - bir əşyanın qiyməti baha olduqda deyirik ki, "qızıl qiyməti"nədir. Yəni keçmişdən qızıl alış-verişdə meyar olub. İndi bu meyar itib, qızıl təkcə maliyyə bazarlarında yox, siyasi müstəvilərdə baş verən hadisələrə o qədər həssasdır ki, sabahkı qiymətinə, necə deyərlər, bel bağlamaq mümkün deyil.**



İkinci Dünya müharibəsindən bu günəcən dollar dünya valyutasıdır. İndi qlobal ticarətdə bütün sövdələşmələr bu valyuta ilə aparılır. Dünya birjalarında da hər növ məhsulun satışı əsasən bu pul vahidi ilə həyata keçirilir. İlk dövrlərdə amerikalılar öz valyutalarını dünyada alqı-satqı vahidinə çevirmək üçün arxasında heç vaxt dəyərini itirməyən qızılın dayanmasını təklif etmişlər. Bir çox ölkələr də bununla razılaşaraq öz qızıllarını Amerikada girov kimi qoymuşlar. Beləcə, ötən əsrin 70-ci illərinə qədər ABŞ dollarının arxasında qızıl dayanırdı. Ancaq sonradan gördülər ki, bu, dünyanın dollara olan tələbatını ödəməyə mane olur, o üzdən də köhnə "adət"lərindən imtina etdilər. Amma artıq ABŞ dünyanı dollardan asılı vəziyyətə salmışdı və bilirdi ki, bunun geri dönüşü yoxdur. Bütün ölkələrin, eləcə də Beynəlxalq Valyuta Fondu və Dünya Bankının ehtiyatlarında dollar üstünlük təşkil edirdi. Belə olan halda hətta arxasında qızılın zəmanəti olmayan dollar dünya maliyyəsinə nəzarəti əldə saxlaya bilirdi.

Odur ki, hazırda dünya maliyyə sistemində gedən bütün proseslər birbaşa Amerika, daha dəqiq desək, ABŞ-nin Federal Ehtiyatlar Sisteminə (FES) bağlıdır. FES 1913-cü ildə yaradılmış müstəqil qurumdur və ABŞ-nin pul siyasətini müəyyən edir, baza faiz dərəcəsini tənzimləyir, inflyasiya ilə mübarizə aparır və bank sisteminin sabitliyini təmin edir. Bu qurum tərəfindən həmçinin dolların uçot dərəcəsi müəyyənləşdirilir ki, bu da bütün ölkələrin milli pul vahidlərinə və maliyyə dayanıqlığına birbaşa təsir edir.

Bəs qızılın son bahalaşmasının səbəbi nədir? Suala cavab verərkən yenə də ABŞ-nin pul siyasətinə diqqət yetirmək lazımdır. Görünür, ABŞ Prezidenti Çin variantını örnək götürmək istəyir. Belə ki, Çin milli valyutasını bilərəkdən dəyərsizləşdirərək məhsullarını dünya bazarında ucuz satır və bu hesaba rəqabət qabiliyyətini artırır, üstəlik, külli miqdarda dolların ölkəyə axınını təmin edir, qlobal ticarətdə üstünlüyü ələ alır. Donald Tramp bu həmlə ilə (dolları ucuzlaşdırıb qızılı bahalaşdırmaqla) Çinlə rəqabətdə ölkəsinin üstünlüyünü bərpa etmək istəyir.

İqtisadçı-ekspert Eldəniz Əmirov deyir ki, D.Tramp dolların ucuzlaşmasını istəyir. Bu, onun prezidentliyinin birinci dövründə apardığı siyasətin davamıdır. Xatırladaq ki, D.Trampın prezidentliyinin birinci dönəmində dünya bazarında qızılın qiyməti 52-53 faiz bahalaşmışdır. E.Əmirov Tramp dövründə qızılın qiymətinin qalxmasının səbəblərini də açıqlayıb: "Tramp ucuz dolların tərəfdarıdır. Dollar ucuzlaşanda ABŞ ixrac malları xarici bazarlarda daha ucuz görünür və rəqabət qabiliyyəti artır. Tramp bu məqsədlə dəfələrlə FES rəhbərliyi ilə mübahisə edirdi. O, yüksək faiz dərəcələrinə qarşı çıxırdı, çünki yüksək faizlər dolları gücləndirir. Dollar gücləndikcə ABŞ-nin ixracı çətinləşir, istehsalçıları rəqabətdə rəqiblərinə uduzur. Amma dolların ucuzlaşmasının başqa bir təsiri də var və o, qızılın bahalaşmasıdır. Çünki qızıl dollarla qiymətləndirilir. Dollar zəifləyəndə dünya bazarında qızıl daha cəlbedici olur, tələb artır, qiymət qalxır. Bundan başqa, zəif dollar dövründə investorlar risklərdən sığortalanmaq üçün qızıla üstünlük verirlər. Beləliklə, həm iqtisadi siyasət, həm də investor davranışları qızılı daim təhlükəsiz investisiya alətinə çevirir. Və bu gün də oxşar dinamika müşahidə olunur. Dolların dəyərsizləşdirilməsi siyasəti və qlobal risklər fonunda qızılın qiymətinin artımı davam edir".

Azərbaycana gəldikdə, Milli Məclisin deputatı Vüqar Bayramov deyir ki, ölkəmiz qızıl ehtiyatlarını kəskin artıran dövlətlərdəndir: "Qızılın bahalaşması fonunda dövlət qızıl ehtiyatlarının daha da artması müşahidə edilməkdədir. Son 1 ildə dünya bazarında qızılın qiyməti 1,7 dəfə artıb. Yarım illik yekunlara görə, artım 1,2 dəfə olub. Son 1 ayda isə qızıl 35 faiz bahalaşıb". İqtisadçı deputat onu da bildirib ki, "Trade Economics" təşkilatının qiymətləndirilmələrinə əsasən, qızıl ehtiyatların həcminə görə ölkəmiz dünyada ilk 25-likdədir. Ehtiyatların həcminə görə ABŞ 8,133 min tonla dünyada birinci, Almaniya 3,350 min tonla ikinci, İtaliya 2,452 min tonla üçüncüdür: "Göründüyü kimi, Azərbaycanın çevik sərmayə siyasəti valyuta ehtiyatlarımızın daha da artmasına səbəb olub. Bu isə iqtisadiyyatın dayanıqlığı və fiskal xərclərin fasiləsiz təminatı baxımdan da vacibdir".

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

«AZƏRBAYCAN»
qəzetinin reklam xidməti
539-49-20

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Rayyənə Ağabala qızı Hacıağayevanın adına verilmiş Şəhid ailəsi üzvünün vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**

BEYNƏLXALQ HƏYAT

# Yaponiyada hakim partiya inamlı qələbə qazanıb

**Baş nazir Sanae Takaiçinin rəhbərlik etdiyi hakim Liberal Demokrat Partiyası (LDP) Yaponiyada keçirilən növbədənkənar parlament seçkilərində qalib gəlib. Açıqlanmış nəticələrə görə, LDP parlamentin aşağı palatasında 465 yerdən 316-na yiyələnib. Onun koalisiya tərəfdaşı İnnovasiya Partiyası isə 36 yer qazanıb.**

Bu, LDP-nin 1955-ci ildə təsis edildiyi vaxtdan bəri ən yaxşı nəticəsidir. Əvvəlki rekord 1986-cı ildə Baş nazir Yasuhiro Nakasonenin dövründə əldə edilmişdi və o zaman partiya 300 yer qazanmışdı.

LDP-nin baş katibi Şuniçi Sudzuki bildirib ki, "Baş nazir Sanae Takaiçinin məsuliyyətli, proaktiv vergi siyasəti və milli müdafiənin gücləndirilməsi üçün seçici dəstəyi aldıq".

NHK telekanalının məlumatına görə, əsas müxalifət Konstitusiya Demokrat Partiyası (CDP) və LDP-nin əvvəlki tərəfdaşı "Komeyto" Partiyasından ibarət yeni Mərkəzçi İslahat Alyansı 123 yer itirib. Seçkilərdən əvvəl müxalifət 172 yerə sahib idi, lakin indi yalnız 49 mandat əldə edə bilib.



64 yaşlı Sanae Takaiçi LDP-nin artan qiymətlər və korrupsiya səbəbindən itirdiyi dəstəyin böyük hissəsini son seçkilərdə bərpa edib. Ötən ilin oktyabr ayında partiya lideri və baş nazir təyin olunan siyasətçi seçicilər, xüsusən də gənclər arasında populyarlıq qazanıb. "Kyodo" xəbər agentliyinin məlumatına görə, parlament seçkilərində qələbə S.Takaiçiyə "mühafizəkar siyasi platformasını irəli aparmaqda əhəmiyyətli üstünlük" verir.

Seçkilərdən əvvəl LDP-nin 198 yeri var idi və medianın qeyd etdiyi kimi, hazırkı uğur S.Takaiçinin şəxsi populyarlığı sayəsində mümkün olub. O da bildirilir ki, parlamentin əsas aşağı palatasında 310 yerlik üçdəiki baryeri aşmaq LDP-nin Konstitusiyanı dəyişdirə və ya qanun layihələrini qəbul edə biləcəyi deməkdir, hətta bu təşəbbüslər hakim koalisiyanın azlıqda qaldığı parlamentin yuxarı palatası tərəfindən rədd edilsə belə.

EFE agentliyi onun sözlərini sitat gətirib: "Kabinetimiz təxminən 3 ay əvvəl formalaşıb. Bütün nazirlər etibar etdiyim insanlardır. Onlar çox çalışırlar və buna görə də mən struktur dəyişikliyi etmək niyyətində deyiləm".

Seçici narazılığının əsas mənbəyi olan inflyasiyanın ağrısını azaltmaq üçün hazırlanmış 135 milyard dollarlıq stimullaşdırıcı paketdən sonra hökumət başçısı ərzaq istehlakı vergisini dayandırmaq üçün kampaniya öhdəliyi götürüb.

Yaponiyanın borcu ölkənin bütün iqtisadiyyatının iki qatından çoxdur və uzunmüddətli istiqraz gəlirləri son həftələr rekord həddə çatıb ki, bu da dünyada narahatlıq doğurub.

Xatırladaq ki, ölkədə növbədənkənar parlament seçkilərinin keçirilməsi fevralın ortalarında Sanae Takaiçi parlamenti buraxdıqdan sonra elan olunub. Qeyd edək ki, S.Takaiçi 2025-ci ilin oktyabrında Yaponiyanın Baş naziri təyin edilib.

# Portuqaliya: prezident seçkilərində qalib müəyyənləşib

## Sosialist Partiyasının namizədi Antonio Jose Sequro böyük səs çoxluğu ilə dövlət başçısı seçilib

**Sol-mərkəzçi Sosialist Partiyasının namizədi Antonio Jose Sequro Portuqaliyada prezident seçkilərinin ikinci turunda böyük səs çoxluğu ilə qalib gələrək beşillik müddətə dövlət başçısı seçilib. Onun rəqibi - ifrat-sağçı siyasətçi Andre Ventura idi.**




Bülletenlər sayılandan sonra 63 yaşlı A.Sequronun səslərin 67, A.Venturanın isə 33 faizi səs topladıqları məlum olub. Bu nəticə immiqrasiya əleyhinə partiya olan "Çeqa"nın göstəricilərini xeyli üstələyir. Ötənilki parlament seçkilərində A.Venturanın partiyası 22,8 faiz səs toplamışdı.

Exit-pollar da A.Sequronun aşkar şəkildə üstün olduğunu göstərib: onun dəstəyi 67-73, A.Venturanın dəstəyi isə 27-33 faiz arasında qiymətləndirilib.

Seçki günlərində Portuqaliyada bərqərar olan əlverişsiz hava şəraiti seçici fəallığına təsir göstərməyib və yanvarın 18-də keçirilən birinci turla eyni səviyyədə qalıb.

Daşqınlar səbəbindən ölkənin cənubunda və mərkəzindəki üç bələdiyyədə seçkilər bir həftə təxirə salınıb. Bu, təxminən 37 min seçici və ya ümumi seçicilərin təxminən 0,3 faizidir, başqa sözlə, ümumi nəticəyə təsir göstərməyəcək qədərdir.

Antonio Jose Sequro martın əvvəlində indiki Prezident Marselo Rebelo de Souzanı əvəz edərək vəzifəsinin icrasına başlayacaq.

Qeyd edək ki, seçkilərdə rekord sayda namizəd - 11 nəfər mübarizə aparırdı.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin rəhbərliyi, deputatlar, parlament Aparatının və İşlər İdarəsinin kollektivləri Milli Məclisin deputatı Günay Ağamalıya atası

**FƏZAİL AĞAMALININ**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Milli Məclisinin komitə sədri Hicran Hüseynova və Rüfət Səfərəliyev Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi Mürsəl İbrahimova anası

**SOLMAZ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının rəhbərliyi və kollektivi daxili işlər nazirinin birinci müavini Seyfulla Əzimova anası

**SƏMƏRQƏND ƏZİMOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının rəhbərliyi və kollektivi Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi general-mayor Mürsəl İbrahimova anası

**SOLMAZ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Mərkəzi Bankının rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi general-mayor Mürsəl İbrahimova anası

**SOLMAZ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının rəhbərliyi və kollektivi Mərkəzi Seçki Komissiyası sədrinin müavini Rövzət Qasımova əzizi

**VƏLİ QASIMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi Mürsəl İbrahimova anası

**SOLMAZ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin deputatı Mübariz Qurbanlı Milli Məclisin sabiq deputatı

**FƏZAİL AĞAMALININ**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Milli Məclisin deputatı Səttar Möhbalıyev Milli Məclisin sabiq deputatı

**FƏZAİL AĞAMALININ**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Milli Məclisin deputatı Xanlar Fətiyev Milli Məclisin sabiq deputatı

**FƏZAİL AĞAMALININ**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Ədliyyə Nazirliyinin rəhbərliyi və kollektivi Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, general-mayor Mürsəl İbrahimova anası

**SOLMAZ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov Azərbaycan Respublikası daxili işlər nazirinin birinci müavini, polis general-leytenantı Seyfulla Əzimova anası

**SƏMƏRQƏND ƏZİMOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi general-mayor Mürsəl İbrahimova anası

**SOLMAZ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Dövlət Mühafizə Xidmətinin kollektivi Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi general-mayor Mürsəl İbrahimova anası

**SOLMAZ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Səbail rayonundan Vuqar Zeynalov Azərbaycan Respublikası daxili işlər nazirinin birinci müavini, polis general-leytenantı Seyfulla Əzimova anası

**SƏMƏRQƏND XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin rəhbərliyi və kollektivi Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi Mürsəl İbrahimova anası

**SOLMAZ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Azərenerji" ASC-nin rəhbərliyi və kollektivi daxili işlər nazirinin birinci müavini, polis general-leytenantı Seyfulla Əzimova anası

**SƏMƏRQƏND ƏZİMOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Azərenerji" ASC-nin rəhbərliyi və kollektivi Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, general-mayor Mürsəl İbrahimova anası

**SOLMAZ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Maliyyə şöbəsinin müdiri Rauf Orucov Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin 11 saylı Ərazi Vergilər Baş İdarəsinin rəisi Vüsal Məmmədova atası

**NÜSRƏDDİN MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

İqtisadiyyat Nazirliyinin rəhbərliyi və kollektivi Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi general-mayor Mürsəl İbrahimova anası

**SOLMAZ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi İlqar Musayev və xidmətin kollektivi Azərbaycan Respublikası daxili işlər nazirinin birinci müavini Seyfulla Əzimova anası

**SƏMƏRQƏND YADULLA QIZI ƏZİMOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının kollektivi Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi general-mayor Mürsəl İbrahimova anası

**SOLMAZ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, general-mayor Mürsəl İbrahimova anası

**SOLMAZ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3227
Sifariş 202

Qiyməti 60 qəpik